Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi

# Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər

*Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativlər (1994-2008-ci illər)*

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi

# Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər

***Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və normativlər (1994-2008-ci illər)***

**Bakı-2008**

Az-2
B-54

**Nəşrə hazırlayan**
Qabil Mehdiyev

**B-54. Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər.**
Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar, qayda və normativlər.
256 səhifə.

Kitabda 1994-cü ildən 2009-cu il yanvarın 1-dək Azərbaycan Respublikası Prezidentinin idmanla bağlı imzaladığı fərman və sərəncamlar, qanunlar, dövlət proqramları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu sahə ilə bağlı bəzi qərarları və digər rəsmi sənədlər əks olunub. Kitab əsasən bədən tərbiyəsi və idman sahəsində çalışanlar, mütəxəssislər, eləcə də Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllim və tələbələri üçün nəzərdə tutulub.

Q $\frac{4201000000\text{-}01}{8032\text{-}2008}$ qrifli nəşr

«Avropa» nəşriyyatı. 2008

## Dövlət qayğısının əhatəsində və ya ön söz əvəzi

Sovet hakimiyyəti illərində respublikamıza rəhbərliyi dövründə idmanın inkişafına daim diqqət yetirmiş ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə müstəqil ölkəmizə yenidən rəhbərliyə qayıdışından sonra bu sahəyə diqqət daha da artırılmışdır.

1994-cü ilin 26 iyununda Gənclər və İdman Nazirliyinin yaradılması barədə mühüm dövlət sənədini imzalamaqla gənc respublikamızda gənclərə və idmançılara dövlətin qayğısının əsasını qoyan Prezident Heydər Əliyev bununla həm də ölkəmizin gələcəyi üçün potensial kadrlar yetişdirilməsində böyük bir addım atmış oldu. Bu, Heydər Əliyevin firavanlığını istədiyi Azərbaycan üçün gördüyü işlərin olduqca vacib tərkib hissəsidir. Öz həyatını xalqa həsr edən, Azərbaycanın gələcəyinin gənclər olduğunu tez-tez yadımıza salan dünya şöhrətli siyasətçi bir-biri ilə sıx bağlı olan iki sahəni - gəncliyi və idmanı himayəsinə almaqla sağlam gələcəyimizin qarantı və təminatçısı rolunu öz üzərinə götürdü.

1995-ci il martın 5-də Prezident Heydər Əliyev beynəlxalq yarışlarda uğurlar qazanan bir qrup idmançı və onların məşqçiləri, eləcə də idman ictimaiyyətinin tanınmış nümayəndələri ilə görüşdü və onları narahat edən məsələlərlə maraqlanaraq problemlərini dinlədi. Həmin görüşdə “idmana xüsusi qayğını öz üzərimə götürürəm və əmin ola bilərsiniz ki, siz bundan sonra bu qayğını daim hiss edəcəksiniz” deyən, Prezident Heydər Əliyev çox çəkmədi ki, bədən tərbiyəsi və idmana dövlət qayğısını əks etdirən bir sıra fərman və sərəncamlar imzaladı. Bu sənədlər arasında İdman Fondunun yaradılması xüsusi önəm daşıyırdı.

Həmin vaxtdan başlayaraq, idmançıların təltif edilməsi, yarışlara hazırlığı və digər məsələlərlə bağlı dövlət sənədlərinin hazırlanaraq həyata keçirilməsinə start verildi.

1997-ci ildən, yəni cənab İlham Əliyevin Milli Olimpiya Ko-

mitəsinə prezident seçilməsindən sonra ölkədə Olimpiya Hərəkatının inkişafına və genişlənməsinə bilavasitə cavabdeh olan MOK öz işini dövlətlə sıx əməkdaşlıq şəraitində qurdu ki, bu da əlaqələrin ilbəil daha da genişlənməsinə yol açdı. Təsadüfi deyil ki, məhz bu cür qarşılıqlı anlayış şəraitində birgə fəaliyyət hər bir problemin vaxtında həllinə öz təsirini göstərdi. Elə buna görə də istər müvafiq dövlət qurumları, istər MOK, istərsə də idman federasiyaları arasında yaranan isti münasibətlər son nəticədə, ölkədə mehriban bir idman ailəsinin formalaşmasına və bu sahənin tərəqqisinə yol açdı. Məhz bu cür əməkdaşlığın nəticəsidir ki, bu gün ölkəmizdə təltifolunma ilə bağlı ən çox fərman və sərəncamların imzalandığı sahə demək olar ki, idmandır. Bir faktı vurğulamaq kifayətdir ki, ulu öndərimiz Heydər Əliyevin və onun bütün sahələrdə olduğu kimi idmandakı fəaliyyətini də uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzində hər iki dövlət başçısı tərəfindən imzalanmış idmanla bağlı fərmanların, sərəncamların, hüquqi bazanın möhkəmlənməsinə xidmət edən qanunların, dövlət proqramlarının və digər sənədlərin ümumi sayı 100-ə yaxındır. Sevindirici haldır ki, bunların çoxu idmançı və mütəxəssislərin sosial müdafiəsini və onların dövlət mükafatları, fəxri adlarla təltif edilməsini əks etdirir. Təkcə onu qeyd etmək kifayətdir ki, Prezident İlham Əliyev Milli Olimpiya Komitəsinə rəhbərliyə başladığı vaxtdan indiyədək 150-dən çox idmançı və idman mütəxəssisini yeni mənzillərlə mükafatlandırıb. Bundan başqa Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə indiyədək 34 nəfərə “Şöhrət” ordeni, 78 nəfərə “Tərəqqi” medalı, 11 idmançıya Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdü, 32 nəfərə fərdi təqaüd, 22 nəfərə “Əməkdar müəllim”, 66 nəfərə isə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adları verilib.

Bu təltiflərin hər biri idman ictimaiyyəti tərəfindən böyük rəğbət və ruh yüksəkliyi ilə qarşılanıb. Tam məsuliyyətlə demək olar ki, bu gün Azərbaycanın dünyanın aparıcı idman ölkələrindən birinə çevrilməsində, dövlət qayğısını əks etdirən bu fərman və sərəncamların çox böyük rolu olmuşdur.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMAN VƏ SƏRƏNCAMLARI, QANUNLAR, DÖVLƏT PROQRAMLARI



*"İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir".*



**Heydər Əliyev**
Ulu öndər



*"Çox sevindirici haldır ki, son zamanlar ölkəmizdə idmana maraq, idmanla məşğul olmaq istəyənlərin sayı get-gedə artır. Biz səbəbi ilk növbədə bunda görürük ki, dövlət tərəfindən idmana olan qayğı yüksək səviyyədədir".*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

# Bədən tərbiyəsi və idman haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Bu Qanun bədən tərbiyəsi və idman sahəsində yaranan münasibətləri tənzimləyir, Azərbaycan Respublikasının dövlət siyasətini müəyyənləşdirir, bədən tərbiyəsi və idmanla hər kəsin məşğul olmaq hüququna təminat verir.**

## I fəsil
## Ümumi müddəalar

### Maddə 1. Qanunun məqsəd və vəzifələri

Bu Qanunun məqsədi bədən tərbiyəsi və idman vasitəsi ilə insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin etmək, xəstəliklərin, zərərli vərdişlərin qarşısını almaq, əhalinin yüksək əmək qabiliyyəti səviyyəsinə, fəal uzunömürlülüyünə, beynəlxalq aləmdə Azərbaycan idmanının nüfuzunun yüksəldilməsinə nail olmaq və gəncləri fiziki və mənəvi cəhətdən Vətənin müdafiəsinə hazırlamaqdır.

Bu Qanunun vəzifələri:

- vətəndaşların bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququnu təmin etməkdən;
- bədən tərbiyəsi və idman sisteminin fəaliyyəti və inkişafı üçün hüquqi təminat yaratmaqdan;
- fiziki və hüquqi şəxslərin bədən tərbiyəsi və idman sahəsindəki hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən etməkdən, bu sahədə yaranan münasibətləri tənzimləməkdən ibarətdir.

### Maddə 2. Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarından və beynəlxalq müqavilələrindən ibarətdir.

**Maddə 3. Bədən tərbiyəsi və idman sahəsində dövlət siyasəti**

Bədən tərbiyəsi və idman sahəsində Azərbaycan Respublikasının dövlət siyasəti:

- bədən tərbiyəsi və idmanın hüquqi bazasını yaratmaqdan;
- bədən tərbiyəsi və idmanın inkişafının təmin etdirilməsi, yüksək dərəcəli idmançıların hazırlanması üçün bədən tərbiyəsi-idman təşkilatları, uşaq idman müəssisələri sistemini yaratmaqdan;
- bədən tərbiyəsi və idmanın inkişafı üçün zəruri maddi-texniki bazanı yaratmaqdan;
- bədən tərbiyəsi və idman sənayesini inkişaf etdirməkdən;
- tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün idman təşkilatları üçün bərabər imkanlar yaratmaqdan ibarətdir.

**Maddə 4. Bədən tərbiyəsi və idman yönümlü ictimai birliklər**

Bədən tərbiyəsi və idmanın inkişafı üçün yaradılan və əsas məqsədi gəlir əldə etmək olmayan idman cəmiyyətləri, idman növləri üzrə federasiyalar və assosiasiyalar, fondlar, klublar (habelə vətəndaşların bədən tərbiyəsi və idmanı inkişaf etdirən digər birlikləri) bədən tərbiyəsi və idman yönümlü ictimai birliklər hesab olunurlar.

Bədən tərbiyəsi və idman yönümlü ictimai birliklər öz fəaliyyətlərində "İctimai birliklər haqqında" Azərbaycan Respublikasının Qanununu, bu Qanunu və digər normativ-hüquqi aktları rəhbər tuturlar.

İdman federasiyası - müvafiq idman növü üzrə klubların və komandaların könüllü üzvlüyü əsasında yaradılan, həmin idman növünün respublikada inkişafını təmin edən, müvafiq beynəlxalq idman federasiyasının nizamnaməsi və onun müəyyən etdiyi qaydalara və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərən ictimai birlikdir.

İdman federasiyaları:

- bədən tərbiyəsi və idman üzrə Dövlət Proqramına uyğun olaraq müvafiq idman növlərini inkişaf etdirir;
- respublika və beynəlxalq yarışların və tədbirlərin keçirilməsini təşkil edir;

- beynəlxalq federasiyalarda Azərbaycan Respublikasını təmsil edir;
- müvafiq icra hakimiyyəti orqanı idmançıların və yığma komandaların beynəlxalq yarışlara, qitə və dünya çempionatlarına, olimpiya oyunlarına hazırlığını və iştirakını təmin edir;
- hər il üçün yığma komandaların və məşqçilərin heyətini müəyyənləşdirir və müvafiq idman növləri üzrə idman hakimlərinin hazırlanması işləri ilə məşğul olurlar.

**Maddə 5. İdman sahəsində beynəlxalq əlaqələr**

İdman təşkilatları beynəlxalq idman əlaqələrində müstəqildirlər.

İdman təşkilatları və ayrı-ayrı idmançılar yarış qaydalarına və beynəlxalq idman təşkilatlarının nizamnamələrinə uyğun olaraq beynəlxalq idman yarışlarında iştirak edə bilərlər.

Beynəlxalq yarışlarda Azərbaycan Respublikasını rəsmi təmsil etmək hüququ müvafiq icra hakimiyyəti orqanına, onun müəyyən etdiyi qaydada idman növləri üzrə müvafiq federasiyalara və ya digər idman yönümlü ictimai birliklərə məxsusdur.

**Maddə 6. Vətəndaşların bədən tərbiyəsi və idman sahəsində hüquqları**

Azərbaycan Respublikası vətəndaşlarının bədən tərbiyəsi və idmanla, o cümlədən peşəkar idmanla məşğul olmaq, bədən tərbiyəsi və idman yönümlü ictimai birliklərdə birləşmək, idman hərəkatının idarə olunmasında iştirak etmək, idman qurğuları və avadanlıqlarından istifadə etmək hüququ var.

**Maddə 7. Bədən tərbiyəsi və idman sahəsində sahibkarlıq fəaliyyəti**

Azərbaycan Respublikasının vətəndaşları peşəkar idman klubları və assosiasiyaları yaratmaq, bədən tərbiyəsi və idman təşkilatlarına, ayrı-ayrı şəxslərə pullu xidmətlər göstərmək, idman təyinatlı məhsulların istehsalı ilə məşğul olmaq, idman qurğuları və tikililərini, digər idman vasitələrini əldə etmək, icarəyə vermək, "Sahibkarlıq fəaliyyəti haq-

qında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq digər fəaliyyətlə məşğul olmaq hüququna malikdirlər.

**Maddə 8. Bədən tərbiyəsi və idmanın təşviqi və təbliği**

Müvafiq icra hakimiyyəti orqanları, bədən tərbiyəsi və idman yönümlü ictimai birliklər kütləvi informasiya vasitələrində bədən tərbiyəsi və idmanın təşviqini və təbliğini təmin edirlər.

İdmanda insan ləyaqətinin alçaldılmasının, qadağan olunmuş stimullaşdırıcılardan istifadə olunmasının təbliği və tətbiqinə yol verilmir.

İdman obyektlərində, habelə idman yarışlarının televiziya və radio ilə yayımı zamanı spirtli içkilərin və tütün məmulatlarının reklamı qadağandır.

## II Fəsil
## Bədən tərbiyəsi və idman

**Maddə 9. Bədən tərbiyəsi və idman anlayışı**

Bədən tərbiyəsi - ümumi mədəniyyətin ayrılmaz hissəsi olub, insanın sağlamlığının möhkəmləndirilməsi və fiziki inkişafına yönəldilmiş sosial fəaliyyət sahələrindən biridir.

Bədən tərbiyəsi hər bir şəxsin marağı, istehsalın, təhsilin, gənclərin əməyə və Vətənin müdafiəsinə hazırlanmasının amilləri nəzərə alınmaqla bu Qanunun müddəalarına uyğun olaraq formalaşdırılır və fiziki tərbiyənin təşkilinə yönəldilir.

İdman - müxtəlif fiziki hərəkətlər kompleksi vasitəsilə sistematik olaraq şəxsin fiziki hazırlığının təkmilləşdirilməsinə, mübariz və mənəvi keyfiyyətlərinin formalaşmasına, yarışlarda nəticələr göstərilməsinə yönəldilmiş fiziki tərbiyənin tərkib hissəsidir.

**Maddə 10. Tədris və məktəbəqədər tərbiyə müəssisələrində bədən tərbiyəsi və idman**

Məktəbəqədər yaşlı uşaqların, məktəblilərin və tələbələrin sağlamlığını qorumaq və möhkəmləndirmək, onlarda fiziki kamilliyə və sağlam həyat tərzinə olan tələbatı formalaşdırmaq bütün təhsil və məktə-

bəqədər tərbiyə müəssisələrinin əsas vəzifələrindəndir.

Təhsil müəssisələri dövlət proqramları və fiziki hazırlıq normativləri əsasında, yerli şərait və təhsil alanların marağı nəzərə alınmaqla, bədən tərbiyəsi dərslərinin, idman məşğələlərinin forma və üsullarını müstəqil müəyyən edirlər.

Təhsil və məktəbəqədər müəssisələrdə bədən tərbiyəsi dərsləri və idman məşğələlərinin həcmi müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

Dərsdənkənar bədən tərbiyəsi və idman məşğələləri məktəbdə, habelə məktəbdənkənar müəssisələrdə, bədən tərbiyəsi və idman yönümlü ictimai birliklər də cəlb olunmaqla təşkil edilir.

Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi məktəbəqədər tərbiyə müəssisələrinin təlim-tərbiyə proqramına daxil edilərək bədən tərbiyəsi məşğələsi formasında həyata keçirilir.

Təhsil və məktəbəqədər tərbiyə müəssisələri müvafiq qaydada təsdiq edilmiş dövlət normativlərinə uyğun olaraq hər il uşaqların, şagird və tələbələrin hazırlıq testini keçirirlər.

Sağlamlığında qüsuru olanlara bədən tərbiyəsi dərsləri və idman məşğələləri təhsil proqramına daxil edilmiş xüsusi və fərdi proqramlar üzrə keçirilir.

Dərsdənkənar bədən tərbiyəsi və idman işlərini məqsədyönlü həyata keçirmək, idman tədbirlərində fəal iştirak etmək məqsədilə tədris müəssisələrində idman klubları yaradılır.

Tədris müəssisələri şagird və tələbələrin hərbi-idman hazırlığını hərbi komissarlıqlar, gənclər təşkilatları, könüllü hərbi-vətənpərvərlik və texniki-idman cəmiyyətləri ilə birlikdə həyata keçirirlər.

Məktəbdənkənar sağlamlıq və idman təşkilatları bədən tərbiyəsi və idmanın inkişafının dövlət proqramına uyğun olaraq uşaqların və gənclərin müntəzəm olaraq bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsi, onların fiziki cəhətdən kamilləşməsi üçün şərait yaradırlar.

### Maddə 11. Hərbi qulluqçuların və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin fiziki hazırlığı

Hərbi qulluqçuların və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin fiziki hazırlığı onların hərbi borclarının və əsas xidməti vəzifələrinin

yerinə yetirilməsinə xidmət edir. Fiziki hazırlığın normativləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Komandirlər (rəislər), hərbi qulluqçular və hüquq-mühafizə orqanlarının şəxsi heyəti üçün nəzərdə tutulmuş idman növləri, habelə onların özlərinin seçdikləri idman növləri ilə imkan daxilində məşğul olmaları üçün lazımi şərait yaradırlar.

Yaş həddi nəzərə alınmaqla hərbi qulluqçular və hüquq-mühafizə orqanlarının şəxsi heyəti üçün fiziki hazırlıq üzrə məcburi test üsulu tətbiq edilir.

### Maddə 12. İdarə, müəssisə və təşkilatlarda bədən tərbiyəsi və idman

Mülkiyyət formasından asılı olmayaraq bütün idarə, müəssisə və təşkilatların rəhbərləri işçilərin bədən tərbiyəsi və idmanla məşğul olmaları, idman və idman turizmi tədbirlərində iştirak etmələri üçün lazımi şərait yaratmalı, bu məqsədlər üçün maliyyə vəsaitləri ayırmalıdırlar.

İdarə, müəssisə və təşkilatlarda işçilərin bədən tərbiyəsi və idmanla məşğul olmalarını təmin etmək məqsədilə həmin qurumun hesabına maliyyələşdirilən idman klubları yaradıla bilər.

### Maddə 13. Yaşayış və kütləvi istirahət yerlərində bədən tərbiyəsi və idman

Yaşayış və kütləvi istirahət yerlərində əhalinin bədən tərbiyəsi və idmanla məşğul olması üçün şərait yaradılmasını, habelə uşaq və yeniyetmələrin asudə vaxtlarının səmərəli keçirilməsinin təşkilini, bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramına uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı büdcə vəsaiti və digər mənbələr hesabına həyata keçirir.

### Maddə 14. Sanatoriya-kurort müəssisələrində, istirahət evlərində və turist bazalarında bədən tərbiyəsi, idman və sağlamlıq işləri

Sanatoriya-kurort müəssisələrinin, istirahət evlərinin və turist baza-

larının rəhbərləri istirahət edənlərin sağlamlığının möhkəmləndirilməsi, xəstəliklərin profilaktikası müalicəsi məqsədilə müalicə və istirahət prosesində bədən tərbiyəsi və idmanın müxtəlif vasitələrindən istifadə edilməsi üçün şərait yaradırlar.

Sağlamlıq zonalarında və istirahət parklarında əhalinin fərdi qaydada sağlamlıq bədən tərbiyəsi və idmanla məşğulluğu üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi sahələr ayrılmalıdır.

**Maddə 15. Əlillərin bədən tərbiyəsi və idmanı**

Əlillər arasında bədən tərbiyəsi və idmanın inkişafı onların reabilitasiyasına xidmət edir.

Müvafiq icra hakimiyyəti orqanı "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiya və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq büdcə vəsaiti və digər mənbələr hesabına əlillərin idman qurğularında bədən tərbiyəsi və idmanla məşğul olması üçün lazımi şərait yaradır.

Əlillərin reabilitasiya prosesində bədən tərbiyəsi və idmanla məşğul olmalarını, bu sahə üçün xüsusi kadr hazırlığını, elmi-metodiki, tibbi təminatı və həkim nəzarətini müvafiq icra hakimiyyəti orqanları büdcə vəsaiti hesabına həyata keçirirlər.

Azərbaycan Respublikasının əlil idmançılarını beynəlxalq idman hərəkatında Paralimpiya və Xüsusi Olimpiya komitələri təmsil edirlər.

**Maddə 16. Yüksək dərəcəli idmançıların hazırlanması**

Yüksək dərəcəli idmançıların hazırlanması bədən tərbiyəsi və idman təşkilatları, fərdi qaydada məşqçilik fəaliyyəti ilə məşğul olan şəxslər, habelə xüsusilə bu məqsəd üçün yaradılan mülkiyyət formasından asılı olmayaraq ixtisaslaşdırılmış qurumlar (klublar, idman təmayüllü internat məktəbləri, yüksək idman ustalığı məktəbləri və s.) tərəfindən həyata keçirilir.

Maliyyə vəsaiti və maddi-texniki bazası müasir tələblərə cavab verən ixtisaslaşdırılmış qurumlarda yüksək dərəcəli idmançıların hazırlanması idmançının üzv olduğu bədən tərbiyəsi və idman yönümlü ictimai birliklərlə bağlanan müqavilələr əsasında həyata keçirilir. Həmin

təkilatların üzvü olmayan idmançı bilavasitə ixtisaslaşdırılmış qurumlarla müqavilə bağlaya bilər.

**Maddə 17. Azərbaycan Respublikasının yığma komandaları**

Azərbaycan Respublikasının yığma komandalarının üzvləri idman yönümlü müvafiq ictimai birliyin təkliflərinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Yığma komandaların tərkibinə daxil edilmiş idmançıların bir bədən tərbiyə və idman yönümlü ictimai birlikdən digərinə, habelə xarici idman klublarına keçməsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla idmançı və həmin təşkilatlar arasında bağlanan müqavilə əsasında həyata keçirilir.

Yığma komandaların beynəlxalq idman tədbirlərinə hazırlığı və iştirakı zamanı həkim nəzarəti, habelə tibbi təminat dövlət büdcəsi hesabına müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Yığma komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlığı, texnikası və malları gömrük rüsumlarından və əlavə dəyər vergisindən azaddırlar.

**Maddə 18. Peşəkar idman**

Peşəkar idman yüksək idman hazırlığını tələb edən, tamaşa xarakterli, qazanc məqsədli əmək fəaliyyətidir.

Peşəkar idman fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən normativ aktlarla tənzimlənir.

**Maddə 19. Bədən tərbiyəsi, idman və müalicə bədən tərbiyəsi sahəsində peşə fəaliyyəti**

Bədən tərbiyəsi, idman sahəsində pedaqoji fəaliyyətlə bədən tərbiyəsi və idman üzrə pedaqoji təhsili olan şəxslər məşğul ola bilərlər.

Müvafiq idman növü üzrə idman ustası normativini yerinə yetirmiş və xüsusi məşqçilik kursu keçmiş şəxslər məşqçilik fəaliyyəti ilə məşğul ola bilərlər.

Müalicə bədən tərbiyəsi üzrə fəaliyyətə yalnız müvafiq xüsusi təh-

sili olan şəxslər buraxılırlar.

**Maddə 20. İdmanda qadağan olunmuş üsul, fənd və vasitələrin yolverilməzliyi**

İdman nəticələri qazanmaq məqsədilə istifadə edilməsinə yol verilməyən üsul, fənd və vasitələrin siyahısı bədən tərbiyəsi və idman yönümlü ictimai birliklərin təklifləri əsasında beynəlxalq qaydalara uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

## III Fəsil
## Bədən tərbiyəsi və idmanın maddi təminatı

**Maddə 21. Bədən tərbiyəsi və idmanın maliyyə mənbələri**

Bədən tərbiyəsi və idman Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan vəsaitdən, idman tədbirlərinin televiziya vasitəsilə translyasiyasından, tamaşa xarakterli bədən tərbiyəsi və idman tədbirlərindən, idman lotereyasının keçirilməsindən daxil olan vəsaitdən, fiziki və hüquqi şəxslərin ianələrindən və digər mənbələrdən maliyyələşdirilir.

**Maddə 22. Bədən tərbiyəsi və idmana sponsorluq**

Bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 23. Bədən tərbiyəsi, sağlamlıq və idman obyektləri üçün istifadə olunan torpaqların statusu**

Bədən tərbiyəsi, sağlamlıq və idman obyektləri üçün torpaq sahələrinin ayrılması və onlardan istifadə edilməsi qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

Kütləvi bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsini təmin edən dövlət və ictimai idman təşkilatlarının, habelə bədən tərbiyəsi və idman üzrə mütəxəssislər hazırlayan dövlət ali və orta təhsil müəssisə-

lərinin stasionar idman qurğuları yerləşən torpaq sahələri onların daimi istifadəsindədir.

Torpaq mülkiyyətçisinin razılığı olmadan bədən tərbiyəsi, sağlamlıq və idman obyektləri üçün nəzərdə tutulmuş torpaq sahələrində başqa layihə-tikinti və qazma işlərinin aparılması, habelə həmin torpaq sahələrindən digər məqsədlər üçün istifadə edilməsi qadağandır.

**Maddə 24. Bədən tərbiyəsi, sağlamlıq və idman obyektləri**

Yaşayış sahələrinin tikinti planlarında digər infrastruktur obyektləri ilə yanaşı bədən tərbiyəsi, sağlamlıq və idman obyektlərinin tikintisi də nəzərdə tutulmalıdır. Yaşayış sahələrinin qəbulu üzrə komissiyaların tərkibinə müvafiq icra hakimiyyəti orqanının bədən tərbiyəsi və idman üzrə nümayəndələri də daxil edilməlidir.

Müvafiq icra hakimiyyəti orqanları onların ərazisində bədən tərbiyəsi, sağlamlıq və idman obyektlərinin planlaşdırılmasına, layihələşdirilməsinə, inşasına və istismara verilməsinə müvafiq normalar əsasında nəzarət edirlər.

Yaşayış yerlərinin bədən tərbiyəsi, sağlamlıq və idman obyektləri ilə təmin olunma normativlərini əhalinin sıxlığından və yerli iqlim şəraitindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Bütün növ tədris və məktəbəqədər tərbiyə müəssisələrinin tikintisi və ya yenidən qurulması planlarına bədən tərbiyəsi, sağlamlıq və idman obyektlərinin tikintisinin salınması məcburidir. Müvafiq ərazidə yenisini yaratmadan mövcud dövlət bədən tərbiyəsi, sağlamlıq və idman obyektlərinin ləğv edilməsi qadağandır.

Bədən tərbiyəsi, sağlamlıq və idman obyektlərinin sığortası qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

## IV fəsil
## Bədən tərbiyəsi və idman sahəsində təminatlar

**Maddə 25. Bədən tərbiyəsi və idmanla məşğul olan vətəndaşların sağlamlığının qorunması**

Bədən tərbiyəsi-sağlamlıq, idman müəssisələrinin və qurğularının

müdiriyyəti məşğələlərin və yarışların keçirilmə yerlərinin təhlükəsizlik qaydalarına və sanitariya-gigiyena normalarına uyğun texniki təchizatını, bədən tərbiyəsi və idmanla məşğul olanlara tibbi nəzarət və yardım göstərilməsini təmin etməlidirlər.

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilir.

### Maddə 26. İdmançının, məşqçinin və idman hakiminin sağlamlığına dəyən ziyana görə məsuliyyət

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən idmançının, məşqçinin və hakimin sağlamlığına dəymiş ziyana görə məsuliyyət onların bədən tərbiyəsi, sağlamlıq və idman yönümlü təşkilatla bağladığı müqavilənin şərtlərinə və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq müəyyən olunur.

### Maddə 27. Bədən tərbiyəsi və idmanla məşğul olan vətəndaşların sığortası

Bədən tərbiyəsi və idmanla məşğul olan vətəndaşların, habelə idmançı və idman hakiminin sığorta olunmasının qayda və şərtləri Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə və bədən tərbiyəsi və idman yönümlü təşkilatlarla bağlanmış müqaviləyə əsasən müəyyən olunur.

Beynəlxalq yarışlarda iştirak edən idmançıların sığortası onları ezam edən təşkilatlar tərəfindən həyata keçirilir.

### Maddə 28. Yüksək dərəcəli idmançıların və idman işçilərinin əməyinin qiymətləndirilməsi

Bədən tərbiyəsi və idman sahəsində göstərdikləri böyük xidmətlərə və əldə etdikləri yüksək nailiyyətlərə görə Azərbaycan Respublikasının vətəndaşları müvafiq qaydada dövlət mükafatlarına və fəxri adlara təqdim olunurlar.

Olimpiya oyunlarının mükafatçılarına, eləcə də iki dəfədən artıq

olimpiya növləri üzrə dünya və qitə çempionatlarının qaliblərinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada güzəştli pensiya müəyyən edilir.

**Maddə 29. Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 30. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasına görə fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 dekabr 1997-ci il.
№ 417-IQ

## Azərbaycan Respublikasının
## Gənclər və İdman Nazirliyi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 26 iyul tarixli 861 nömrəli Qərarına müvafiq olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının gənclər və idman nazirinə tapşırılsın ki, on gün müddətində nazirliyin funksiyalarını, hüquq və vəzifələrini əks etdirən Əsasnaməsini və strukturunu hazırlayıb müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Prezidentinə təqdim etsin.

**2.** Müəyyən edilsin ki, Əsasnamə nazirliyin aşağıdakı başlıca fəaliyyət istiqamətlərini əhatə etməlidir:

- Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun gənc nəslin tərbiyəsi;
- Gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən siyasətin həyata keçirilməsi;
- Gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahatlar proqramlarının gerçəkləşdirilməsinə səfərbər olunması;
- Gənclər arasında ümumbəşəri və milli dəyərlərin təbliğinin təmin edilməsi;
- Gənclərin yüksək sosial, mənəvi və sağlam fiziki inkişafını təmin edən bütün fəaliyyət sahələrinin istiqamətləndirilməsi;
- Gənclər arasında Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, müstəqilliyimizin, dövlətçiliyimizin, torpaqlarımızın müdafiəsinə daimi hazırlıq ruhunda tərbiyə edilməsi;
- Gənclər arasında işsizliyin aradan qaldırılması üçün başqa dövlət orqanları ilə birgə fəaliyyət göstərməsi;
- Aztəminatlı ailələrdəki uşaqların və yetim uşaqların sosial problemlərinin həllinə dair dövlət proqramının həyata keçirilməsinə yaxından kömək göstərilməsi;
- Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq sənədlərində əksini

tapmış uşaqların hüquqlarının müdafiəsi üçün yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

- Bazar iqtisadiyyatı mühitində gənclərin sahibkarlığa cəlb edilməsi sahəsində başqa dövlət idarəetmə orqanlarının işinin əlaqələndirilməsi;

- Gənclər təşkilatlarının formalaşmasında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq iştirak edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi;

- Gənclərin problemləri ilə bağlı beynəlxalq tədbirlərdə onların fəal iştirakına kömək göstərilməsi;

- Azərbaycan Respublikasında bədən tərbiyəsi sahəsində milli proqramın həyata keçirilməsi;

- Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında aşılanmasının təmin edilməsi, bədən tərbiyəsinin geniş təbliğinin təşkil edilməsi;

- Əhali, xüsusilə böyüməkdə olan gənc nəsil arasında idmanın və bədən tərbiyəsinin kütləviliyinin təmin edilməsi məqsədilə digər dövlət orqanları və ictimai təşkilatlarla birlikdə onların maddi texniki bazasının inkişaf etdirilməsi;

- Azərbaycanın beynəlxalq idman əlaqələrinin genişlənməsinə köməklik göstərilməsi.

**3.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, üç ay ərzində gənclərlə iş sahəsində milli siyasət konsepsiyasını və əhalinin fiziki tərbiyə proqramını hazırlayıb, təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, nazirliyin maliyyə və maddi-texniki təchizatı üçün Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 26 iyul tarixli 861 nömrəli qərarından irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 iyul 1994-cü il.

## İdman Fondunun yaradılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədi ilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxması üçün real zəmin yaratmaq zərurətini nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidenti yanında İdman Fondu yaradılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin fondundan müstəsna hal kimi İdman Fonduna 2 milyard manat məbləğində vəsait ayrılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, İdman Fondu Əsasnaməsinin layihəsini və idarə heyətinin tərkibi haqqında təklifləri 15 gün ərzində təqdim etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 1995-ci il.

## Azərbaycan Respublikası idmançılarının təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və beynəlxalq yarışlarda yüksək nailiyyətlərinə görə aşağıdakılar təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**
Hüseynov Nazim Qalib oğlu - Olimpiya çempionu

**"Tərəqqi" medalı ilə**
Abdullayev Namiq Həmdulla oğlu - Avropa çempionu
Axundzadə Ağayar Əbdüləzim oğlu - Məşqçi
Vəlixanlı Firuzə Orxan qızı - Beynəlxalq qrossmeyster
Qədimova İlahə Akif qızı - Beynəlxalq qrossmeyster
Eyvazov Natiq Sulduz oğlu - Avropa çempionu
Meftəhəddinova Zemfira Əli qızı - Avropa çempionu
Məmmədov Ceyhun Məhəmməd oğlu - Avropa çempionu
Sofiyeva Aynur Məmmədəliyyə qızı - Beynəlxalq qrossmeyster
Timoxin Valeri Vasilyeviç - Dünya çempionu
Hüseynov Rövşən Məmməd oğlu - Dünya çempionu
Hüseynov Sabir Məmməd oğlu - Məşqçi
Hüseynova Zülfiyyə Yusif qızı - Dünya çempionu
Cabbarov Rauf Əbdülqədir oğlu - Məşqçi

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 1995-ci il.

## Ə.Ə.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafında və gənc nəslin təlim-tərbiyəsində görkəmli xidmətlərinə görə Ələkbər Əmir oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 may 1995-ci il.

## A.A.Banişevskinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Anatoliy Andreyeviç Banişevski "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 fevral 1996-cı il.

## M.H.Dadaşovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə Muxtar Hüseyn oğlu Dadaşov "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 fevral 1998-ci il.

## XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə Avstraliyanın Sidney şəhərində keçiriləcək XXVII Yay Olimpiya Oyunlarına milli yığma komandalarımızı yüksək səviyyədə hazırlamaq və hazırlıq mərhələsində onların rəsmi beynəlxalq yarışlarda iştirakını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Avstraliyanın Sidney şəhərində keçiriləcək XXVII Yay Olimpiya Oyunlarına hazırlıq üzrə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**
Artur Rəsizadə - Azərbaycan Respublikasının Baş naziri

**Təşkilat Komitəsinin üzvləri**
Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini;
Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezident Aparatının Humanitar Siyasət Şöbəsinin müdiri;
Rəfael Allahverdiyev - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı;

Səfər Əbiyev - Azərbaycan Respublikasının müdafiə naziri;
Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri;
Fikrət Yusifov - Azərbaycan Respublikasının maliyyə naziri;
Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri;
Əbülfəs Qarayev - Azərbaycan Respublikasının gənclər və idman naziri;
Əhməd Abdinov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini;
Nizami Xudiyev - Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkətinin sədri;
İlham Əliyev - Milli Olimpiya Komitəsinin prezidenti;
Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri;
Ağacan Abiyev - Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun rektoru;
Namiq Abdullayev - Atlanta-96 Olimpiya Oyunlarının gümüş mükafatçısı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- Milli yığma komandaların XXVII Yay Olimpiya Oyunlarına hazırlığı mərhələsində təlim-məşq toplanışlarının keçirilməsini və rəsmi beynəlxalq yarışlarda iştirakını təmin etmək məqsədilə əlavə maliyyələşdirmə mənbələri yaratsın və Milli Olimpiya Komitəsinin təqdim etdiyi xüsusi proqramlara əsasən nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsini həyata keçirsin:
- bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 fevral 1998-ci il.

# Azərbaycan uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın uşaq şahmatçıları Avropa çempionu, dünya çempionatının gümüş mükafatçısı, on bir yaşlı Teymur Rəcəbov, Avropa və dünya çempionatlarının gümüş mükafatçısı, on iki yaşlı Vüqar Həşimov dövlətimizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil etmiş və yüksək nəticələr əldə etmişlər. Beynəlxalq Şahmat Federasiyasının 1997-ci ilin yekunlarına görə dərc etdirdiyi reytinq-siyahıda hər iki şahmatçımız öz yaşıdları arasında lider olmuşdur.

Teymur Rəcəbov və Vüqar Həşimovun öz ustalıqlarını daha da artırmasını və beynəlxalq yarışlarda iştirakını lazımi səviyyədə təmin etmək məqsədilə **qərara alıram:**

**1.** İstedadlı Azərbaycan şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimov üçün hazırlanmış xüsusi proqramın 1998-ci ildə həyata keçirilməsi üçün 120 (yüz iyirmi) milyon manat (hər birinə 60 milyon manat) məbləğində vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 fevral 1998-ci il.

# Azərbaycan uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimov son illərdə dövlətimizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil etmiş və yüksək nəticələr əldə etmişlər.

Bu müddət ərzində Teymur Rəcəbov üçqat Avropa çempionu, dünya çempionatlarının bürünc, gümüş və qızıl mükafatçısı olmuşdur. Vüqar Həşimov Avropa çempionatlarında iki dəfə gümüş medala, dünya çempionatlarında gümüş mükafata və fəxri yerə layiq görülmüşdür. Hər iki şahmatçı artıq 1996-cı ildə FİDE ustaları olmuşlar.

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycanın uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında" 22 fevral 1998-ci il tarixli Sərəncamı bu iki gənc şahmatçı üçün hazırlanmış xüsusi proqramın - müasir kompüter və kompüter proqramı, şahmat ədəbiyyatı və məcmuələr almaq, dünya şöhrətli mütəxəssislərin açıq dərslərində iştirak etmək, beynəlxalq turnirlərə, Avropa və dünya çempionatlarına yüksək səviyyədə hazırlaşmaq üçün xarici dövlətlərdə təlim-məşq toplanışı keçirmək və sairənin tam şəkildə həyata keçirilməsini təmin etmişdir. Teymur Rəcəbov və Vüqar Həşimov Avropa, dünya çempionatlarında mühüm qələbələr qazanmış, beynəlxalq usta balı normalarını yerinə yetirərək şahmat üzrə dünyanın ən gənc beynəlxalq ustaları olmuşlar.

1998-ci ilin yekunlarına görə Beynəlxalq Şahmat Federasiyasının reytinq-siyahısında Teymur Rəcəbov və Vüqar Həşimovla yanaşı, gənc şahmatçılarımız Qədir Hüseynov və Rauf Məmmədov da öz yaş qruplarında lider mövqelərini əldə etmişlər.

FİDE ustası Qədir Hüseynov Avropa çempionatlarında qızıl, gümüş və bürünc medallara, dünya çempionatlarında isə bürünc medala layiq görülmüşdür. On yaşlı Rauf Məmmədov Avropa və dünya çempionatlarında stabil nəticə göstərərək mükafata layiq yerləri bölüşdürmüşdür. Məhz bu gənc şahmatçıların səyləri nəticəsində Azərbaycanın yığma

komandası 1998-ci ilin noyabrında İspaniyada 85 ölkənin iştirakı ilə keçirilmiş dünya çempionatlarında dördüncü yeri tutmuşdur.

Azərbaycanın gənc şahmatçılarının 1998-ci ilin beynəlxalq yarışlarında əldə etdikləri yüksək nəticələri respublikada şahmatın inkişafı yolunda mühüm mərhələ sayaraq, onların öz ustalıqlarını daha da artırmasını və beynəlxalq yarışlarda iştirakını lazımi səviyyədə təmin etmək məqsədilə **qərara alıram:**

**1.** İstedadlı Azərbaycan şahmatçıları Teymur Rəcəbov, Vüqar Həşimov, Qədir Hüseynov və Rauf Məmmədovun xüsusi hazırlıq proqramlarının 1999-cu ildə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası dövlət büdcəsinin ehtiyat fondundan 160 (yüz altmış) milyon manat (hər şahmatçıya 40 milyon manat) məbləğində vəsait ayrılsın.

**2.** Gənclər və İdman Nazirliyinə və Təhsil Nazirliyinə tapşırılsın ki, Azərbaycan Şahmat Federasiyası ilə birlikdə respublikada uşaq şahmatının inkişafı üçün lazımi tədbirlər planı hazırlayıb həyata keçirsinlər.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 dekabr 1998-ci il.

## "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

- qüvvədə olan müvafiq qanunvericilik aktlarının "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsin;

- həmin Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydası barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Olimpiya Oyunlarının mükafatçılarına və iki dəfədən artıq olimpiya növləri üzrə dünya və qitə çempionatlarının qaliblərinə həmin Qanunun 28-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş güzəştli pensiyaların müəyyən edilməsi qaydası barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin ikinci hissəsində və 25-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qanunundan irəli gələn

digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

**2.** Müəyyən edilsin ki:

- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin ikinci hissəsində və 25-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"-nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

- həmin Qanunun 4-cü maddəsinin dördüncü hissəsinin beşinci abzasında, 5-ci maddəsinin üçüncü hissəsində, 17-ci maddəsinin birinci, ikinci və dördüncü hissələrində və 20-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir;

- həmin Qanunun 8-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi və Dövlət Televiziya və Radio Verilişləri Şirkəti həyata keçirirlər;

- həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyi həyata keçirirlər;

- həmin Qanunun 15-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

- həmin Qanunun 15-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Gənclər və İdman Nazirliyi həyata keçirirlər;

- həmin Qanunun 17-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

- həmin Qanunun 13-cü maddəsində, 14-cü maddəsinin ikinci hissəsində və 24-cü maddəsinin birinci, ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın və "müvafiq icra ha-

kimiyyəti orqanları"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Prezidentinə aşağıdakıların icrası barədə məlumat verməklə:

- bədən tərbiyəsi və idmanın inkişafının dövlət proqramını üç ay müddətində təsdiq etsin;

- "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulduğu kimi, hərbi qulluqçuların və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin fiziki hazırlığının normativlərini bir ay müddətində təsdiq etsin.

**4.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi Gənclər və İdman Nazirliyi ilə birlikdə, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin altıncı hissəsində nəzərdə tutulduğu kimi uşaqların, şagird və tələbələrin illik fiziki hazırlıq testlərinin keçirilməsi üçün dövlət normativlərini bir ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**5.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi üçün öz səlahiyyətləri daxilində lazımi tədbirləri görsün.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 dekabr 1998-ci il.

## "İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" Avropa Konvensiyasına qoşulmaq barədə

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Azərbaycan Respublikası "İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" 1985-ci il 19 avqust tarixli Avropa Konvensiyasına qoşulsun.

**2.** Bu qanun imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 1999-cu il.

## F.Z.Həsənovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə Faiq Zülfüqar oğlu Həsənov "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 aprel 2000-ci il.

# Avstraliyanın Sidney şəhərində keçirilən XXVII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərini XXVII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədilə **qərara alıram:**

**1.** XXVII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutan hər bir idmançıya 225 milyon manat, onun məşqçisinə isə 115 milyon manat məbləğində;
- ikinci yeri tutan hər bir idmançıya 135 milyon manat, onun məşqçisinə isə 65 milyon manat məbləğində;
- üçüncü yeri tutan hər bir idmançıya 70 milyon manat, onun məşqçisinə isə 35 milyon manat məbləğində.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 avqust 2000-ci il.

## Azərbaycan Respublikası idmançılarının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə və XXVII Yay Olimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və məşqçiləri "Şöhrət" ordeni ilə təltif edilsinlər:

Abdullayev Namiq Yadulla oğlu
Meftəhəddinova Zemfira Əli qızı
Cəfərov Hafiz Yusif oğlu
Məmmədov Vahid Şərafəddin oğlu
Məmmədov Yaqub Əkbər oğlu

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 oktyabr 2000-ci il.

## V.M.Ələkbərovun və R.Q.Məmmədovun "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

XXVII Yay Olimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə Vüqar Mürsəl oğlu Ələkbərov və Rəşid Qafar oğlu Məmmədov "Tərəqqi" medalı ilə təltif edilsinlər.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 oktyabr 2000-ci il.

## K.Ə.Tuayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə Kazbek Əliyeviç Tuayev "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 noyabr 2000-ci il.

## XI Yay Paralimpiya Oyunlarında əldə edilmiş nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci il oktyabrın 18-29-da Avstraliyanın Sidney şəhərində XI Yay Paralimpiya Oyunları keçirilmişdir. Oyunlarda Azərbaycanın yeddi əlil idmançısı iştirak etmiş və yüksək idman nəticələri göstərmişlər. İdmançılarımızdan Gündüz İsmayılov ağırlıqqaldırma üzrə qızıl medala, Yelena Taranova güllə atıcılığı üzrə gümüş medala layiq görülmüş, qalan idmançılarımız - Mehman Ramazanov, Aleksandr Antofiy, Zeyniddin Bilalov, Sərxan Əsədov və Fuad Tarıverdiyev çıxış etdikləri idman növləri üzrə birinci onluğa daxil olmuşlar. Nəticədə Azərbaycan yığma komandası XI Yay Paralimpiya Oyunlarında iştirak etmiş 125 ölkə arasında 47-ci yeri tutmuşdur. Azərbaycan Respublikasının əlil idmançılarının və onların məşqçilərinin Avstraliyanın Sidney şəhərində keçirilən XI Yay Paralimpiya oyunlarında göstərdikləri nəticələrə görə mükafatlandırılması məqsədi ilə **qərara alıram:**

**1.** XI Yay Paralimpiya Oyunlarında iştirak edərək yüksək nəticələr göstərmiş əlil idmançılar və onların məşqçiləri üçün mükafatlar aşağı-

dakı qaydada müəyyən edilsin:

- Birinci yeri tutaraq qızıl medal almış idmançıya əlli milyon manat, onun məşqçisinə isə on milyon manat məbləğində;
- İkinci yeri tutaraq gümüş medal almış idmançıya otuz milyon manat, onun məşqçisinə isə on milyon manat məbləğində;
- Çıxış etdikləri idman növləri üzrə birinci onluğa daxil olmuş hər bir idmançıya on milyon manat məbləğində.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 noyabr 2000-ci il.

# "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**I.** "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, №18, maddə 814; 1994-cü il, №15, maddə 177; 1995-ci il, №22, maddə 354; Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, №6, maddələr 453, 494; 1998-ci il, №1, maddə 10; 1999-cu il, №5, maddə 284; 2000-ci il, №6, maddə 379; Azərbaycan Respublikasının 2001-ci il 1 fevral tarixli, 70-IIQD nömrəli Qanunu) 6-cı maddəsinin ikinci hissəsində "Olimpiya və Dünya çempionlarının" sözləri "Olimpiya oyunları mükafatçılarının, eləcə də iki dəfədən artıq olimpiya növləri üzrə dünya və qitə çempionatlarının qaliblərinin" sözləri ilə əvəz olunsun.

**II.** "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiya və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, №16, maddə 697; 1994-cü il, №15, maddə 176; 1995-ci il, №17-18, maddə 285; Azərbaycan Respublikasının qanunları, 1996-cı il, №1; Azərbaycan Respublikası qanunvericilik toplusu, 1997-ci il, №2, maddə 81; №5, maddələr 356, 378, №6, maddə 452, 1998-ci il, №1, maddə 16; 1999-cu il, №4, maddə 217, №7, maddə 395) 11-ci maddəsinə aşağıdakı redaksiyada ikinci hissə əlavə edilsin:

"Əlillərin bədən tərbiyəsi və idmanı Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir".

**III.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, №22, maddə 352, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1998-ci il, №12, maddə 742; 1999-cu il, №4, maddə 225) 34-cü maddəsinə aşağıdakı redaksiyada "i yarımbəndi əlavə edilsin:

“i) yığma komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlığı, texnikası və malları”.

**IV.** “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1998-ci il, №1, maddə 12; 1999-cu il, №4. maddə 225; 2000-ci il, №8, maddə 587) 17-ci maddəsinə aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

**1.** 1-ci bəndin on birinci abzasında “idman müəssisələrində” sözləri “idman obyektlərində” sözləri ilə əvəz edilsin.

**2.** 1-ci bəndə aşağıdakı redaksiyada on ikinci abzas əlavə edilsin:

“spirtli içki və tütün məmulatlarının idman yarışlarının radio-teleyayımı zamanı reklam yayımına”.

**V.** Azərbaycan Respublikasının 1997-ci il 3 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnaməyə (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1998-ci il, №1, maddə 14) aşağıdakı redaksiyada 25-1-ci bənd əlavə edilsin:

“25-1. Hərbi qulluqçuların fiziki hazırlığı Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir”.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 fevral 2001-ci il.

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası müəllimlərinin təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70 illiyi münasibətilə akademiyanın aşağıdakı müəllimləri elm və təhsil sahələrində, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Abiyev Ağacan Qulam oğlu
Ağayev Oqtay Mirzəbaba oğlu
Nərimanov Bəhram Əhməd oğlu
Rzayeva Zeynəb Hüseyn qızı

**"Tərəqqi" medalı ilə**

Abdul-Qədirov İsmayıl Qafar oğlu
Babayev Zəfər Abigül oğlu
Babazadə Davud Əliağa oğlu
Eminbəyli Yavuz İbrahim oğlu
Hüseynov Şüa Hüseyn oğlu
İsmayılov İsmayıl Sultan oğlu
Quliyev Dilqəm Qasım oğlu
Qurbanov Xanlar Kazım oğlu
Məmmədyarov Qəhrəman Müslüm oğlu

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
6 aprel 2001-ci il.

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası müəllimlərinə "Əməkdar müəllim" fəxri adı verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70 illiyi münasibətilə akademiyanın aşağıdakı müəllimlərinə elm və təhsil sahələrində, bədən tərbiyəsi və idmanın inkişafında nailiyyətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilsin:

Balayeva Validə Gülməmməd qızı
Bağırov Rafiq Kamal oğlu
Bədirbəyli Gülcamal Ağalar qızı
Əbdürrəhmanov Şamil Hətəm oğlu
Ələkbərov Həmid Yusif oğlu
Əliyev Akif Əbdul oğlu
Əliyev Arif Əli oğlu
Əsədov Sabir Cəlal oğlu
Hüseynov Firat Alışan oğlu
Qarayev Mir Həsən oğlu
Qasımov Həmid İbad oğlu
Qasımov Ürfət Məmməd oğlu
Qayıbov Rafiq Hüseyn oğlu
Məmmədova Cəmilə Muxtar qızı
Məmmədova Şükufə Ağaşıxəli qızı
Nəsrullayev Məmməd Əhməd oğlu
Senatorova Svetlana Mixaylovna
Tahirov Rəsul Abbas oğlu
Talıbov Yusif Rəhim oğlu
Vahidov Sabir Abdul oğlu
Zülfüqarov Xəyyam Qədir oğlu

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
6 aprel 2001-ci il.

## Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xarici Turizm Şurası ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə çevrilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

- Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin əsasnaməsinin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin aparatının işçilərinin say həddini təsdiq etsin;
- bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 aprel 2001-ci il.

# Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması ilə əlaqədar **qərara alıram:**

**I.** Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli, 485 nömrəli Fərmanının 1-ci bəndində "gənclər və idman" sözləri "gənclər, idman və turizm" sözləri ilə əvəz edilsin;

**2.** "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə "Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 5 iyun tarixli, 595 nömrəli Fərmanının 2-ci bəndinin üçüncü abzasında "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm" sözləri ilə əvəz edilsin;

**3.** Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli, 637 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) tələb olunun fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı"nın 48-ci bəndində "Nazirlər Kabineti yanında Xarici Turizm Şurası" sözləri "Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi" sözləri ilə əvəz edilsin;

**4.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə "Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli, 24 nömrəli Fərmanının 2-ci bəndinin on səkkizinci abzasında "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm" sözləri ilə əvəz edilsin;

**5.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezi-

dentinin 1998-ci il 28 dekabr tarixli, 47 nömrəli Fərmanının 2-ci bəndinin üçüncü, dördüncü, beşinci və yeddinci abzaslarında, 4-cü və 5-ci bəndlərində "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm" sözləri ilə əvəz edilsin;

**6.** "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 17 iyun tarixli, 139 nömrəli Fərmanının 1-ci bəndində "gənclər və idman" sözləri "gənclər, idman və turizm" sözləri ilə əvəz edilsin;

**7.** "Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli, 169 nömrəli Fərmanının 2-4-cü bəndlərində və həmin Fərmanla təsdiq olunmuş "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı"nda "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm" sözləri ilə əvəz edilsin;

**8.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli, 188 nömrəli Fərmanının 2-ci bəndinin ikinci abzasında "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm" sözləri ilə əvəz edilsin;

**9.** "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli, 349 nömrəli Fərmanının 2-ci bəndində və 19-cu bəndinin on birinci abzasında "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm" sözləri ilə əvəz edilsin;

**10.** "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli, 376 nömrəli Fərmanının üçüncü abzasında "Nazirlər Kabineti yanında Xarici Turizm Şurası" sözləri "Gənclər, İdman və Turizm Nazirliyi" sözləri ilə əvəz edilsin;

**11.** "Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 dekabr tarixli, 42 nömrəli Sərəncamının 2-ci bəndində "Gənclər və İdman" sözləri "Gənclər, İdman və Turizm" sözləri ilə əvəz edilsin;

**12.** "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Övladlığa Götürmə Məsələləri Komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli, 52 nömrəli Sərəncamında "gənclər və idman" sözləri "gənclər, idman və turizm" sözləri ilə əvəz edilsin;

**13.** Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli, 155 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası üzrə 1999-2002-ci illər üçün Dövlət Proqramı"nda "gənclər və idman" sözləri "gənclər, idman və turizm" sözləri ilə əvəz edilsin;

**14.** "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli, 416 nömrəli Sərəncamının 1-ci bəndində "Samur Novruzov - Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xarici Turizm Şurasının sədri" sözləri "Əbülfəs Qarayev - Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri" sözləri ilə əvəz edilsin.

**II.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 iyul 2001-ci il

## Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi haqqında Əsasnamə təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- on gün müddətində Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin xərclər smetasını və işçilərinin say həddini təsdiq etsin;
- bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaradılması ilə bağlı tədbirlər haqqında" 1994-cü il 3 sentyabr tarixli 199 nömrəli və "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin və nazirliyin strukturunun təsdiq edilməsi barədə" 1994-cü il 3 sentyabr tarixli 200 nömrəli Fərmanları qüvvədən düşmüş hesab edilsin.

**4.** bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 sentyabr 2001-ci il.

## Ə.M.H. Çoudrinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının idman sahəsində beynəlxalq əlaqələrinin genişləndirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Ənvər Mühəmməd Hüseyn Çoudri "Şöhrət" ordeni ilə təltif edilsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 oktyabr 2001-ci il.

# Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının onillik yubileyi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının onilliyi tamam olur. 2000-ci il həm də Azərbaycan idmançılarının Olimpiya oyunlarında iştirakının 50 illik yubileyidir. İdmançılarımız 1952-ci ildən etibarən Olimpiya oyunlarında iştirak etməyə başlayaraq, SSRİ yığma komandasının tərkibində çıxış etməli olmuşlar. Azərbaycan Olimpiya Hərəkatı tarixini ümumiyyətlə, şərti olaraq üç dövrə bölmək olar: Azərbaycan idmançılarının SSRİ yığma komandası tərkibində Olimpiya oyunlarında iştirak etdiyi 1952-1988-ci illəri əhatə edən dövr, 1988-1992-ci illərdə oyunlara hazırlıq mərhələsini başa vuraraq, orada Müstəqil Dövlətlər Birliyinin yığma komandası tərkibində iştirak etdiyi dövr və Azərbaycanın müstəqil dövlət kimi Beynəlxalq Olimpiya hərəkatına qoşulduğu 1992-ci ildən sonrakı dövr.

Azərbaycan idmançıları SSRİ yığma komandasının tərkibində Olimpiya oyunlarının doqquzunda 46 idmançı ilə çıxış edərək 10 qızıl, 11 gümüş və 7 bürünc medal qazanmışlar. Sərbəst üsulla güləşçi Rəşid Məmmədbəyovun 1952-ci il Helsinki Olimpiadasında qazandığı gümüş medal Azərbaycan idmançılarının Olimpiya Oyunlarında ilk uğuru kimi qiymətləndirilməlidir. Sonrakı olimpiadalarda sprinter məsafələrinə qaçan Yuri Konovalovun, müasir beşnövçü Viktor Mineyevin, voleybolçu İnna Rıskalın, həndbolçular Rəfiqə Şabanovanın və Lyudmila Şubinanın, qılıncoynadan İlqar Məmmədovun, futbolçu İqor Ponomaryovun və başqalarının uğurlu çıxışları Azərbaycan idmanının nüfuzunu artırdı.

1992-ci il Barselona Olimpiadasında Azərbaycan idmanı Müstəqil Dövlətlər Birliyinin yığma komandasında cəmi 5 nəfərlə təmsil olunsa da, idmançılarımızdan ikisi - cüdoçu Nazim Hüseynov və gimnast Valeri Belinki qızıl medal alaraq, Olimpiya çempionu adına layiq görüldülər.

1992-ci ildə Milli Olimpiya Komitəsinin yaradılması ilə ölkəmizin Olimpiya Hərəkatında yeni bir dövr başlayır. Artıq Azərbaycan Müstə-

qil bir dövlət kimi Beynəlxalq Olimpiya Hərəkatına qoşularaq, öz idman potensialını tam nümayiş etdirmək imkanı əldə etdi. Azərbaycan ilk dəfə olaraq 1996-cı il Atlanta Olimpiadasında 23 nəfərdən ibarət öz milli Olimpiya komandası ilə müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı altında çıxış etdi. 197 ölkənin iştirak etdiyi bu oyunlarda gənc Azərbaycan Respublikasının 61-ci yer tutması idmanımızın uğuru sayıla bilər. Sərbəst üsulla güləşçi Namiq Abdullayevin həmin yarışlarda qazandığı gümüş medal isə müstəqil Azərbaycan Respublikası idmanının ilk yüksək nəticəsi kimi qiymətlidir.

Azərbaycan Milli Olimpiya Komitəsinin 1997-ci il iyulun 31-də keçirilmiş Baş Məclisində təşkilat məsələlərinə baxılaraq, onun yeni heyətinin seçilməsi komitənin fəaliyyətində müsbət istiqamətdə əsaslı dönüş yarada bilmiş, ölkəmizdə Olimpiya Hərəkatının sürətli inkişafına təkan vermiş və onun Beynəlxalq Olimpiya Hərəkatına fəal qoşulmasını təmin etmişdir. Azərbaycan Milli Olimpiya Komitəsi ölkəmizdə Olimpiya Hərəkatının və idmanın inkişafı ilə bağlı məqsədyönlü, ardıcıl fəaliyyət göstərərək, qısa müddət ərzində uğurlu göstəricilər əldə etmişdir. İdmançılarımızı Sidney şəhərində keçiriləcək XXVII Yay Olimpiya oyunlarına yüksək səviyyədə hazırlamaq və hazırlıq mərhələsində onların rəsmi beynəlxalq yarışlarda iştirakını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 20 fevral 1998-ci il tarixli sərəncamı ilə Milli Olimpiya Komitəsinin daha məqsədyönlü iş aparması üçün geniş imkanlar açdı. Oyunlara hazırlıq işlərinin vaxtında və dövlət səviyyəsində aparılması öz müsbət nəticələrini verdi. Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan idmançılarından 31 nəfər 10 idman növü üzrə 2000-ci il XXVII Yay Olimpiya Oyunlarına vəsiqə qazandı və Azərbaycan ikinci dəfə müstəqil dövlət kimi Oyunlarda iştirak etdi.

2000-ci il sentyabrın 15-də Sidney şəhərində başlanmış bu yarışlarda Azərbaycan idmançıları yüksək idman nəticələri göstərdilər. Stend atıcısı Zemfira Meftəhəddinova və güləşçi Namiq Abdullayev qızıl, 19 yaşlı gənc boksçu Vüqar Ələkbərov bürünc medal qazandılar. 199 ölkənin iştirak etdiyi Sidney Olimpiadasında Azərbaycanın 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutması idmanımızın böyük qələbəsi idi. Bu Milli Olimpiya Komitəsinin rəhbərliyi altında aparılmış gərgin,

planlı, məqsədyönlü işin parlaq nəticəsi kimi qiymətləndirilməlidir.

Milli Olimpiya Komitəsinin Azərbaycanda Olimpiya Hərəkatının daha da genişlənməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançılarımızın hazırlıq səviyyəsinin yüksəldilməsi üçün onların beynəlxalq yarışlarda iştirakının təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Xüsusilə qeyd edilməlidir ki, Milli Olimpiya Komitəsi bu mühüm vəzifələrin həyata keçirilməsi üçün ölkənin müxtəlif dövlət və ictimai qurumları ilə, habelə dünyanın ayrı-ayrı olimpiya və idman təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri yarada bilmişdir. Milli Olimpiya Komitəsinin bu təqdirəlayiq fəaliyyəti ümid verir ki, Azərbaycan xalqı idmançılarımızdan 2004-cü il Afina Olimpiadasında daha böyük qələbələr gözləsin, müstəqil Azərbaycanımızın üçrəngli bayrağı, himnimizin sədaları qədim yunan torpağında daha tez-tez göylərə qalxsın. Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətini yüksək qiymətləndirərək və onun onillik yubileyinin ölkəmizin ictimai-mədəni həyatı üçün əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda Olimpiya Hərəkatının daha da möhkəmləndirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının onillik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti

- Milli Olimpiya Komitəsi ilə birlikdə yubiley tədbirləri planı hazırlayıb həyata keçirsin;

- Bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 dekabr 2001-ci il.

# Azərbaycan idmançılarının təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə Azərbaycanın aşağıdakı idmançıları və məşqçiləri bədən tərbiyəsi və idmanın inkişafındakı xidmətlərinə görə təltif edilsin:

**"Şöhrət" ordeni ilə**

Axundzadə Ağayar Əbdüləzim oğlu
İsayev Xəzər Ağəli oğlu
Məmmədov Yaşar Əzizağa oğlu
Rıskal İnna Valeryanovna
Şabanova Rəfiqə Mahmud qızı
Şubina Lyudmila Yeqorovna

**"Tərəqqi" medalı ilə**

Abdullayev Arif Yədulla oğlu
Abdullayev Nəriman Sadıx oğlu
Aşumova İradə Süleyman qızı
Babanlı Tofiq Xanlar oğlu
Dərvişov Əli İsa oğlu
Əlicanov Nazim Nəzir oğlu
Hacıəhmədov Hacıağa Səmədağa oğlu
Həsənova Alla Anatolyevna
Hüseynov Oqtay Qulam oğlu
İsmayılov Elçin Mehdi oğlu
Qarayev Faiq Əli oğlu
Mənsurov Fərid Salman oğlu
Mursaqulov Saridan Ramiz oğlu
Nərimanov Elşad Əhməd oğlu
Paşayev Niyaməddin Vaqif oğlu
Paşayev Nizami Xanəli oğlu
Vahabzadə Asmila Hacı qızı
Jemayeva Yelena Viktorovna

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 oktyabr 2002-ci il.

# Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına dövlət qayğısının artırılması məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin hərəsi ayda iki milyon manat məbləğində xüsusi olimpiya təqaüdləri təsis edilsin. Xüsusi olimpiya təqaüdü Azərbaycan Respublikası Prezidentinin qərarı ilə müəyyən olunur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 oktyabr 2002-ci il.

# Azərbaycanın olimpiya çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında" 10 oktyabr 2002-ci il tarixli fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycanın aşağıdakı olimpiya çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdləri verilsin:

Abdullayev Namiq Yədulla oğlu
Hüseynov Nazim Qalib oğlu
Meftəhəddinova Zemfira Əli qızı
Şabanova Rəfiqə Mahmud qızı
Şubina Lyudmila Yeqorovna

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 oktyabr 2002-ci il.

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" 11 iyun 2002-ci il tarixli fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafında xidmətləri olmuş aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Abbasov Tofiq Teymur oğlu
Ağayev Oqtay Mirzəbaba oğlu
Ələsgərova Ziba Əlixeybər qızı
Əliyev Əli Cəlil oğlu
Əzimzadə Eldar Muxtar oğlu
Həsənov İbadulla Əziz oğlu
Hüseynov Fikrət Paşa oğlu
Hüseynov Sabir Məmməd oğlu
Kərimov Ehsan Qafur oğlu
Mehdiyev Tofiq Qasım oğlu
Miriyev Mirpaşa Mirismayıl oğlu
Pavlidi Algiviad Georgiyeviç
Rzayeva Zeynəb Hüseynqulu qızı
Sadıqov Əbdülağa Sadıq oğlu
Şamxalov Şamil Abdullayeviç

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 oktyabr 2002-ci il.

# XXVIII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2004-cü ildə Yunanıstanın paytaxtı Afina şəhərində XXVIII Yay Olimpiya Oyunları keçiriləcəkdir. Dünyanın bütün ölkələrində bu mühüm beynəlxalq idman yarışına hazırlıq işləri aparılır.

Bir əsrdən çox tarixi olan müasir Olimpiya Oyunları bu gün dövrümüzün ən nüfuzlu, mötəbər və geniş təmsil olunmuş idman tədbiridir. Müasir dünyada hər hansı ölkənin Olimpiya Hərəkatındakı iştirakı, idmançılarının Olimpiya Oyunlarında göstərdikləri nəticələr həmin ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirən, onun beynəlxalq nüfuzuna təsir edən göstərici kimi qiymətləndirilir. Milli, irqi və dini mənsubiyyətindən asılı olmayaraq, milyonlarla insanı bir yerə toplaya bilən Olimpiya Oyunları həm də qarşılıqlı anlaşma əlaqələrinin, dünyada sülhün və əmin-amanlığın möhkəmləndirilməsi işinə xidmət edən güclü vasitə hesab olunur. Olimpiya Hərəkatının böyük əhəmiyyətini dərk edən dünya ölkələri ilbəil onun sıralarını artırmışlar.

1896-cı ildə Afinada I Olimpiya Oyunları cəmi 14 ölkənin iştirakı ilə keçirilmişdisə, 2000-ci ildə Sidneydə təşkil edilmiş oyunlarda artıq 199 ölkə iştirak etmişdir.

Azərbaycan idmançıları 1952-ci ildən etibarən Olimpiya Oyunlarında iştirak etməyə başlayaraq, 1992-ci ilə kimi əvvəl SSRİ, sonra isə Müstəqil Dövlətlər Birliyinin yığma komandasının tərkibində çıxış etməli olmuşlar. Bu dövr ərzində Azərbaycan idmançıları 10 olimpiadada çıxış edərək 12 qızıl, 11 gümüş və 7 bürünc medal qazanmışlar.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə ölkəmizin Olimpiya Hərəkatında yeni bir dövr başlandı. 1992-ci ildə Milli Olimpiya Komitəsinin yaradılması və onun Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınması Azərbaycana müstəqil bir dövlət kimi öz idman potensialını tam nümayiş etdirmək imkanı verdi. 1996-cı ildə Atlantada ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı altında çıxış edən milli olimpiya komandasının göstərdiyi nəticə uğurlu sayıla bilər. Gənc Azərbaycan Respublikası 197 ölkənin iştirak etdiyi bu

oyunlarda 61-ci yeri tutdu.

1997-ci ildən başlayaraq, ölkəmizdə Olimpiya Hərəkatını sürətlə inkişaf etdirmək və onun Beynəlxalq Olimpiya hərəkatına daha fəal qoşulmasını təmin etmək məqsədilə həyata keçirilən tədbirlər qısa müddət ərzində öz müsbət nəticələrini verdi. Azərbaycan idmançılarını Sidneydə keçiriləcək XXVII Yay Olimpiya Oyunlarına hazırlamaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2000-ci il tarixli Sərəncamı ilə idmançılarımızı və onların məşqçilərini XXVII Yay Olimpiya Oyunlarında yüksək nəticələrə həvəsləndirmək məqsədilə mükafatlar müəyyən edildi.

2000-ci ildə müstəqil dövlət kimi ikinci dəfə olimpiadada iştirak edən Azərbaycanın idmançıları XXVII Yay Olimpiya Oyunlarında 2 qızıl və 1 bürünc medal qazanaraq, 199 ölkənin iştirak etdiyi bu oyunlarda ölkəmiz üçün 34-cü yeri, Avropa dövlətləri arasında isə 23-cü yeri təmin etdilər. Bu, Milli Olimpiya Komitəsinin rəhbərliyi altında aparılmış məqsədyönlü və gərgin işin parlaq nəticəsi kimi, Azərbaycan dövlətinin ölkəmizdə Olimpiya Hərəkatına göstərdiyi diqqət və qayğının bəhrəsi kimi qiymətləndirildi.

XXVII Yay Olimpiya Oyunları başa çatdıqdan dərhal sonra Azərbaycanda Olimpiya Hərəkatının daha da genişləndirilməsi, xüsusilə ölkəmizin bütün bölgələrini əhatə etməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançılarımızın beynəlxalq yarışlarda daha fəal iştirakının təmin olunması yolunda mühüm addımlar atıldı. Təkcə 2000-2002-ci illərdə Bakıda, onun Maştağa qəsəbəsində, Naxçıvanda, Gəncədə və Şəkidə müasir tipli idman kompleksləri tikilib istifadəyə verilmişdir. Bərdə idman kompleksinin tikintisi artıq başa çatdırılıb. Lənkəran və Quba şəhərlərində də idman komplekslərinin tikintisi davam etdirilir. Şamaxıda isə belə bir kompleksin tikintisinə başlanılmışdır. Bakıda İdman Oyunları Sarayında, İdman-Konsert Kompleksində, Respublika stadionunda və Bədən Tərbiyəsi Akademiyasının futbol meydançasında tam təmir-bərpa işləri aparılmışdır. Bakıda üzgüçülük hovuzu tikilib istifadəyə verilmiş, əltopu və gimnastika üzrə idman zallarının tikintisi işləri həyata keçirilir. Bakıda stend atıcılığı üçün idman qurğusunun və otüstü xokkey üçün stadionun tikintisi də başa çatmaq üzrədir.

Həyata keçirilmiş irimiqyaslı işlər nəticəsində Bakı dünyanın tanın-

mış idman mərkəzlərindən birinə çevrilməkdədir. Son illərdə bir çox nüfuzlu beynəlxalq idman tədbirlərinin Bakıda keçirilməsi buna əyani sübutdur.

Sidney Olimpiadasından sonra Gənclər, İdman və Turizm Nazirliyinin və Milli Olimpiya Komitəsinin apardığı məqsədyönlü işlər, idmançılarımızın əldə etdikləri yüksək göstəricilər və qalan müddət ərzində həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlər Azərbaycanda Afina Olimpiadasına hazırlığın yüksək səviyyədə getdiyini göstərir.

Azərbaycanın milli yığma komandalarını 2004-cü ildə Yunanıstanın Afina şəhərində keçiriləcək XXVIII Yay Olimpiya Oyunlarına yüksək səviyyədə hazırlamaq və hazırlıq mərhələsində onların rəsmi beynəlxalq yarışlarda iştirakını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- milli yığma komandanın XXVIII Yay Olimpiya Oyunlarına hazırlığı mərhələsində təlim-məşq toplanışlarının keçirilməsini, rəsmi beynəlxalq yarışlarda iştirakını, Gənclər, İdman və Turizm Nazirliyinin və Milli Olimpiya Komitəsinin təqdim etdiyi xüsusi proqramlara əsasən nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə maliyyə məsələlərini həll etsin;
- bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 iyun 2003-cü il.

# İdman, gənclər və sosial təminat sahələrində çalışan işçilərin əmək haqlarının artırılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

İdman, gənclər və sosial təminat müəssisə və təşkilatlarında çalışan işçilərə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Dövlət büdcəsindən maliyyələşən idman, gənclər və sosial təminat müəssisə və təşkilatlarında çalışan işçilərin vahid tarif cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2003-cü il iyulun 1-dən 50 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 iyun 2003-cü il.

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur.

Tarixi bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir. Xalqın tarixi yaddaşının özünə qaytarılması onun qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratdı.

Azərbaycanın müasir tarixində 1969-cu il respublikanın sosial-iqtisadi və mədəni inkişafında dönüş ili olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji 70-ci illərin bariz əlamətinə çevrildi. Bu illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Kənd təsərrüfatının inkişafında böyük nailiyyətlər əldə edildi. Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur islahatları həyata keçirildi. Yeni sənaye sahələri yaradıldı, sənayenin qabaqcıl sahələrində, ilk növbədə, maşınqayırma kompleksində, kimya və

neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma işləri, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişləndirilməsi prosesi başlandı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə keçmiş SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Əslində, Azərbaycanın dövlət suverenliyi və müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş iqtisadi potensiala əsaslanır.

Dinamik inkişaf edən iqtisadiyyatı yüksək ixtisaslı kadrlarla təmin etmək üçün Azərbaycanda orta ixtisas və ali təhsil məktəbləri şəbəkəsi nəzərəçarpacaq dərəcədə genişləndirildi, hər il Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı elm və təhsil ocaqlarına gənclərin göndərilməsi həmin illərdə bir ənənəyə çevrildi.

Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, gənc və yeniyetmə azərbaycanlı oğlanların həmin məktəbə, habelə respublikadan kənarda ali hərbi məktəblərə cəlb olunması Azərbaycan üçün peşəkar hərbi kadrlar hazırlanması işinə böyük təkan verdi. Beləliklə, Heydər Əliyevin uzaqgörənliyi sayəsində gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım atıldı.

Azərbaycanın elmi, mədəniyyəti və incəsənəti həmin illərdə böyük yüksəliş dövrü yaşadı. Respublikanın paytaxtı Bakı şəhərinin, digər şəhər və rayonların inkişafı və abadlaşması sahəsində kompleks tədbirlər həyata keçirildi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə ölkədə hakimiyyət uğrunda başlanan silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə ağır zərbələr vurdu. Ölkədə yaranmış ictimai-siyasi xaos, anarxiya, zorakılıq halları, milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhv olmaq təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gəti-

rildi. Belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı bu təhlükəli vəziyyətdən çıxarmaq üçün gərgin işə başladı. İlk növbədə, hakimiyyət vakuumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başlamışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Azərbaycanın daxilində yaranmış sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı. Onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyev öz neft strategiyasının əsas mənasını Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə etməkdə görürdü. Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi Heydər Əliyev neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir.

Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Azərbaycan Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürü idi.

Dəfn mərasimindən dərhal sonra ölkə vətəndaşları öz yığıncaqlarında, kütləvi informasiya vasitələrində, müxtəlif tədbirlərdə ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirməklə bağlı çoxsaylı müraciətlər etdi. Müraciətlərə baxılması üçün Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2003-cü il tarixli sərəncamı ilə Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyası Azərbaycan Respublikası Milli Məclisinin, ictimai qurumların, qeyri-hökumət təşkilatlarının, beynəlxalq təsisatların, ölkə vətəndaşlarının çoxsaylı müraciətlərini nəzərdən keçirərək, öz təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdir.

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan tarixindəki misilsiz xidmətlərini nəzərə alaraq, onun xatirəsini əbədiləşdirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı təsis edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti Heydər Əliyev Mükafatının Əsasnaməsini iki ay müddətində hazırlayıb Azərbaycan Res-

publikasının Prezidentinə təqdim etsin.

**2.** Bakı və Naxçıvan şəhərlərində "Heydər Əliyev" Xatirə memorial kompleksləri yaradılsın. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, respublikanın müvafiq yaradıcılıq ittifaqları ilə birlikdə komplekslərin layihələrinin müsabiqəsini keçirsin və üç ay ərzində təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeninin təsis edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

**4.** Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adı verilsin.

**5.** Bakı Beynəlxalq Aeroportuna Heydər Əliyevin adı verilsin.

**6.** Bakı Dərin Özüllər Zavoduna Heydər Əliyevin adı verilsin.

**7.** Respublika sarayına Heydər Əliyevin adı verilsin.

**8**. Bakı şəhərindəki İdman-Konsert Kompleksinə Heydər Əliyevin adı verilsin.

**9.** Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

**10.** Azərbaycanın şəhər və rayonlarında küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

**11.** Heydər Əliyevin şərəfinə platin, qızıl və gümüş xatirə sikkələri buraxılsın.

**12.** Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adının əbədiləşdirilməsi ilə əlaqədar olaraq bir sıra özəl qurum, şirkət və qeyri-hökumət təşkilatları tərəfindən görülmüş tədbirlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna Heydər Əliyevin adının verilməsi, ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması dəstəklənsin.

**13.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**14.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 mart 2004-cü il.

# Yunanıstanın Afina şəhərində keçirilən XXVIII Yay Olimpiya oyunlarında ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərini XXVIII Yay Olimpiya oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** XXVIII Yay Olimpiya oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutan hər bir idmançıya 500 milyon manat, onun məşqçisinə isə 250 milyon manat məbləğində;
- ikinci yeri tutan hər bir idmançıya 250 milyon manat, onun məşqçisinə isə 125 milyon manat məbləğində;
- üçüncü yeri tutan hər bir idmançıya 120 milyon manat, onun məşqçisinə isə 60 milyon manat məbləğində.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 avqust 2004-cü il.

## Azərbaycan idmançılarının təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XXVIII Yay Olimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Mansurov Fərid Salman oğlu
Cəfərov Elçin Lənkəran oğlu
Həsənoğlu Əliqulu

**"Tərəqqi" medalı ilə**

Aslanov Fuad Alxan oğlu
Aşumova İradə Süleyman qızı
Meftəhəddinova Zemfira Əli qızı
Məmmədov Ağası Ağagül oğlu
Cəfərov Hafiz Yusif oğlu
Eyvazov Məmməd Fətəli oğlu
Kazımov Vaqif Babaş oğlu
Lunyov Vladimir Terentyeviç

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 sentyabr 2004-cü il.

# Yunanıstan Afina şəhərində keçirilən XII Yay Paralimpiya Oyunlarında əldə edilmiş nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının əlil idmançılarının və onların məşqçilərinin Yunanıstanın Afina şəhərində keçirilən XII Yay Paralimpiya Oyunlarında göstərdikləri yüksək nəticələrə görə mükafatlandırılması məqsədi ilə **qərara alıram:**

**1.** XII Yay Paralimpiya Oyunlarında yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının əlil idmançıları və onların məşqçiləri üçün mükafatlar aşağıdakı qaydada müəyyən edilsin:

- Birinci yer tutan hər bir idmançıya 250 milyon manat, onun məşqçisinə 125 milyon manat məbləğində;
- İkinci yeri tutan idmançıya 125 milyon manat, onun məşqçisinə isə 60 milyon manat məbləğində;
- Üçüncü yeri tutan idmançıya 60 milyon manat, onun məşqçisinə isə 30 milyon manat məbləğində.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 oktyabr 2004-cü il.

## Y.S.Blatterin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan futbolunun inkişafında və onun beynəlxalq əlaqələrinin genişləndirilməsindəki xidmətlərinə görə Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti Yozef Sepp Blatter "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 oktyabr 2004-cü il.

## Azərbaycan Olimpiya çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdlərinin verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında" 10 oktyabr 2002-ci il tarixli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycanın aşağıdakı Olimpiya çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdləri verilsin:

Ponomaryov İqor Anatolyeviç
Mansurov Fərid Salman oğlu

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 fevral 2005-ci il.

## “Bədən tərbiyəsi və idman günü”nün təsis edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Xalqımızın sağlamlığının qorunması və möhkəmləndirilməsində, gənclərimizin fiziki inkişafında, ölkəmizin idman şərəfinin beynəlxalq aləmdə daha da uca zirvələrə qaldırılmasında bədən tərbiyəsinin əhəmiyyətini və rolunu nəzərə alaraq, **qərara alıram:**

Hər il martın 5-i Azərbaycan Respublikasında “Bədən tərbiyəsi və idman günü” kimi qeyd olunsun.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 4 mart 2005-ci il.

## “Azərbaycan Respublikasının fəxri adları haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 may tarixli 706 nömrəli Fərmanına əlavə və dəyişiklik barədə

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında böyük nailiyyətlər qazanmış şəxslərin əməyinin qiymətləndirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının fəxri adları haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 may tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №5, maddə 312; 2000-ci il, №4, II kitab, maddə 268) 1-ci bəndində “təhsil və səhiyyə” sözləri “təhsil, səhiyyə, bədən tərbiyəsi və idman”

sözləri ilə əvəz edilsin, "Əməkdar memar" sözlərindən sonra "Əməkdar bədən tərbiyəsi və idman xadimi" sözləri əlavə edilsin.

**2.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 4 mart 2005-ci il.

## Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin V Beynəlxalq İdman Oyunlarının təşkili və keçirilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində birgə əməkdaşlığının genişləndirilməsi, xalqlar arasında dostluq və sülhün daha da möhkəmləndirilməsi məqsədi ilə Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin və İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının təkliflərini nəzərə alaraq **qərara alıram:**

**1.** Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin "Sülh və sağlamlıq dostluqdadır" devizi altında V Beynəlxalq İdman Oyunları 23-27 sentyabr 2005-ci il tarixində Bakı şəhərində keçirilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti V Beynəlxalq İdman Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsini təmin etmək üçün müvafiq tədbirlər görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 mart 2005-ci il.

# Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında dövlət qayğısı nəticəsində bir sıra idman növləri üzrə əldə olunmuş yüksək nailiyyətləri nəzərə alaraq futbola da dövlət qayğısını artırmaq, onun maddi-texniki bazasını inkişaf etdirmək, əhalinin sağlam həyat tərzinə maraqlarını yüksəltmək, futbolun elmi-metodiki və normativ-hüquqi bazasının yaradılmasını və təkmilləşdirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

**2.** Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndiricisi Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası müəyyən edilsin.

**3.** Azərbaycan Respublıkasının Nazirlər Kabineti müvafiq icra orqanları ilə birlikdə bu sərəncamla təsdiq olunmuş (2005-2015-ci illər) futbolun inkişafına dair Dövlət Proqramından irəli gələn məsələləri həll etsin.

**4.** Bu sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 oktyabr 2005-ci il

*Azərbaycan Respublikası Prezidentinin*
*2005-ci il 10 oktyabr tarixli*
*sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında Futbolun İnkişafına dair Dövlət Proqramı (2005-2015-ci illər)

## 1. Giriş

Azərbaycan Respublikasında ən kütləvi və ən çox sevilən idman növü olan futbolun zəngin tarixi və ənənələri var. Bakının "Neftçi", Gəncənin "Dinamo" komandalarının qazandığı uğurlar futbol tariximizin şanlı səhifələridir. XX əsrdə Azərbaycanda dünya səviyyəli futbolçular, məşqçilər və hakimlər yetişib.

Təəssüf ki, son on beş il ərzində futbolumuz şöhrətini itirmiş, bu idman növünə maraq və diqqət azalmışdır. Göstərilən dövrdə ölkədə futbolla məşğul olanların sayı 200 min nəfərdən 74 min nəfərə enərək iki dəfədən çox azalmışdır. Yaranmış acınacaqlı vəziyyət futbol üzrə milli yığma komandaların nəticələrinə mənfi təsir göstərir. 1992-ci ildən etibarən Dünya və Avropa çempionatlarının seçmə mərhələlərində Azərbaycan milli yığma komandası öz qrupunda sonuncu yerlərlə kifayətlənmişdir. Yeniyetmələrdən və gənclərdən ibarət yığma komandalarımız da beynəlxalq turnirlərdə ölkəmizi layiqincə təmsil edə bilməmişlər.

Futbol bazalarının hazırkı vəziyyəti, respublika uşaq-yeniyetmə futbol məktəblərinin maddi-texniki bazalarının aşağı səviyyədə olması, yüksək ixtisaslı məşqçi və müəllimlərin çatışmamazlığı əhalinin, xüsusilə yeniyetmə və uşaqların futbol ilə məşğul olmağa artan tələbatını ödəməyə imkan vermir. Futbolçu ehtiyatı hazırlığı üçün beynəlxalq standartlara cavab verən mərkəzlərin olmaması, süni örtüklü meydançaların yetərsizliyi, futbolla bağlı xüsusi metodik ədəbiyyatın çatışmamazlığı ölkədə futbolun inkişafına və futbolçu ehtiyatı hazırlanmasına mənfi təsir göstərir.

Ümumiyyətlə, respublikada futbolun hazırkı vəziyyəti idmanın bu növünün kütləvi inkişafı üçün təxirəsalınmaz və konkret tədbirlərin görülməsini, uşaq-yeniyetmə və gənclər arasında işin canlandırılmasını, futbol infrastrukturunun inkişafını, beynəlxalq səviyyəli futbolçuların hazırlanmasını zəruri edir. Bu mənada Azərbaycan Respublikasında

futbolun inkişafı Dövlət Proqramı (2005-2015-ci illər) - bundan sonra Proqram - ölkədə futbolun inkişafına və beynəlxalq yarışlarda uğurlar əldə etməyə xidmət edir.

**2. Proqramın əsas məqsəd və vəzifələri**

2005-2015-ci illərdə Azərbaycan Respublikasında futbolun inkişafı Dövlət Proqramının əsas məqsədi "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə bədən tərbiyəsi və idmana aid digər normativ hüquqi aktlara uyğun olaraq futbol sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə futbolun və onun infrastrukturunun inkişaf etdirilməsini, futbol ilə məşğul olmaq üçün müvafiq şəraitin yaradılmasını, köhnə stadionların bərpasını, yenilərinin layihələşdirilməsini və tikintisini, beynəlxalq səviyyəli futbolçuların, məşqçilərin, hakimlərin və digər futbol mütəxəssislərinin hazırlanmasını təmin etməkdən ibarətdir.

**Proqramın əsas vəzifələri aşağıdakılardır:**

**1)** futbolun infrastrukturunu genişləndirmək, onun maddi-texniki bazasını möhkəmləndirmək;

**2)** futbol mütəxəssislərinin hazırlanması və yenidən hazırlanması sistemini təkmilləşdirmək;

**3)** uşaq-yeniyetmə futbol məktəbləri şəbəkəsini inkişaf etdirmək, futbolda xüsusi istedadı olan uşaqlar üçün ixtisaslaşdırılmış futbol internat məktəblərini, ehtiyat futbolçu hazırlığı üçün bölgə və respublika mərkəzlərini yaratmaq;

**4)** futbolla bağlı məlumat-maarifçilik və təbliğat işini gücləndirmək;

**5)** futbol sahəsində qabaqcıl texnologiyaları tətbiq etmək məqsədi ilə xarici futbol təşkilatları və qurumları ilə əlaqələr qurmaq və onları inkişaf etdirmək;

**6)** əhalinin bütün təbəqələrinin futbol meydançalarından və qurğularından istifadəsinə imkan yaratmaq.

**3. Azərbaycan Respublikasında futbolun inkişafının əsas istiqamətləri**

2005-2015-ci illərdə ölkədə futbolun inkişafını aşağıdakı əsas isti-

qamətlər üzrə həyata keçirmək nəzərdə tutulur:

**1)** təhsil müəssisələrində, əhalinin yaşayış yerlərində futbol infrastrukturunun yaradılması;

**2)** təhsil müəssisələri üçün futbol üzrə tədris proqramlarının işlənib hazırlanması;

**3)** futbol üzrə metodik vəsait və tövsiyələrin hazırlanması;

**4)** ümumtəhsil, orta ixtisas və ali məktəblərdə futbol bölmələrinin açılması;

**5)** şagird və tələbələrin futbol üzrə çempionatlarının təşkil edilməsi;

**6)** məhəllə komandaları arasında futbol üzrə yarışların keçirilməsi;

**7)** mövcud və yeni açılacaq uşaq-gənclər idman və internat məktəblərində qadın futbolu üzrə tədris qruplarının yaradılması;

**8)** ölkənin bütün bölgələrində istedadlı uşaqlar üçün futbol üzrə ixtisaslaşdırılmış internat məktəblərinin yaradılması;

**9)** milli yığma komandaların beynəlxalq yarışlarda, o cümlədən Avropa və Dünya çempionatlarında, Olimpiya oyunlarında, klub komandalarının isə Avropa turnirlərində iştirakının təmin edilməsi;

**10)** Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının nəzdində müasir avadanlıqla təchiz olunmuş tibbi-bərpa mərkəzinin yaradılması;

**11)** futbol üzrə mütəxəssislərin hazırlanması sisteminin təkmilləşdirilməsi;

**12)** idmanın ən kütləvi və nüfuzlu növü olan futbolun təbliğ etdirilməsi;

**13)** futbolun inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

**4. Gözlənilən nəticələr**

Proqramda yerinə yetirilməsi nəzərdə tutulan tədbirlər aşağıdakı nəticələrə nail olmağa imkan verəcəkdir:

**1)** cəmiyyətdə sağlam həyat tərzi prinsiplərinin tətbiq edilməsinə;

**2)** futbolun populyarlaşması nəticəsində ölkədə bədən tərbiyəsi və idmanla, o cümlədən futbolla məşğul olan vətəndaşların sayının artırılmasına;

**3)** ölkənin ümumtəhsil məktəblərində, ali və orta ixtisas təhsil

müəssisələrində, uşaq-yeniyetmə idman məktəblərində futbolla məşğul olan uşaq, yeniyetmə və gənclərin sayının artmasına;

4) ölkənin bütün bölgələrini əhatə edən futbol sahəsində istedadlı uşaqlar üçün ixtisaslaşdırılmış regional internat məktəblərinin yaradılmasına;
5) futbolun maddi-texniki bazasının inkişafı nəticəsində yeniyetmə və gənclərin futbola cəlb edilməsinə;
6) ölkənin bütün şəhər və bölgələrində əlavə iş yerlərinin açılmasına;
7) beynəlxalq arenada ölkənin imicini qorumağa layiq olan beynəlxalq səviyyəli peşəkar futbolçuların hazırlanmasına.

## 5. Proqramın həyata keçirilməsi üzrə tədbirlər planı

| Sıra № | Tədbirin adı | İcraçılar | İcra müddəti | Maliyyə mənbəyi |
|---|---|---|---|---|
| | **1. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi** | | | |
| **1.1** | Futbolla bağlı normativ-hüquqi aktların layihələrinin hazırlanması | Nazirlər Kabineti, Gənclər, İdman və Turizm Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2008-ci illər | GİTN AFFA |
| **1.2** | Bədən tərbiyəsi və idmanın normativ-qanunverici bazasının hazırlanmasında futbolun tələblərinin nəzərə alınması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2005-2008-ci illər | |
| **1.3** | Peşəkarlar, qadınlar və əlillər arasında yarışların keçirilməsi reqlamentinin təkmilləşdirilməsi, FİFA və UEFA-nın tələblərinə uyğunlaşdırılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyasının Assosiasiyası | 2005-2006-cı illər | AFFA |
| **1.4** | Futbol üzrə təsnifat normalarının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | AFFA |
| **1.5** | Futbol meydançalarının layihələşdirilməsi, tikintisi və avadanlıqlarla təchizatı normalarının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2008-ci illər | GİTN AFFA |

| | | | | |
|---|---|---|---|---|
| **1.6** | Futbolun inkişafı üçün əlverişli investisiya mühitinin yaradılması ilə bağlı təkliflərin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | |
| **1.7** | 18 yaşına qədər futbolçuların transfer məsələlərini FİFA, UEFA normalarına və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunlaşdırılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Ədliyyə Nazirliyi | 2005-2006-cı illər | |

**2. Futbolun inkişafı sahəsində fəaliyyətin təşkili və idarə olunması**

| | | | | |
|---|---|---|---|---|
| **2.1** | Futbol klublarının maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə tədbirlərin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | |
| **2.2** | Həvəskar futbol klublarının maddi-texniki bazasının və maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə təkliflərin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | |
| **2.3** | Həvəskar komandalar arasında ümumrespublika və regional yarışların keçirilməsi sisteminin təkmilləşdirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, yerli icra hakimiyyəti orqanları | 2005-2006-cı illər | |
| **2.4** | Uşaq-gənclər futbolunun inkişaf proqramının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |
| **2.5** | Regionlardakı federasiyalarda uşaq-gənclər futbol komitələrinin yaradılması | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |
| **2.6** | Fəaliyyət göstərilən Uşaq Gənclər İdman Məktəblərində (oğlanlar və qızlar), internat məktəblərində futbol tədris qruplarının yaradılması | Yerli İcra Hakimiyyəti orqanları, Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2007-ci illər | Təhsil Nazirliyi GİTN |
| **2.7** | Qadın futbolunun inkişafına dair proqramın hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | AFFA |

| | | | | |
|---|---|---|---|---|
| **2.8** | Rayon və şəhər ümumtəhsil məktəblərinin yığma komandaları arasında yarışların keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2015-ci illər | Təhsil Nazirliyi GİTN |
| **2.9** | Regionlardakı federasiyalarda qadın futbol komitələrinin yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | |
| **2.10** | Uşaq-gənclər və idman məktəblərində qadın futbolu bölmələrinin açılması, qadın futbolu regional hazırlıq ehtiyat mərkəzlərinin yaradılması | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Yerli İcra Hakimiyyəti orqanları | 2005-2006-cı illər | |
| **2.11** | Ümumtəhsil məktəblərində, orta ixtisas və ali tədris müəssisələrində qadın futbolunun inkişafı və təbliğ edilməsi ilə bağlı tədbirlər sisteminin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Yerli İcra Hakimiyyəti orqanları, Təhsil Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN Təhsil Nazirliyi |
| **2.12** | Azərbaycanın bütün bölgələrində futzalın regional təşkilatlarının yaradılması, Uşaq, gənclər idman məktəblərində futzal bölmələrinin genişləndirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Yerli İcra Hakimiyyəti orqanları, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | YİNO TN GİTN |
| **2.13** | Uşaq-gənclər futzal liqasının yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |
| **2.14** | Çimərlik futbolu üzrə regional assosiasiyaların, peşəkar və həvəskar liqaların yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assoiasiyası | 2005-2007-ci illər | GİTN AFFA |
| **2.15** | Paralimriya futbol növləri üzrə Respublika turnirlərinin keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Respublika Paralimriya Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2015-ci illər | GİTN PK AFFA |
| **2.16** | Veteranların futbol yarışlarının təkmiləşdirilməsi tədbirlərinin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |

| | | | | |
|---|---|---|---|---|
| **2.17** | "Qol" və digər proqramlar çərçivəsində birgə layihələri həyata keçirmək üçün AFFA, FİFA və UEFA ilə əməkdaşlığının genişləndirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2015-ci illər | |

**3. Futbolun maddi-texniki bazasının inkişafı**

| | | | | |
|---|---|---|---|---|
| **3.1** | Futbol stadionlarının rasrortlaşdırılması | Gənclər, İdman və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |
| **3.2** | Prioritet futbol qurğularının sayının artırılmasına dair təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Ədliyyə Nazirliyi | 2005-2006-cı illər | |
| **3.3** | Regional futbol federasiyalarının maddi-texniki bazalarının yaradılması | Yerli İcra Hakimiyyəti orqanları, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2008-ci illər | YİNO AFFA |
| **3.4** | Milli Futzal Mərkəzinin tikintisinə dair təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-ci illər | AFFA |
| **3.5** | Regionlardakı stadionlarda və təlim-məşq bazalarında FİFA və UEFA-nın tələblərinə uyğun yenidənqurma işlərinin aparılması | Yerli İcra Hakimiyyəti orqanları, Gənclər İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2008-ci illər | YİNO GİTN AFFA |
| **3.6** | AFFA-nın proqramına əsasən futbol şəhərciklərinin və futbol məktəblərinin yaradılmasının Yerli İcra Hakimiyyəti orqanlarına tövsiyə edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2008-ci illər | YİNO GİTN |
| **3.7** | AFFA-nın proqramına əsasən ölkənin regionlarında gənc futbolçuların hazırlanması üçün futbol meydançalarının yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Yerli İcra Hakimiyyəti orqanları, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2015-ci illər | GİTN YİNO AFFA |

| | | | | |
|---|---|---|---|---|
| **3.8** | FİFA-nın müvafiq proqramına əsasən ölkədə fəaliyyət göstərən və tikilməkdə olan futbol qurğularının, həmçinin süni örtüklü meydançaların modernləşdirilməsinə dair təkliflərin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN YİNO AFFA |
| **3.9** | Əlillər üçün müvafiq futbol meydançalarının yaradılması | Yerli İcra Hakimiyyəti orqanları, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi | 2005-2007-ci illər | YİNO ƏƏSMN GİTN |
| **3.10** | Ali və orta ixtisas müəssisələrində futbol meydançalarının yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi | 2005-2015-ci illər | Təhsil Nazirliyi |
| **3.11** | Futbola xarici investisiyaların cəlb edilməsi üçün birgə müəsisələrin yaradılması və qarşılıqlı səmərəli maliyyə layihələrinin hazırlanması | Yerli İcra Hakimiyyəti orqanları, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, İqtisadi İnkişaf Nazirliyi | 2005-2015-ci illər | Təhsil Nazirliyi |

**4. Kadr təminatı**

| | | | | |
|---|---|---|---|---|
| **4.1** | Futbol mütəxəssislərinin ixtisaslarının artırılmasının təşkili | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |
| **4.2** | Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının nəzdində məşqçilərin, menecerlərin və başqa futbol mütəxəssislərinin ixtisasartırma kurslarının yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Təhsil Nazirliyi | 2005-2006-cı illər | GİTN |
| **4.3** | Futbol məşqçilərinin təlim sisteminin təkmilləşdirilməsi və peşəkarlıq səviyyəsinin artırılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2015-ci illər | GİTN AFFA |
| **4.4** | Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının nəzdində məşqçilər üçün ali futbol məktəbinin yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2007-ci illər | GİTN AFFA |

| | | | | |
|---|---|---|---|---|
| **4.5** | Futbol sahəsində çalışan bütün işçilərin peşə və ixtisas səviyyələrinin artırılması üçün metodik vəsaitlərin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | Mütəmadi | GİTN AFFA |
| **4.6** | Futbol sahəsində mütəxəssislərin mübadiləsi məsələsinin həlli üçün xarici assosiasiyalarla əməkdaşlıq proqramının hazırlanması | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | AFFA |
| **4.7** | Hakimlərin seçilmə qaydalarının təkmilləşdirilməsi, peşəkarlığın artırılması proqramının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | AFFA |

**5. Elmi-metodiki, tibbi-bioloji və informasiya təminatı**

| | | | | |
|---|---|---|---|---|
| **5.1** | Futbol komandalarının hazırlığı üçün elmi-metodiki qrupların yaradılması və onların müasir texniki avadanlıqlarla təmin edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2008-ci illər | GİTN AFFA |
| **5.2** | Nəzəri və praktiki seminarları aparan xarici mütəxəssislərin iştirakı ilə müasir tədris-metodiki rroqramların hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2015-ci illər | GİTN AFFA |
| **5.3** | Azərbaycanın inkişaf etmiş futbol ölkələrinə inteqrasiyası üçün elmi-metodiki təminat proqramının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | AFFA |
| **5.4** | Futbolun problemləri üzrə elmi-praktiki konfransların keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | Mütəmadi | GİTN AFFA |
| **5.5** | Futbolçuların məşq və oyun təcrübəsini təkmilləşdirmək üçün elmi tədqiqatların aparılması, yeni tibbi-bioloji texnologiyaların işlənməsi, tibbi-bioloji və bərpa mərkəzinin yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Səhiyyə Nazirliyi | 2005-2015-ci illər | GİTN AFFA |

| | | | | |
|---|---|---|---|---|
| **5.6** | Futbol yarışlarında dopinq, stimullaşdırıcı və qadağan olunan digər vasitələrdən istifadə hallarının aradan qaldırılması üçün tədbirlər sisteminin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qaralı Səhmdar Cəmiyyəti, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | Mütəmadi | |
| **5.7** | Futbol üzrə elmi-tədris radio və teleproqramlarının, məktəb yaşına qədər olan uşaqlar, məktəblilər və valideynlər üçün futbol mövzusunda metodiki və tədris xarakterli videofilmlərin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, "Azərbaycan Televiziya və Radio Verlişləri" Qaralı Səhmdar Cəmiyyəti | 2005-2015-ci illər | GİTN AFFA TRŞ |
| **5.8** | Milli və xarici futbolun inkişafı təcrübəsi əsasında elmi-metodiki problemlər üzrə informasiya sisteminin yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |
| **5.9** | Dünya informasiya məkanında Azərbaycan futbolunun təbliğini təmin edən informasiya texnologiyalarının təkmilləşdirilməsi və "Azərbaycan futbolu internetdə" layihəsinin hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |

**6. Yığma komandaların hazırlığının təkmilləşdirilməsi**

| | | | | |
|---|---|---|---|---|
| **6.1** | Futbol üzrə dünya və Avropa çemrionatlarına, dünya unversiadalarına, futzal, çimərlik futbolu, veteranlar, əlillər və qadın futbolu yarışlarına Azərbaycan yığma komandalarının hazırlanmasını və iştirakını təmin etmək məqsədilə kompleks proqram hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2006-cı illər | GİTN AFFA |

| | | | | |
|---|---|---|---|---|
| **6.2** | FİFA-nın müvafiq proqramı daxilində yığma komandaların hazırlıq mərkəzinin yaradılması, müasir avadanlıqla təmin edilməsi və onların elmi-metodiki və tibbi-bioloji təminatının təmin edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | 2005-2008-cı illər | GİTN AFFA |
| **6.3** | Milli yığma komandaların beynəlxalq idman tədbirlərinə hazırlığı və iştirakı üçün dövlət büdcəsi hesabına maddi yardımn göstərilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Maliyyə Nazirliyi | 2005-2015-cı illər | GİTN |

## Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan idmanının inkişafındakı xidmətlərini nəzərə alaraq aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Əliyev Vaqif Cəfər oğlu
Hüseynov Əşrəf Rza oğlu
Quliyev Dilqəm Qasım oğlu
Mirməmmədov Arif Bəxtiyar oğlu
Rəhimov Mirkamil Pirəli oğlu

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 25 yanvar 2006-cı il.

# Azərbaycan Respublikasının bəzi nazirliklərinin yenidən təşkil edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində aparılan islahatların davamı olaraq mədəniyyət, gənclərlə iş, idman və turizm sahələrinin idarə edilməsinin təkmilləşdirilməsinin və onun müasir tələblərə uyğun qurulmasının, bu sahələrdə idarəetmənin səmərəliliyinin daha da artırılmasının zəruriliyini nəzərə alaraq və onların struktur optimallığını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yaradılsın.

**3.** Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yaradılsın.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

**4.1.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin əsasnamələrinin layihələrini təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.2.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin strukturları və aparatlarının işçilərinin say həddi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.3.** Qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
**5.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 yanvar 2006-cı il.

## Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, Nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin aparatının işçilərinin say həddi 110 ştat vahidi müəyyən edilsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

**4.1.** qüvvədə olan normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 aprel 2006-cı il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2006-cı il 18 aprel tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında ƏSASNAMƏ

## I. Ümumi müddəalar

**1.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (bundan sonra - Nazirlik) ölkədə gənclər, bədən tərbiyəsi və idman sahələrində (bundan sonra - müvafiq sahədə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

**2.** Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

**3.** Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

**4.** Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

**5.** Nazirliyin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**6.** Nazirlik Bakı şəhərində yerləşir.

## II. Nazirliyin fəaliyyət istiqamətləri

**7.** Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

**7.1.** müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

**7.2.** gənc nəslin yaradıcılıq potensialını, qüvvəsini, bilik və bacarığını milli dövlət quruculuğuna, iqtisadi və sosial inkişaf proqramlarının həyata keçirilməsinə yönəldir;

**7.3.** gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsini həyata keçirir;

**7.4.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

**III. Nazirliyin vəzifələri**

**8.** Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

**8.1.** müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda normativ tənzimləməni həyata keçirmək;

**8.2.** dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

**8.3.** icra hakimiyyəti orqanlarının və qeyri-hökumət təşkilatlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

**8.4.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

**8.5.** müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada dövlət nəzarətini həyata keçirmək;

**8.6.** qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin həyata keçirilməsini, habelə elmi-tədqiqat işlərinin aparılmasını və onların nəticələrinin təcrübədə tətbiq edilməsini təmin etmək;

**8.7.** yerlərdə müvafiq sahənin inkişafı ilə bağlı aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən perspektiv planların işlənib hazırlanmasında iştirak etmək;

**8.8.** qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

**8.9.** öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək;

**8.10.** müvafiq sahə üzrə vahid informasiya sistemini yaratmaq;

**8.11.** müvafiq sahəni işıqlandıran televiziya və radio verilişlərinin layihələrini hazırlayıb həyata keçirmək;

**8.12.** müvafiq sahəyə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

**8.13.** müvafiq sahədə kadr hazırlığını təmin etmək, mütəxəssislərin beynəlxalq təcrübəyə yiyələnməsinə şərait yaratmaq;

**8.14.** ümumbəşəri və milli dəyərlərə, demokratik cəmiyyətin qurulması yolunda qarşıda duran məsələlərə dair gənclərin, o cümlədən tələbələrin diskussiya klublarını təşkil etmək;

**8.15.** gənclərin təhsil və sosial problemlərinin həllinə öz səlahiyyətləri çərçivəsində yardım etmək, onlar üçün yaradıcı mühitin formalaşdırılmasına kömək göstərmək, bu məqsədlə sərgilər, festivallar, konsertlər, tamaşalar təşkil etmək;

**8.16.** müasir idarəetmənin və bazar iqtisadiyyatının əsaslarının gənclər tərəfindən öyrənilməsində, istehsalın səmərəli təşkili, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, o cümlədən fermer təsərrüfatlarının yaradılmasında müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə metodik məsləhətlərin verilməsi işini təşkil etmək;

**8.17.** gənclərin hüquqlarının qorunması və sosial müdafiəsi sahəsində aidiyyəti icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə birgə iş aparmaq, gənclərin işlə təmin olunmasına şərait yaratmaq;

**8.18.** əlil, xüsusilə də müharibə əlili olan gənclərin problemlərinin aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən həll edilməsi məqsədi ilə müvafiq vəsatətlər qaldırmaq;

**8.19.** gənc ailələrin sosial, məişət problemlərinin aradan qaldırılmasına dair aidiyyəti icra hakimiyyəti orqanları qarşısında məsələlər qaldırmaq, proqramlar hazırlamaq və digər zəruri tədbirlər görmək;

**8.20.** gəncləri narkomaniya, cinayətkarlıq və digər zərərli vərdişlərdən uzaqlaşdıraraq, sağlam həyat tərzinə uyğun yetişdirmək üçün öz səlahiyyətləri daxilində profilaktik tədbirlər görmək, bu məqsədlə aidiyyəti icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları tərəfindən keçirilən tədbirlərdə yaxından iştirak etmək;

**8.21.** tələbə gənclərin dövlət quruculuğu prosesində və ölkənin ictimai-siyasi həyatında iştirakına, onların yaradıcılıq potensialının üzə çıxarılmasına dair aidiyyəti icra hakimiyyəti orqanları ilə birgə müvafiq proqramlar hazırlayıb həyata keçirmək;

**8.22.** şəxsiyyətin harmonik, hərtərəfli inkişafı, gənclərin əməyə,

Vətəni müdafiəyə hazırlanması, onların sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtlarının səmərəli təşkil edilməsi sahəsində bədən tərbiyəsinin və idmanın rolunun artırılmasına dair tədbirlər görmək;

**8.23.** ölkədə bədən tərbiyəsi və idmanın təşviqini və təbliğini təmin etmək;

**8.24.** tədris müəssisələrində və məktəbəqədər tərbiyə, bədən tərbiyəsi və idman vasitəsilə uşaqların, məktəblilərin və tələbələrin sağlamlığının qorunmasını və möhkəmlənməsini təmin etmək, belə müəssisələrdə uşaq və yeniyetmələrin fiziki hazırlığı üzrə normativləri hazırlamaq;

**8.25.** ölkədə uşaq-gənclər idman və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbləri şəbəkəsini yaratmaq, fəaliyyətlərini istiqamətləndirmək, əlaqələndirmək, idman məktəbləri üçün nümunəvi tədris proqram və planlarını hazırlamaq və təsdiq etmək;

**8.26.** əlil olan gənclərin bədən tərbiyəsi və idmanla məşğul olmaları, idman yarışlarında iştirak etmələri üçün əlverişli şərait yaratmaq, belə gənclər arasında ölkə və beynəlxalq idman yarışlarını, o cümlədən Paralimpiya və Surdolimpiya Oyunlarını, Ümumdünya Xüsusi Olimpiya Oyunlarını təşkil etmək və bu yarışlarda əlil idmançıların iştirakını təmin etmək;

**8.27.** qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada hüquqi və fiziki şəxslərə məxsus olan yarış məqsədli, xüsusi idman təyinatlı mexaniki nəqliyyat vasitələrinin dövlət qeydiyyatını və onların dövlət texniki baxışını həyata keçirmək;

**8.28.** əhalinin sağlam həyat tərzinə cəlb olunmasını və bədən tərbiyəsi və idman qurğularından və avadanlıqlardan səmərəli istifadə edilməsini təmin etmək məqsədi ilə belə qurğular və avadanlıqlardan istifadə olunmasının norma və qaydalarının hazırlanmasını təşkil etmək;

**8.29.** idman növləri üzrə ölkə və beynəlxalq miqyaslı yarışların və təlim-məşq toplanışlarının təqvimini təsdiq etmək və həyata keçirilməsini təmin etmək;

**8.30.** idman yarışlarının qaydalarını, ənənəvi və yeni idman növləri üzrə işin təşkilini və aparılmasını tənzimləyən metodik, normativ sənədləri təsdiq etmək;

**8.31.** ölkədə mövcud olan idman növlərinin reyestrini hazırlayıb təsdiq etmək;

**8.32.** idman növləri üzrə yığma komandaların maddi-texniki təchizatını təmin etmək, tərkibini və məşqçilərini təsdiq etmək, hazırlığını təşkil etmək və bu komandaların beynəlxalq yarışlarda, Dünya və Avropa çempionatları və birinciliklərində, Milli Olimpiya Komitəsi ilə birlikdə Olimpiya Oyunlarında iştirakını təmin etmək, aidiyyəti icra hakimiyyəti orqanları, hüquqi şəxslər, habelə qeyri-hökumət təşkilatları, o cümlədən idman federasiyaları ilə birlikdə ehtiyat qüvvələrinin hazırlığı üzrə iş aparmaq, ölkədə bütün idman məktəbləri və Olimpiya hazırlığı mərkəzləri şəbəkəsinin inkişafını əlaqələndirərək, onlara metodik tövsiyələr vermək;

**8.33.** yığma komandaların tibbi-bioloji və elmi-metodik təminatı üzrə kompleks tədbirlərin hazırlanmasına, habelə bütün idman növləri üzrə elmi qrupların yaradılmasına, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

**8.34.** idman növləri üzrə Azərbaycan rekordlarını təsdiq etmək, dünya və Avropa rekordlarının təsdiq edilməsinə dair sənədləri müvafiq beynəlxalq idman təşkilatlarına təqdim etmək;

**8.35.** bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən təşkilatların, əhalinin, xüsusilə də idmançıların idman təyinatlı avadanlıq və geyimlərə olan tələbatını öyrənmək, onların istehsalının və ya əldə edilməsinin təşkilinə kömək göstərmək;

**8.36.** qanunvericiliklə müəyyən edilmiş qaydada bədən tərbiyəsi və idman işçiləri üçün dərəcələr haqqında əsasnamələri, həmçinin məşqçi-müəllimlərə, təlimatçı-metodistlərə ixtisas dərəcələrinin verilməsi haqqında əsasnamələri hazırlamaq və təsdiq etmək;

**8.37.** ölkədə idman sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarını, o cümlədən federasiyaları və digər qurumları öz səlahiyyətləri daxilində akkreditə etmək;

**8.38.** əhaliyə idman-sağlamlıq xidmətinin göstərilməsi sahəsində normativləri hazırlayıb təsdiq etmək;

**8.39.** ümumdünya antidopinq hərəkatında fəaliyyət göstərmək və idmanda dopinqə qarşı mübarizə tədbirlərini həyata keçirmək;

**8.40.** Nazirliyin strukturuna daxil olan qurumların maddi-texniki bazasının möhkəmləndirilməsi və inkişafına dair, habelə Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

**8.41.** Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

**8.42.** fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**IV. Nazirliyin hüquqları**

**9.** Nazirlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

**9.1.** müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

**9.2.** müvafiq sahədə dövlət siyasətinin əsas istiqamətlərinə dair təkliflər vermək;

**9.3.** müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

**9.4.** öz səlahiyyətləri daxilində müvafiq sahəyə investisiyaların cəlb olunmasına dair təkliflər vermək;

**9.5.** müvafiq sahə üzrə dövlət və yerli özünüidarə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

**9.6.** qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

**9.7.** müvafiq sahə üzrə beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinə dair təkliflər vermək;

**9.8.** fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

**9.9.** bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində müvafiq sahə üzrə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görmək;

**9.10.** müvafiq sahədə müxtəlif treninq, kurs, seminar və digər tədbirlər təşkil etmək;

**9.11.** müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

**9.12.** qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər

və digər nəşrlər buraxmaq, internet saytı yaratmaq və ondan istifadə etmək;

**9.13.** qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə tövsiyələr, təlimatlar və digər normativ sənədlər hazırlamaq və təsdiq etmək;

**9.14.** gənclərin, xüsusilə də gənc ailələrin mövcud sosial-məişət problemlərini təhlil etmək və onların aradan qaldırılmasına dair təkliflər vermək;

**9.15.** bədən tərbiyəsi və idmanın inkişafının əsas istiqamətlərinin kompleks təhlilini və proqnozlaşdırılmasını həyata keçirmək;

**9.16.** uşaq-gənclər idman və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəblərindən statistik hesabatları toplamaq, təhlil etmək və aidiyyəti icra hakimiyyəti orqanlarına təqdim etmək;

**9.17.** fəxri idman adlarını vermək, bədən tərbiyəsi və idman sahəsindəki işçiləri, fəalları, habelə idman klubları və təşkilatlarının nümayəndələrini mükafatlandırmaq, "Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının, orden və medalların verilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə təqdimat vermək;

**9.18.** fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**V. Nazirliyin fəaliyyətinin təşkili**

**10.** Nazirliyin aparatı və onun strukturuna daxil olan yerli və digər qurumları, habelə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

**11.** Nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

**12.** Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən nazir rəhbərlik edir. Nazir Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**13.** Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Nazirin müa-

vinləri onlara nazir tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

**14.** Nazir:

**14.1.** Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**14.2.** Nazirliyin aparatının struktur bölmələrinin və strukturuna daxil olan qurumların əsasnamələrini təsdiq edir;

**14.3.** müəyyən edilmiş struktur, əmək haqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının, yerli və digər qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

**14.4.** Nazirliyin aparatının işçilərini, strukturuna daxil olan qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, ikili tabelikdə olan yerli orqanların rəhbərlərinin isə qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edilməsi üçün təqdimatlar verir, həmçinin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür, qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir;

**14.5.** qanunvericiliyə uyğun olaraq, icrası məcburi olan əmr və sərəncamlar verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

**14.6.** Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

**14.7.** Nazirliyi təmsil edir.

**15.** Nazirlikdə nazirdən (kollegiyanın sədri), onun müavinlərindən, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirindən, Nazirliyin strukturuna daxil olan qurumların rəhbər işçilərindən, müvafiq sahədə fəaliyyət göstərən qurumların rəhbərlərindən, Milli Olimpiya Komitəsinin nümayəndəsindən ibarət kollegiya yaradılır. Nazirliyin kollegiyasının tərkibinə həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilər.

**16.** Nazirliyin kollegiyasının üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

**17.** Nazirliyin kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

**18.** Nazirliyin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin kollegiyasının qərarları onun üzv-

lərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

**19.** Nazirliyin kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və nazir tərəfindən təsdiq edilir.

**20.** Nazirliyin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, nazir bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

**21.** Nazirliyin kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların rəhbərləri, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilər.

**22.** Nazirliyin nəzdində onun fəaliyyət istiqamətləri üzrə ictimai şuralar, mərkəzlər və komissiyalar yaradıla bilər. Həmin ictimai şuraların, mərkəzlərin və komissiyaların əsasnamələri nazir tərəfindən təsdiq edilir.

*Azərbaycan Respublikası Prezidentinin*
*2006-cı il 18 aprel tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin STRUKTURU

**1.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin aparatı

**2.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin strukturuna daxil olan qurumlar

Bakı, Gəncə, Sumqayıt şəhər gənclər və idman baş idarələri, rayon (şəhər) gənclər və idman idarələri

- Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
- Respublika Olimpiya İdman Litseyi və onun nəzdində Nabran qəsəbəsində yerləşən şagird istirahət düşərgəsi
- Respublika Yüksək İdman Ustalığı Məktəbi
- Su idmanı növləri üzrə Respublika Yüksək İdman Ustalığı Məktəbi
- Velosiped idmanı üzrə Respublika Uşaq-Gənclər İdman Məktəbi
- Respublika Kompleks İdman Məktəbi
- Respublika Atçılıq və Müasir Beşnövçülük üzrə İxtisaslaşdırılmış Olimpiya Ehtiyatı Uşaq-Gənclər İdman Məktəbi
- Stend Atıcılığı İdman Məktəbi
- Gədəbəy rayonunda yerləşən Respublika Kompleks İdman Məktəbi
- T.Bəhramov adına Respublika Stadionu
- Respublika Velotreki
- Heydər Əliyev adına İdman-Konsert Kompleksi
- İdman-Tennis Kompleksi
- Respublika Stend Atıcılığı Kompleksi
- Sumqayıt şəhərində yerləşən “Polad” İdman Kompleksi
- Gəncə şəhərində yerləşən “Metallurq” İdman Kompleksi
- Gədəbəy rayonunda yerləşən “Respublika” İdman Kompleksi
- Respublika Olimpiya Mərkəzi
- Respublika Şahmat Mərkəzi
- Olimpiya növləri üzrə milli komandalar üçün təlim-məşq mərkəzi

- Şüvəlan qəsəbəsində yerləşən "Cırtdan" Respublika uşaq istirahət və sağlamlıq mərkəzi
- "Kür" Olimpiya Tədris-İdman Mərkəzi
- Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi
- Respublika İdman Tibb Mərkəzi
- Bakı şəhər Tibbi-bədən tərbiyəsi dispanseri
- Sumqayıt şəhər Tibbi-bədən tərbiyəsi dispanseri
- Gəncə şəhər Tibbi-bədən tərbiyəsi dispanseri
- Əli Bayramlı şəhər Tibbi-bədən tərbiyəsi dispanseri
- Şəki şəhər Tibbi-bədən tərbiyəsi dispanseri
- Lənkəran şəhər Tibbi-bədən tərbiyəsi dispanseri
- Mingəçevir şəhərində yerləşən uşaq istirahət düşərgəsi
- "İdman" qəzetinin redaksiyası

## Olimpiya çempionu İ.V.Rıskala Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında" 2002-ci il 10 oktyabr tarixli 798 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il №10, maddə 594; Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 405 nömrəli Fərmanı) uyğun olaraq **qərara alıram:**

**1.** Olimpiya çempionu Rıskal İnna Valeriyevnaya Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 iyun 2006-cı il.

## R.S.Hacıyevə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Daxili İşlər orqanlarının şəxsi heyətinin fiziki və döyüş hazırlığının inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin sədri polis polkovniki Rafiq Soltan oğlu Hacıyevə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 iyun 2006-cı il.

## XXIX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

XXIX Yay Olimpiya Oyunları 2008-ci ildə Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçiriləcəkdir. Olimpiya Oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən möhtəşəm və mühüm idman tədbiridir. Müasir dövrdə hər bir dövlətin Olimpiya Hərəkatındakı iştirakı, onu təmsil edən idmançıların Olimpiya Oyunlarında göstərdikləri nəticələr ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir. Milyonlarla insanı bir araya gətirən Olimpiya Oyunları xalqlar arasında dostluğu, qarşılıqlı anlaşmanı, sülhü möhkəmləndirən güclü vasitədir. Olimpiya Hərəkatının böyük əhəmiyyətini qəbul edən dünya ölkələri ildən-ilə bu hərəkata daha fəal qoşulurlar. Əgər 1896-cı ildə I Olimpiya Oyunlarında cəmi 14 ölkə iştirak edirdisə, 2004-cü il oyunlarına 202 ölkə qatılmışdır. Növbəti Pekin Olimpiadasında isə iştirakçı ölkələrin sayının daha da artacağı gözlənilir.

Azərbaycan idmançıları Olimpiya Oyunlarında 1952-ci ildən 1992-ci ilədək SSRİ-nin, 1992-ci ildə isə Müstəqil Dövlətlər Birliyinin yığma komandasının tərkibində çıxış etməli olmuşlar. Bu dövr ərzində idmançılarımız on olimpiadada iştirak etmiş, 14 qızıl, 11 gümüş və 8 bürünc medala layiq görülmüşlər.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə ölkənin Olimpiya Hərəkatında iştirakının yeni dövrü başlanmışdır. 1992-ci ildə yaradılmış Azərbaycan Milli Olimpiya Komitəsi 1993-cü ildə Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmış və Azərbaycan müstəqil dövlət kimi ilk dəfə 1996-cı ildə Atlanta Olimpiya Oyunlarında təmsil olunmuşdur. Həmin dövrdən idmançılarımız Azərbaycan bayrağı altında üç Qış və üç Yay Olimpiya Oyunlarında iştirak etmişlər.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda idmanın tərəqqisinə və ölkəmizin Olimpiya Hərəkatında iştirakına həmişə xüsusi əhəmiyyət vermişdir. Onun böyük diqqət və qayğısı, tövsiyə və göstərişləri sayəsində Azərbaycan Beynəlxalq Olimpiya Hərəkatına fəal qoşulmuş, ölkədə idman ahəngdar inkişaf etmişdir. Azərbaycan Respublikası Prezidentinin "Sidney Olimpiya Oyunlarına hazırlıq haqqında" 20 fevral 1998-ci il və "Afina Olimpiya Oyunlarına hazırlıq haqqında" 5 iyun 2003-cü il tarixli sərəncamları Milli Olimpiya Komitəsinin daha məqsədyönlü iş aparması üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2000-ci il tarixli Sərəncamı ilə idmançılarımızı və onların məşqçilərini Olimpiya Oyunlarında yüksək nəticələrə həvəsləndirmək məqsədi ilə mükafatların təyin edilməsi isə atletlərimizin yarışlara daha yaxşı hazırlaşmasına yeni stimul vermiş, nəticələrin olimpiadadan olimpiadaya yaxşılaşmasına gətirib çıxarmışdır. Əgər 1996-cı ildə 197 ölkənin iştirak etdiyi Atlanta Oyunlarında Azərbaycan bir gümüş medalla 61-ci yeri tutmuşdursa, 2000-ci ildə XXVII Yay Olimpiya Oyunlarında idmançılarımız iki qızıl və bir bürünc medal qazanaraq, 199 ölkənin qatıldığı bu oyunlarda ölkəmiz üçün 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri təmin etmişlər. 2004-cü ildə Afinada idmançılarımız 1 qızıl, 4 bürünc medalla təltif edilmişlər ki, bu da Azərbaycan idmanının sürətlə irəli getdiyini bir daha nümayiş etdirir.

Ölkədə Olimpiya Hərəkatı və idmanın inkişafı gündən-günə geniş vüsət alır. Son onillik beynəlxalq idman qurumları ilə əlaqələrin qurulması, Milli Olimpiya Komitəsinin dünya miqyasında nüfuzunun artma-

sı, beynəlxalq yarışların respublikamızda keçirilməsi, idmanın maddi-texniki bazasının yaradılması sahəsində görülən böyük işlərlə əlamətdardır. 2000-ci ildən başlayaraq Bakıda, paytaxtın Maştağa qəsəbəsində, Naxçıvanda, Gəncədə, Şəkidə, Bərdədə, Lənkəranda, Qubada, Şamaxıda, Zaqatalada müasir tipli idman kompleksləri tikilib istifadəyə verilmişdir. İndi respublikamızın demək olar ki, bütün rayonlarında belə komplekslərin tikintisi davam edir. Ötən dövrdə bir sıra idman növləri üzrə ixtisaslaşdırılmış idman qurğuları inşa olunmuşdur. Stend Atıcılığı Mərkəzi, Taekvondo Sarayı, Yaxt-klub, Otüstü Hokkey Mərkəzi, ABU-Arena Həndbol kompleksi, Naxçıvan Üzgüçülük Mərkəzi belə idman obyektlərindəndir.

Yeni müasir idman qurğularının tikilib istifadəyə verilməsi, eləcə də həyata keçirilmiş irimiqyaslı işlər nəticəsində Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilmişdir. Hazırda Azərbaycan təkcə müəyyən kateqoriyalı beynəlxalq yarışların deyil, eyni zamanda qitə və dünya çempionatlarının keçirildiyi dövlətdir. Beynəlxalq yarışların regionlarda təşkili sahəsində də böyük nailiyyətlər qazanılmışdır.

2008-ci il Pekin Olimpiadasının daha gərgin mübarizə şəraitində keçəcəyi gözlənilir. Azərbaycan idmançıları Sidney və Afinada əldə edilmiş nəticələri təkrar etmək, tutduqları mövqeyi qoruyub saxlamaq və yaxşılaşdırmaq uğrunda mübarizə aparmalıdırlar. Bu məqsəd naminə Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, həmçinin bütün milli idman federasiyaları öz səylərini birləşdirməlidirlər. Son iki ildə idmançılarımızın qazandıqları uğurlar Olimpiya yarışlarına hazırlığın lazımi səviyyədə getdiyini göstərir. Bununla yanaşı, aparılan işlər və qalan müddət ərzində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycanın Pekin Olimpiadasına daha yüksək səviyyədə hazırlığını təmin etməli, qarşıda qoyulmuş məqsədlərə çatmaq imkanı yaratmalıdır.

Azərbaycanın Milli Olimpiya Komandasının 2008-ci ildə Pekin şəhərində keçiriləcək XXIX Yay Olimpiya Oyunlarına daha yüksək səviyyədə hazırlanmasını, bu mərhələdə onların rəsmi beynəlxalq yarışlarda iştirak etməsini, Olimpiya Oyunlarına lisenziyaların qazanılması və idmançıların oyunlara tam hazırlığını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin təq-

dim etdiyi xüsusi proqramlara əsasən milli yığma komandaların XXIX Yay Olimpiya Oyunlarına hazırlığı mərhələsində təlim-məşq toplanışlarının keçirilməsini, idmançıların rəsmi beynəlxalq yarışlarda iştirakını, ölkədə lisenziya yarışlarının təşkilini və nəzərdə tutulan digər tədbirlərin həyata keçirilməsini təmin etmək üçün maliyyə məsələlərini həll etsin;

- bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyul 2006-cı il.

## İ.C.Cavadovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan futbolunun inkişafındakı xidmətlərinə görə İsgəndər Cavad oğlu Cavadov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 sentyabr 2006-cı il.

# Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasının bəzi nazirliklərinin yenidən təşkil edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 yanvar tarixli 359 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1. Azərbaycan Respublikası Prezidentinin aşağıdakı fərman və sərəncamlarında dəyişikliklər edilsin:**

**1.1.** "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli 485 nömrəli Fərmanının 1-ci bəndində "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziri" sözləri "Azad Rəhimov - Azərbaycan Respublikasının Gənclər və İdman naziri" sözləri ilə əvəz edilsin.

**1.2.** "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 5 iyun tarixli 595 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, №5, maddə 357; 2001-ci il, №7, maddə 459) 2-ci bəndinin üçüncü abzasında "Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman" sözləri ilə əvəz edilsin.

**1.3.** Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 2 nömrəli əlavəsinin "İxrac" bölməsinin 3-cü sütununda "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.4.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun

tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №4, maddə 244; 2002-ci il, №1, maddə 14; 2005-ci il, №7, maddə 596) 2-ci bəndinin dördüncü, beşinci, yeddinci və doqquzuncu abzaslarında və 4-cü bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.5.** "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №6, maddə 386; 2002-ci il, №1, maddə 14) 2-ci bəndinin üçüncü, dördüncü, yeddinci, səkkizinci və doqquzuncu abzaslarında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə, beşinci abzasında "Mədəniyyət Nazirliyi" sözləri "Mədəniyyət və Turizm Nazirliyi" sözləri ilə, altıncı abzasında "Mədəniyyət Nazirliyi həyata keçirirlər" sözləri "Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir" sözləri ilə, onuncu abzasında "Mədəniyyət Nazirliyi" sözləri "Mədəniyyət və Turizm Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**1.6.** "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №8, maddə 499; 2002-ci il, №1, maddə 14; 2003-cü il, №10, maddə 571) 2-ci bəndinin dördüncü abzasında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.7.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №11, maddə 666; 2001-ci il, №7, maddə 456; 2003-cü il, №10, maddələr 546, 571; 2004-cü il, №8, maddə 617, №12, maddə 1005) 2-ci bəndinin on yeddinci abzasında "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin.

**1.8.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 dekabr tarixli 47 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №12, maddə

761; 2001-ci il, №7, maddə 459; 2005-ci il, №7, maddə 596) 2-ci bəndinin üçüncü, dördüncü, beşinci və yeddinci abzaslarında, 4-cü və 5-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin.

**1.9.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №3, maddə 167; 2002-ci il, №8, maddə 482) 2-ci bəndinin dördüncü abzasında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.10.** Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 16 iyun tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №6, maddə 345, №9, maddə 542; 2001-ci il, №7, maddə 456, №9, maddə 593, №10, maddə 640; 2002-ci il, №7, maddə 412, №8, maddə 480; 2003-cü il, №6, maddə 290, №10, maddə 585; 2004-cü il, №1, maddə 19, №7, maddə 537; 2005-ci il, №2, maddə 69, №7, maddə 597; 2006-cı il, №2, maddə 84) 1 nömrəli əlavəsinin birinci bəndinin birinci abzasında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə və "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin.

**1.11.** "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 17 iyun tarixli 139 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №6, maddə 346; 2001-ci il, №7, maddə 459; 2002-ci il, №5, maddə 259; 2003-cü il, №10, maddə 546; 2004-cü il, №7, maddə 533; 2006-cı il, №7, maddə 588) 1-ci bəndində "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziri" sözləri "Azad Rəhimov - Azərbaycan Respublikasının Gənclər və İdman naziri" sözləri ilə əvəz edilsin.

**1.12.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №8, maddə 498;

2002-ci il, №8, maddə 487) 2-ci bəndinin ikinci abzasında "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin.

**1.13.** "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 3 fevral tarixli 270 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №2, maddə 85) 2-ci və 3-cü bəndlərində ismin müvafiq hallarında "Mədəniyyət Nazirliyi" sözləri ismin müvafiq hallarında "Mədəniyyət və Turizm Nazirliyi" sözləri ilə əvəz edilsin.

**1.14.** "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli 349 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №6, maddələr 428, 431, №8, III kitab, maddə 614; 2001-ci il, №7, maddə 459) 2-ci bəndində "Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman" sözləri ilə, 19-cu bəndinin on birinci abzasında "Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət" sözləri "Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.15.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №7, maddə 511; 2003-cü il, №10, maddə 546; 2004-cü il, №1, maddə 19) 2.2-ci və 2.19-cu bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.16.** "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 376 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №7, maddə 516; 2001-ci il, №7, maddə 459) üçüncü abzasında "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.17.** "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29

avqust tarixli 389 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №8, III kitab, maddə 612; 2001-ci il, №7, maddə 462, №10, maddə 640, №12, maddə 755; 2002-ci il, №1, maddə 49, №5, maddələr 260, 275, №8, maddələr 478, 484, 486; 2003-cü il, №6, maddə 299, №8, maddə 434, №9, maddə 478, №10, maddələr 546, 547, 560, 571, 582; 2004-cü il, №1, maddələr 19, 26, №2, maddə 68, №3, maddələr 138, 141, №4, maddə 235, №5, maddələr 340, 341, 343, 345, 346, №8, maddələr 607, 608, №11, maddə 909, №12, maddə 1005; 2005-ci il, №2, maddələr 67, 69, №4, maddələr 299, 303, № 8, maddə 702, № 9, maddələr 801, 802, № 12, maddə 1101; 2006-cı il, № 2, maddə 83, № 4, maddələr 321, 322, № 5, maddə 407; № 7, maddə 590, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 436 və 437 nömrəli, 17 avqust tarixli 450 nömrəli, 25 avqust tarixli 454 nömrəli fərmanları) 3.8-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.18.** "Kinematoqrafiya Haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 526 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №7, maddə 463; 2005-ci il, №10, maddə 918) 1-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.19.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №5, maddə 264; 2004-cü il, №1, maddə 19) 2-ci bəndinin üçüncü, dördüncü, beşinci, altıncı, yeddinci, doqquzuncu və onuncu abzaslarında "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə, dördüncü, beşinci, altıncı abzaslarında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.20.** Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №8, maddə 489; 2004-cü il, №8, maddə 616; 2005-ci il, №1, maddələr 15, 19) ilə təsdiq edilmiş:

**1.20.1.** "Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları"nın 4-cü bəndində;

**1.20.2.** "Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları"nın 13-cü bəndində;

**1.20.3.** "Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları"nın 3.8-ci, 5.12-ci və 6.4-cü bəndlərində;

**1.20.4.** "Mülki silahın kolleksiya edilməsi və ya onun sərgisinin keçirilməsi Qaydaları"nın 2.3-cü və 3.10-cu bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.21.** Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin Siyahısı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №9, maddə 555; 2003-cü il, №3, maddə 153, №10, maddə 570; 2006-ci il, №2, maddə 69, №4, maddələr 301, 307, №8, maddə 721, №10, maddə 919, №12, maddələr 1104, 1117, №7, maddə 591) 30-cu bəndində "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.22.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 944 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qeyri-dövlət mülkiyyətində olan xüsusi əhəmiyyətli mədəniyyət sərvətlərinin satılması Qaydası"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №10, maddə 549) 2-ci və 6-cı bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.23.** "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 noyabr tarixli 4 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №11, maddə 634) 2-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.24.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №2, maddə 62; 2005-ci il, №2, maddə 69; 2006-cı il, №7, maddə 590) 3-cü bölməsinin:

**1.24.1.** 3.1.35-ci, 3.1.39-3.1.46-cı, 3.2.1.7-ci, 3.2.2.40-cı, 3.2.6.26-cı bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə;

**1.24.2.** 3.2.1.21-ci, 3.2.1.25-ci, 3.2.2.45-ci, 3.2.2.47-ci, 3.2.2.60-cı, 3.2.3.13-cü, 3.2.3.79-cu, 3.2.3.97-ci, 3.2.4.10-cu, 3.2.4.34-cü, 3.2.4.40-cı, 3.2.4.42-ci, 3.2.4.44-cü, 3.2.4.54-cü, 3.2.4.55-ci, 3.2.4.58-ci, 3.2.4.60-cı, 3.2.4.71-ci, 3.2.5.4-cü, 3.2.5.25-ci, 3.2.5.34-cü, 3.2.5.49-cu, 3.2.5.62-ci, 3.2.8.18-ci, 3.2.8.23-cü, 3.2.8.39-cu, 3.2.9.19-cu, 3.2.9.21-ci, 3.2.9.26-cı, 3.2.9.27-ci, 3.2.9.46-cı bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə;

**1.24.3.** 3.2.2.39-cu, 3.2.2.87-ci, 3.2.3.12-ci, 3.2.3.74-cü, 3.2.3.78-ci, 3.2.4.28-ci, 3.2.6.68-ci, 3.2.9.28-ci, 3.2.9.49-cu bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə;

**1.24.4.** 3.1.11-ci, 3.1.13-cü və 3.2.5.47-ci bəndlərində "Gənclər, İdman" sözləri "Gənclər və İdman Nazirliyi, Mədəniyyət" sözləri ilə;

**1.24.5.** 3.2.5.72-ci bəndində "Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət" sözləri, 3.2.8.35-ci bəndində "Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.25.** "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 aprel tarixli 56 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №4, maddə 236) 2.1-ci bəndində "Gənclər, İdman" sözləri "Mədəniyyət" sözü ilə əvəz edilsin.

**1.26.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 315 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №11, maddə 1010) 2-ci bəndinin ikinci abzasında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.27.** "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 344 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №12, maddə 1113) 1.1-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.28.** "Türkiyə Respublikası ilə iqtisadi əməkdaşlıq məsələləri üzrə

Azərbaycan Respublikasının daimi fəaliyyət göstərəcək hökumətlərarası Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 12 aprel tarixli 295 nömrəli Sərəncamının 2-ci bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə əvəz edilsin.

**1.29.** Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №6, maddə 409; 2004-cü il, №1, maddə 19) 12-ci, 13-cü, 25-ci və 26-cı bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.30.** "Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 dekabr tarixli 42 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-cu il, №12, maddə 785; 2001-ci il, №7, maddə 459) 2-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin.

**1.31.** "Azərbaycan Respublikasının Moskva şəhəri ilə əməkdaşlıq üzrə Hökumət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 5 fevral tarixli 69 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №2, maddə 104) 1-ci bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə əvəz edilsin.

**1.32.** "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 28 may tarifli 160 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №5, maddə 321) 1-ci bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə əvəz edilsin.

**1.33.** "Avropa Şurasının fəaliyyətinə və Azərbaycan Respublikası ilə Avropa Şurası arasındakı əməkdaşlığa dair məlumatların yayılması barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 mart ta-

rixli 364 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №3, II kitab, maddə 203) 5-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.34.** "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli 416 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №5, maddə 342; 2001-ci il, №7, maddə 459; 2006-cı il, №7, maddə 588) 1-ci bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə, "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziri" sözləri "Azad Rəhimov - Azərbaycan Respublikasının Gənclər və İdman naziri" sözləri ilə əvəz edilsin.

**1.35.** "Birgə kino istehsalı haqqında" Avropa Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqanın təyin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 475 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №7, maddə 537; 2002-ci il, №1, maddə 57) 1-ci və 2-ci bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.36.** "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 569 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №11, maddə 805) 1-ci bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə əvəz edilsin.

**1.37.** "Azərkinovideo" İstehsalat Birliyinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 aprel tarixli 688 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №4, maddə 260) 1-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.38.** "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin

2001-ci il 4 iyul tarixli 766 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №7, maddə 500) on dördüncü abzasında "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə əvəz edilsin.

**1.39.** "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 27 dekabr tarixli 851 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №12, maddə 795; 2003-cü il, №10, maddə 585; 2004-cü il, №1, maddə 24) 1-ci bəndinin onuncu abzasında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.40.** "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlfalq Xüsusi Hüququ Unifikasiya İnstitutunun (YUNİDRUA) "Oğurlanmış, yafud qanunsuz aparılmış mədəniyyət sərvətləri haqqında" Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 14 noyabr tarixli 1089 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №11, maddə 668) adında, 1-ci və 2-ci bəndlərində ismin müvafiq hallarında "Mədəniyyət Nazirliyi" sözləri ismin müvafiq hallarında "Mədəniyyət və Turizm Nazirliyi" sözləri ilə əvəz edilsin.

**1.41.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 18 fevral tarixli 1152 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №2, maddə 107; 2004-cü il, №12, maddə 1005) ilə təsdiq edilmiş:

**1.41.1.** "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram"ın "Milli Proqramın həyata keçirilməsi üçün tədbirlər planı" bölməsinin 20-ci və 81-83-cü bəndlərində "Gənclər, İdman və Turizm" sözləri, 89-92-ci bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**1.41.2.** "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram"ın 10-cu bölməsinin 10.1.3-cü bəndində "Gənclər, İdman" sözləri "Mədəniyyət" sözü ilə əvəz edilsin.

**1.42.** "Çıraqqala" Tarixi Abidələr Kompleksinin bərpası və qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23

iyun tarixli 1262 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №6, maddə 324) 3-cü bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.43.** "Şabran şəhəri" tarix və mədəniyyət abidəsinin qorunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 1343 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №9, maddə 517) 4-cü bəndində "Gənclər, İdman və Turizm" sözləri və 5-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.44.** "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli 56 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №1, maddə 32) 3-cü bəndinin ikinci abzasında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.45.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli 208 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №5, maddə 350) "Milli Fəaliyyət Planı üzrə tədbirlər" bölməsinin 12-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin.

**1.46.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 30 iyun tarixli 291 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramının (2004-2008-ci illər)" (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №6, maddə 492; 2005-ci il, №7, maddə 596) 4.3-cü və 4.6-cı bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.47.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №7, maddə 540) 1.8-ci, 2.19-cu və 3.7-ci bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.48.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 sentyabr tarixli 377 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004 - 2006-cı illər)" (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №9, maddə 696; 2005-ci il, №7, maddə 596; 2006-cı il, №7, maddə 590) "Dövlət Proqramı üzrə tədbirlər" bölməsinin 5.1-5.5-ci bəndlərinə aid 4-cü sütununda "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.49.** "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda işçilərin əməyinin ödənilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 13 oktyabr tarixli 453 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №10, maddə 829; 2005-ci il, №1, maddə 41, №8, maddə 741, №9, maddə 808, №12, maddə 1194) 2-ci bəndinin səkkizinci abzasında "Gənclər, İdman və Turizm" sözləri, doqquzuncu abzasında "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.50.** Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli 517 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №11, maddə 940; 2005-ci il, №7 maddə 596) "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək Tədbirlər" bölməsinin:

**1.50.1.** 2.4.2-ci, 3.1.1-ci, 3.2.2-ci, 5.1.19-cu, 5.2.16-cı, 5.2.17-ci, 7.9-cu, 7.10-cu və 8.25-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə;

**1.50.2.** 5.2.7-ci bənddə "Gənclər, İdman" sözləri "Gənclər və İdman Nazirliyi, Mədəniyyət" sözləri ilə əvəz edilsin.

**1.51.** "Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №6, maddə 493, №10, maddə 968; 2006-cı il, №7, maddə 588) 1-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.52.** "2006-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın hazırlanması

haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 iyun tarixli 853 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №6, maddə 512, №10, maddə 968; 2006-cı il, №7, maddə 588) 1-ci bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə, "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziri" sözləri "Azad Rəhimov - Azərbaycan Respublikasının Gənclər və İdman naziri" sözləri ilə əvəz edilsin.

**1.53.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 avqust tarixli 935 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının, o cümlədən, Quba, Qusar, Xaçmaz, Siyəzən və Dəvəçi rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №8, maddə 729; 2006-cı il, №7, maddə 590):

**1.53.1.** 1.6-cı bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə;

**1.53.2.** 1.8-ci və 1.10-cu bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə;

**1.53.3.** 1.7-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.54.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 25 avqust tarixli 972 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının, o cümlədən, Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №8, maddə 765):

**1.54.1.** 1.5-ci və 1.7-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə;

**1.54.2.** 4.2-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə;

**1.54.3.** 5.3-cü bəndində "Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət" sözləri "Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.55.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 982 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi

Dövlət Proqramının (2005-2009-cu illər)" (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №8, maddə 775):

**1.55.1.** 4-cü bölməsinin birinci və ikinci hissələrində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**1.55.2.** "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər) üzrə həyata keçiriləcək Tədbirlər" bölməsinin:

**1.55.2.1.** 7.8-7.14-cü bəndləri istisna olmaqla, mətnində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə, "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**1.55.2.2.** 7.8-7.14-cü bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.56.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 sentyabr tarixli 1001 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №9, maddə 821):

**1.56.1.** 2.3-cü, 3.8-ci və 5.6-cı bəndlərində "Gənclər, İdman" sözləri "Mədəniyyət" sözü ilə;

**1.56.2.** 2.4-cü bəndində "Mədəniyyət Nazirliyi, Gənclər, İdman" sözləri "Mədəniyyət" sözü ilə;

**1.56.3.** 3.7-ci və 4.3-cü bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə;

**1.56.4.** 5.5-ci bəndində "Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.57.** "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №9, maddə 826) 3-cü bəndində "Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Mədəniyyət naziri" sözləri "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri" sözləri ilə, "Əbülfəz Qarayev - Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm naziri" sözləri "Azad Rəhimov - Azərbaycan Respublikasının Gənclər və İdman naziri" sözləri ilə əvəz edilsin.

**1.58.** "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 10 oktyabr tarixli 1038 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №10, maddə 926):

**1.58.1.** 2-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**1.58.2.** həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında futbolun inkişafına dair Dövlət Proqramının (2005-2015-ci illər)" "Proqramın həyata keçirilməsi üzrə tədbirlər planı" bölməsinin mətnində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə, "GİTN" qısaldılmış ifadələri "GİN" qısaldılmış ifadələri ilə əvəz edilsin.

**1.59.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 oktyabr tarixli 1044 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının, o cümlədən Əli Bayramlı şəhəri, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı"nın (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №10, maddə 932) 2.2-ci, 4.3-cü bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə, 8.4-cü və 11.3-cü bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**1.60.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 21 oktyabr tarixli 1055 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №10, maddə 943; 2006-cı il, №7, maddə 590) VII bölməsinin 7.3.8-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 sentyabr 2006-cı il

# Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" fəxri adının verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə "Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" fəxri adı verilsin:

Abbasov Adil Seyfulla oğlu
Abdul-Qədirov İsmayıl Qafar oğlu
Babanlı Tofiq Xanlar oğlu
Dərvişov Əli İsa oğlu
Eminbəyli Yavuz İbrahim oğlu
Əhmədov Fikrət Eyyub oğlu
Əsgərov Ədalət Əsgər oğlu
Hacıəhmədov Hacıağa Səməd oğlu
Hüseynov Xankişi Mişan oğlu
Hüseynov Oqtay Qulam oğlu
Kərimov Sultan Əbdülhəmid oğlu
Qafarov Arif Muxtar oğlu
Qasımov Kamran Məmməd oğlu
Qurbanov Xanlar Kazım oğlu
Leksutov İqor Pavloviç
Mehtiyev Aydın İsa oğlu
Mursaqulov Saridan Ramiz oğlu
Nəzərov Vahid Əliş oğlu
Ömərov Firdovsi Kamal oğlu
Şubina Lyudmila Yeqorovna
Üseynov Məmməd Mir Bağır oğlu

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 dekabr 2006-cı il.

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan idmanının inkişafında böyük xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Axundzadə Ağayar Əbdüləzim oğlu
Cəfərov Elçin Lənkəran oğlu
Cəfərov Hafiz Yusif oğlu
Eyvazov Məmməd Fətəli oğlu
Əhmədov Kamal Məhəmməd oğlu
Əliqulu Həsən oğlu
Məmmədov Vahid Şərafəddin oğlu

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 dekabr 2006-cı il.

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan idmanının inkişafında böyük xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Nərimanov Bəhram Əhməd oğlu
Şamilov Çingiz Qasım oğlu

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 dekabr 2006-cı il.

## Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin əmək haqlarının artırılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin sosial müdafiəsini daha da gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

**1.** Dövlət büdcəsindən maliyyələşən mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2007-ci il fevralın 1-dən orta hesabla 25 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 22 yanvar 2007-ci il.

## A.A.Banişevskinin xatirəsinin əbədiləşdirilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Tanınmış Azərbaycan idmançısı Anatoli Andreyeviç Banişevskinin xatirəsini əbədiləşdirmək məqsədi ilə **qərara alıram:**

Bakı Şəhər İcra Hakimiyyəti Anatoli Andreyeviç Banişevskinin yaşadığı binaya (2-ci Sülh döngəsi, ev 2a) xatirə lövhəsinin vurulmasını təmin etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 6 fevral 2007-ci il.

# Azərbaycanda şahmatın inkişaf etdirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda tarixən şahmat geniş yayılmış ənənəvi oyunlardan biri olmuş və xalqımızın mədəniyyətində özünəməxsus yer tutmuşdur. İntellektual idman növü kimi şahmatın inkişafına ötən əsrin 70-ci illərindən etibarən respublikamızda böyük diqqət göstərilmişdir. Bu məqsədlə dövlət səviyyəsində qərarlar qəbul edilmiş, şəhər və rayonlarda şahmat məktəbləri və klubları açılmışdır. Görülən tədbirlər nəticəsində şahmat oyununa maraq kütləvi xarakter almış və Azərbaycanın şahmat məktəbi formalaşmağa başlamışdır. Dünya çempionatlarında, beynəlxalq turnirlərdə şahmatçılarımızın qələbələri respublika şahmatsevərlərinin sayının artmasına, müvafiq məşqçi kadrların yetişməsinə təkan vermişdir. Bu inkişafın bəhrələri özünü xüsusilə müstəqillik dövründə göstərmişdir.

İndi Azərbaycan öz şahmatçılarının uğurları ilə haqlı olaraq fəxr edə bilər. Hazırda respublikada fəaliyyət göstərən 62 uşaq-gənclər şahmat məktəbində və həmçinin ümumtəhsil məktəblərində 40 minə yaxın uşaq və yeniyetmə şahmatla məşğul olur. Müstəqilliyini bərpa edənədək Azərbaycanda beynəlxalq ada sahib cəmi 5 şahmatçı olduğu halda, hazırda 15 beynəlxalq qrossmeyster, 18 beynəlxalq usta, 9 FİDE ustası və 6 beynəlxalq dərəcəli hakim vardır. Son 15 il ərzində şahmatçılarımız müxtəlif beynəlxalq yarışlarda, Dünya və Avropa çempionatlarında vətənimizi layiqincə təmsil edərək yüksək nəticələrə nail olmuş, 72 medal, o cümlədən 24 qızıl medal qazanmışlar.

"Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 dekabr tarixli sərəncamı şahmata göstərilən yüksək diqqətin təzahürü olmuş və şahmatçılarımızın beynəlxalq yarışlarda yeni qələbələr qazanmalarına zəmin yaratmışdır. 2002-ci ildə Avropa çempionatının Bakıda, 2003-cü ildə gənclər arasında Dünya çempionatının Naxçıvanda keçirilməsi isə Azərbaycanda şahmatın beynəlxalq miqyasda etirafı kimi qiymətləndirilmişdir.

Azərbaycan Respublikasında şahmat sahəsində mövcud potensialı

və şahmatçılarımızın beynəlxalq yarışlarda uğurlarını nəzərə alaraq, respublikada şahmatın daha da inkişaf etdirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birlikdə, Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi və Azərbaycan Şahmat Federasiyasının təklifləri nəzərə alınmaqla, "2008-2013-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi" Dövlət Proqramının layihəsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 27 aprel 2007-ci il.

## Bakı şəhərinin XXXI yay Olimpiya və XV Paralimpiya oyunlarını keçirmək üçün namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üzrə təşkilat komitəsinin yaradılması barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Olimpiya oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən möhtəşəm və mühüm idman tədbiridir. Müasir dövrdə hər bir dövlətin Olimpiya hərəkatındakı iştirakı, onu təmsil edən idmançıların Olimpiya oyunlarında göstərdikləri nəticələr respublikanın təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir.

İdman sahəsində həyata keçirilən dövlət siyasətinin daha da güclənməsi, Olimpiya hərəkatının genişlənməsi, idman və bədən tərbiyəsinin tərəqqisi, daha geniş coğrafi məkanda təbliği məqsədi ilə Bakı şəhəri-

nin XXXI yay Olimpiya və XV Paralimpiya oyunlarını keçirmək üçün namizədliyi irəli sürülmüşdür. Bu cür mötəbər yarışların Azərbaycanın paytaxtında keçirilməsi ölkənin dünya idman aləmində nüfuzunun artmasına şərait yaradacaqdır.

Bakı şəhərinin XXXI yay Olimpiya və XV Paralimpiya oyunlarını keçirmək üçün namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Bakı şəhərinin XXXI yay Olimpiya və XV Paralimpiya oyunlarını keçirmək üçün namizədliyinin dəstəklənməsi məqsədi ilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Təşkilat Komitəsinin üzvləri**

Hacıbala Abutalıbov - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Füzuli Ələkbərov - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

İsmət Abbasov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri

Arif Vəliyev - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri

Kərəm Həsənov - Azərbaycan Respublikası Dövlət Əmlakının İda-

rə Edilməsi üzrə Dövlət Komitəsinin sədri

Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

Cahangir Əsgərov - Azərbaycan Hava Yolları Dövlət Konserninin baş direktoru

Rövnəq Abdullayev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Arif Alışanov - "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri

İlqar Rəhimov - Azərbaycan Respublikası Paralimpiya Komitəsinin prezidenti

Ağacan Abiyev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibi

Çingiz Hüseynzadə - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Xəzər İsayev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Elman Rüstəmov - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri

Cahangir Hacıyev - Azərbaycan Respublikası Beynəlxalq Bankının İdarə Heyətinin sədri

Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri

Firəngiz Əlizadə - Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Fərhad Xəlilov - Azərbaycan Rəssamlar İttifaqının sədri

Fərid Mansurov - Olimpiya çempionu

Namiq Abdullayev - Olimpiya çempionu

Zemfira Meftəhətdinova - Olimpiya çempionu

İlham Mədətov - Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri (məsul katib)

**2.** Təşkilat Komitəsinə tapşırılsın ki, Bakı şəhərinin 2016-cı il XXXI yay Olimpiya və XV Paralimpiya oyunlarını təşkil etmək üçün namizəd şəhər kimi irəli sürülməsi ilə bağlı bütün məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinə tapşırılsın ki, namizəd şəhərin Olimpiya oyunlarını keçirmək üçün namizədliyinin qəbul edilməsi proseduruna uyğun olaraq,

Beynəlxalq Olimpiya Komitəsinə təqdim etmək üçün, Təşkilat Komitəsi ilə razılaşdırmaqla, sifariş kitabını hazırlasınlar.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**5.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 sentyabr 2007-ci il.

## Mişel Fransua Platininin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan futbolunun inkişaf etdirilməsində və onun beynəlxalq əlaqələrinin genişləndirilməsində xidmətlərinə görə Avropa Futbol Assosiasiyaları İttifaqının prezidenti Mişel Fransua Platini "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 oktyabr 2007-ci il.

## Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvləri və əməkdaşlarının təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında Olimpiya hərəkatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Hüseynzadə Çingiz Muxtar oğlu
Qarayev Faiq Əli oğlu

**"Tərəqqi" medalı ilə**

Abdullayeva Svetlana Alimovna
Gəncəli Elmira Ravilyevna
Rəhimov Mirkamil Pirəli oğlu
Rəhimov Nazir Həzrətqulu oğlu
Rəhmanov Cəmaləddin Ələm oğlu
Şamilov Çingiz Qasım oğlu

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 oktyabr 2007-ci il.

# Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvləri və əməkdaşlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında Olimpiya hərəkatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Əhmədov Fikrət Eyyub oğlu
Məlik-Yeqanov Rafael Bəhram oğlu
Ryabov Yuri İvanoviç

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 oktyabr 2007-ci il.

## Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvləri və əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adlarının verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında Olimpiya oyunlarına hazırlıq işlərində səmərəli fəaliyyətlərinə, habelə idman təhsili və jurnalistikasının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi”**

Behbudov Rafiq Qəmbər oğlu
İsayev Xəzər Ağəli oğlu
Quliyev Çingiz Mikayıl oğlu
Novruzov Sucaxan Müseyib oğlu

**“Azərbaycan Respublikasının Əməkdar müəllimi”**

Muradov Rasim Sədrəddin oğlu

**“Azərbaycan Respublikasının Əməkdar jurnalisti”**

Fərzəliyev Murad Qoçu oğlu

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 oktyabr 2007-ci il.

## A.Q.Abiyevə "Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi" fəxri adının verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə Ağacan Qulam oğlu Abiyevə "Azərbaycan Respublikasının əməkdar elm xadimi" fəxri adı verilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 noyabr 2007-ci il.

## Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün məbləğinin artırılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**1.** "Azərbaycanın Olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 oktyabr tarixli 798 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il №10, maddə 594, 2006-cı il, №5, maddə 403) 1-ci bəndi ilə müəyyən edilmiş xüsusi Olimpiya təqaüdünün məbləği 50 faiz artırılaraq, həmin bənddə "beş yüz" sözləri "yeddi yüz əlli" sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 18 yanvar 2008-ci il.

## Azərbaycanda Olimpiya Hərəkatı və İdman Muzeyinin yaradılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Qədim və zəngin tarixə malik Azərbaycan idmanı xalq mədəniyyətinin ayrılmaz hissəsini təşkil edərək, milli-mədəni irsimizin çox sayda abidələrində öz əksini tapmışdır. Qobustan qayaüstü rəsmlərindəki təsvirlərdə, Dədə Qorqud dastanlarında və digər folklor mənbələrində fiziki kamillik və sağlam həyat tərzi ilə yanaşı, milli oyunların və idmanın uzaq keçmişindən xəbər verən qəhrəmanlıq nümunələri tərənnüm olunur. Orta əsrlərdə Azərbaycanın Xəqani Şirvani və Nizami Gəncəvi kimi görkəmli söz ustalarının əsərlərində o dövrün geniş yayılmış atçapma, qılıncoynatma, oxatma, güləş, şahmat, daşqaldırma, sürpapaq və çövkən kimi xalq oyunlarından ətraflı bəhs edilir. Tarixən Azərbaycanın bölgələrində qədim idman oyunları və yarışlarının keçirildiyi zorxanalarda ən güclü pəhləvanlar yetişmiş, məhz onların sayəsində güləş ənənələri nəsildən-nəslə ötürülərək dövrümüzədək gəlib çatmışdır. Ötən əsrin əvvəllərində pəhləvanlarımızdan Sali Süleyman və Rəşid Yusifovun adları geniş şöhrət tapmışdır.

XIX əsrin ortalarından etibarən Bakıda neft sənayesinin misli görünməmiş yüksəlişi nəticəsində başlanan iqtisadi dirçəliş ölkəmizdə həm də idmanın bütün sahələr üzrə inkişafına və yeni idman növlərinin yayılmasına gətirib çıxarmışdır. XX əsrin əvvəllərində Azərbaycanda artıq İdman Təşkilatları və Cəmiyyətləri yaradılmış, ilk rəsmi şəhər birincilikləri və digər yarışların keçirilməsinə başlanılmışdır. Həmin vaxtdan respublikanın digər rayon və şəhərlərində də müxtəlif idman növləri üzrə bölmə və klublar təşkil olunmuş, əhalinin bədən tərbiyəsi və idmanla məşğul olması üçün idman-sağlamlıq mərkəzlərinin qurulması istiqamətində işlər aparılmışdır. Ölkəmizdə idmanın maddi-texniki bazasının yaradılması sahəsində ötən əsrin 70-ci illərində həyata keçirilən məqsədyönlü işlərin nəticəsində şəhər və rayonlarımızda idman məktəbləri açılmış, ənənəvi idman növləri ilə yanaşı, idmanın başqa növləri də inkişaf etməyə başlamış, bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olanların sayı xeyli artmışdır.

Sovetlər İttifaqının Beynəlxalq Olimpiya hərəkatına 1952-ci ildə qoşulması ilə Azərbaycan idmanı daha da inkişaf etməyə başlamışdır. Həmin ildən etibarən idmançılarımız SSRİ yığma komandasının tərkibində 9 Olimpiadada iştirak edərək, yüksək nəticələr göstərmiş və 10 qızıl, 11 gümüş, 7 bürünc medal qazanmışlar.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, 1992-ci ildə Milli Olimpiya Komitəsi təsis olunmuş və idmançılarımız Olimpiya oyunlarında, habelə rəsmi beynəlxalq yarışlarda ölkəmizin bayrağı altında çıxış etməyə başlayaraq, onun idman şərəfini layiqincə qorumuşlar. Olimpiyaçılarımız həmin il Barselona Olimpiadasında Müstəqil Dövlətlər Birliyinin yığma komandası tərkibində çıxış etmiş və iki qızıl medal qazanmışlar. Azərbaycan müstəqil dövlət kimi Beynəlxalq olimpiya hərəkatına qoşulduqdan sonra Atlanta, Sidney və Afina Yay Olimpiya Oyunlarında 3 qızıl, 1 gümüş və 5 bürünc medala layiq görülmüş, Naqano və Solt Leyk Siti Qış Olimpiya Oyunlarında isə iştirak etmişdir.

1994-cü ildə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaradılması ilə idman sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bölgələrdə onun inkişafına diqqət artırılmış, idmançılarımızın beynəlxalq əlaqələri geniş vüsət almışdır. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə 2000-2007-ci illərdə Bakı şəhərində və respublikamızın regionlarında 13 olimpiya mərkəzinin inşa olunması bu proseslərə qüvvətli təkan vermişdir. 2008-2009-cu illər ərzində isə daha 23 Olimpiya kompleksi tikiləcəkdir.

Respublikamızın son illər artan potensialı nəticəsində beynəlxalq idman tədbirlərinin, o cümlədən bir çox idman növü üzrə Dünya və Avropa çempionatlarının Bakı şəhərində təşkilinin ənənəvi şəkil alması Azərbaycan idmanının inkişaf səviyyəsinin parlaq göstəricisidir.

Ölkəmizdə qazanılmış idman nailiyyətlərinin nümayiş etdirilməsi ilə yanaşı, idman tarixinin öyrənilməsi və təbliği, gənc nəslə sağlam həyat tərzi vərdişlərinin aşılanması və onların milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması işi, eləcə də Olimpiya ideallarına sadiqlik Azərbaycanda Olimpiya Hərəkatı və İdman Muzeyinin yaradılmasını zəruri edir.

Azərbaycanın idman tarixinin və Olimpiya hərəkatında əldə etdiyi uğurların mədəni sərvət kimi öyrənilməsi və təbliğinin daha da güclən-

dirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Azərbaycanda Olimpiya Hərəkatı və İdman Muzeyi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi Azərbaycanda Olimpiya Hərəkatı və İdman Muzeyinin tikintisi ilə bağlı təkliflərini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 yanvar 2008-ci il.

# Paralimpiya oyunları çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdlərinin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın Olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında" 10 oktyabr 2002-ci il tarixli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycanın aşağıdakı Paralimpiya oyunları çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdləri verilsin:

Panyutin Oleq Viktoroviç

Zəkiyev İlham Əzizağa oğlu

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 fevral 2008-ci il.

## Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Bilalov Zeynidin Dolqatoviç
Müsəddiq Vaqif Məmmədəli oğlu
Rəcəbli Əhməddin İzət oğlu
Sotnikov Vitali Nikolayeviç
Taranova Yelena İvanovna
Təhməzov Sergey Mehdiyeviç

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 fevral 2008-ci il.

## Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin üzvlərinə “Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi” fəxri adının verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin aşağıdakı üzvlərinə “Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi” fəxri adı verilsin:

Kərimov Ziyadxan Əhmədxan oğlu
Süleymanov Afiq Məmməd oğlu

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 fevral 2008-ci il.

## Azərbaycan Respublikasında dövlət qulluğunda fərqlənən şəxslərin “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında uzun müddət dövlət qulluğunda səmərəli fəaliyyət göstərən Gənclər və İdman Nazirliyinin aşağıdakı əməkdaşları “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilsinlər:

Həsənov Cəbrayıl Mikayıl oğlu
Kostyunina Olqa Mixaylovna
Nəbiyev Nazim İbrahim oğlu

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 2008-ci il.

## Azərbaycan Respublikasının idman mütəxəssislərinə fəxri adların verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafında və təbliğindəki xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi”**

Ağayev Adil Həbib oğlu
Ağayev Elxan Ağabala oğlu
Bəşirov Yaşar Eyyub oğlu
Cahangirbəyov Eldar Xanlaroviç
Cəfərov Elçin Lənkəran oğlu
Cəfərov Hafiz Yusif oğlu
Əliyev Məmmədcəfər Musa oğlu
Əmirəliyev Akif Əsgərəli oğlu
Hacıyev Ramiz Məmməd Kərim oğlu
Həsənov Rafiq Binnət oğlu
İbrahimov Məmməd Süleyman oğlu
İbrahimov Siyavuş İbrahim oğlu
Quliyev Ülvi Zahid oğlu
Qurbanov Cavanşir Kazım oğlu
Mədətov Əkrəm Əliabas oğlu
Musayev Füzuli İsa oğlu
Nərimanov Elşad Əhməd oğlu
Səmədov Çingiz Oruc oğlu
Şabanov Hidayət Mikayıl oğlu
Tağıyev Ramiz Cahangir oğlu

**“Azərbaycan Respublikasının Əməkdar Jurnalisti”**

Bayramov Oqtay Nəsib oğlu
Əzimov Abas Əzim oğlu
Nuriyev Yaqub Qayıbqulu oğlu

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 2008-ci il.

# Azərbaycan Respublikasının idman mütəxəssislərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan idmanının inkişafında böyük xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

İsgəndərov Ağakişi Baxış oğlu
Kazımov Vaqif Babaş oğlu
Kərimov Sultan Əbdülhəmid oğlu
Lunyov Vladimir Terentyeviç
Məmmədov Yaşar Əziz Ağa oğlu

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 2008-ci il.

## A.S.Mircavadovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda futbolun inkişafında xüsusi xidmətlərinə görə Ağasəlim Seyidəhməd oğlu Mircavadov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 may 2008-ci il.

## Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XXIX Yay Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə **qərara alıram:**

1. XXIX Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutan hər bir idmançıya 400 min manat, onun məşqçisinə isə 200 min manat;
- ikinci yeri tutan hər bir idmançıya 200 min manat, onun məşqçisinə isə 100 min manat;
- üçüncü yeri tutan hər bir idmançıya 100 min manat, onun

məşqçisinə isə 50 min manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 iyul 2008-ci il.

## Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XIII Yay Paralimpiya Oyunlarında Azərbaycan Respublikasının əlil idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının əlil idmançılarını və onların məşqçilərini Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XIII Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə **qərara alıram:**

1. XIII Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlil idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutan hər bir idmançıya 200 min manat, onun məşqçisinə isə 100 min manat;
- ikinci yeri tutan hər bir idmançıya 100 min manat, onun məşqçisinə isə 50 min manat;
- üçüncü yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə isə 25 min manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 avqust 2008-ci il.

## Azərbaycan milli Olimpiya komandasının üzvlərinin təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

XXIX Pekin Yay Olimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə, eyni zamanda, Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**1. “Şöhrət” ordeni ilə**
Məmmədli Elnur Çingiz oğlu

**2. “Tərəqqi” medalı ilə**
Allahverdiyev Yaşar Bəxtiyar oğlu
Aratsilov Maqomedxan Suleymanoviç
Bayramov Rövşən Cənnət oğlu
Cəfərov Elçin Lənkəran oğlu
Əbilov Eldar Zöhrab oğlu
Feyzullayev Vaqif Səxavət oğlu
İmranov Şahin Səlim oğlu
Qazyumov Xetaq Ruslanoviç
Mirəliyev Mövlud Mustafa oğlu
Rəhimov Vitali Məciboviç
Skobelski Orest Zenovyeviç
Stadnik Mariya Vasilyevna
Şərifov Hicran İbrahim oğlu

**3. “Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu” ilə**
Abdullayev Nəriman Sadıx oğlu
Axundzadə Ağayar Əbdüləzim oğlu
Əlicanov Nazim Nəzir oğlu
Hacıəhmədov Hacıağa Səməd oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 avqust 2008-ci il.

## Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün məbləğinin artırılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. "Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 oktyabr tarixli 798 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №10, maddə 594; 2006-cı il, №5, maddə 403; 2008-ci il, №1, maddə 5) 1-ci bəndi ilə müəyyən edilmiş xüsusi olimpiya təqaüdünün məbləği artırılaraq, həmin bənddə "yeddi yüz əlli" sözləri "min" sözü ilə əvəz edilsin.

2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 sentyabr 2008-ci il.

## E.Ç.Məmmədliyə Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında" 2002-ci il 10 oktyabr tarixli, 798 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. XXIX Pekin Yay Olimpiya Oyunlarının çempionu Elnur Çingiz oğlu Məmmədliyə Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 sentyabr 2008-ci il.

# İ.Ə.Zəkiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafında xüsusi xidmətlərinə görə İlham Əzizağa oğlu Zəkiyev "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 dekabr 2008-ci il.

# Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" fəxri adının verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə "Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Əliyev Natiq Avil oğlu
Əsədullayev Tofiq Seyfi oğlu
İsmayılov Akif Allahyar oğlu
Sadıqov Sadıq Asəf oğlu
Zeynalov Elçin Hidayət oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 dekabr 2008-ci il.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN BƏZİ QƏRARLARI VƏ İDMANLA BAĞLI MALİYYƏ NORMATİVLƏRİ

## 1996-cı ildə Amerika Birləşmiş Ştatlarının Atlanta şəhərində keçiriləcək XXVI Yay Olimpiya Oyunlarına Azərbaycan nümayəndəliyinin hazırlığının və yarışlarda iştirakının təmin edilməsi tədbirləri haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"1996-cı ildə Amerika Birləşmiş Ştatlarının Atlanta şəhərində keçiriləcək XXVI Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 26 fevral tarixli, 162 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi:

Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) və Respublika İdman Federasiyaları ilə birlikdə 1996-cı il Yay Olimpiya Oyunlarında respublika idmançılarının iştirakı ilə əlaqədar tədbirlər planının hazırlanmasını təmin etsin;

Olimpiya Oyunları ərəfəsində Olimpiya Proqramına daxil olan idman növləri üzrə Respublika Spartakiadası keçirsin;

Respublika idmançılarının Olimpiya Oyunlarına hazırlığı ilə əlaqədar olan dayaq idman bazalarında təmir-bərpa işlərinin aparılmasına dair smeta sənədlərini hazırlayıb, bir ay müddətində Nazirlər Kabinetinə təqdim etsin;

1996-cı ilin XXVI Yay Olimpiya Oyunlarında fərqlənən idmançılara və onların məşqçilərinə birdəfəlik mükafatların və uzun müddətli müavinətlərin miqdarını müəyyənləşdirən, Azərbaycan Respublikasının Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri ilə razılaşdırılmış müvafiq normativ və qaydaları təsdiq olunmaq üçün Respublika Nazirlər Kabinetinə təqdim etsin;

Olimpiya Oyunlarında iştirak edən Azərbaycan nümayəndələri üçün mərasim geyimlərinin eskizlərini əlaqədar təşkilatlarla birlikdə müəyyən edib bir ay müddətində Olimpiya Oyunlarına hazırlıq üzrə Təşkilat Komitəsinə təqdim etsin.

**2.** Azərbaycan Respublikası Maliyyə Nazirliyi Respublika Gənclər və İdman Nazirliyinin Yay Olimpiya Oyunları ilə əlaqədar keçirdiyi təlim-məşq toplanışlarının, respublika idman nümayəndə heyətlərinin beynəlxalq yarışlarda iştirakının, həmçinin zəruri tibbi və idman ləvazimatları, nəqliyyat xərcləri, o cümlədən idman bazalarının müasir avadanlıqlarla təchiz edilməsinin təmin edilməsi məqsədi ilə tələb olunan xərcin 1995-ci ildə Respublika Gənclər və İdman Nazirliyinə idman tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilməsinin, 1996-cı ildə isə həmin məqsəd üçün tələb olunan xərcin 1996-cı il respublika büdcəsinin tərtibi zamanı nəzərə alınmasını təmin etsin.

**3.** Şəhər və rayon İcra Hakimiyyəti orqanları mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan Olimpiya Oyunlarında fərqlənmiş idmançı və məşqçilər üçün şəhər hüdudlarında mənzil ayrılmasına köməklik göstərsinlər.

**4.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Gənclər və İdman Nazirliyinin müraciətinə əsasən təlim məşq toplanışlarına cəlb edilmiş məktəbli və tələbə idmançılara olimpiyaqabağı məşqlərdə müntəzəm iştirak etmək üçün lazımi şərait yaratsın.

**5.** Azərbaycan Respublikası Xarici İşlər, Müdafiə, Daxili İşlər nazirlikləri və Respublika Hərbi Komissarlığı Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin müraciətinə əsasən beynəlxalq yarışlarda iştirak edən Azərbaycan nümayəndə heyətinin iştirakını təmin etmək məqsədi ilə lazımi köməklik göstərsinlər.

**6.** Azərbaycan Respublikası Material Ehtiyatları Nazirliyi Gənclər və İdman Nazirliyinin sifarişinə uyğun olaraq nəqliyyat və digər texniki vasitələrin əldə edilməsi üçün köməklik göstərsinlər.

**7.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyi:

Respublika yığma komandaları üzvlərinin sağlamlığına daimi tibbi nəzarəti;

1995-1996-cı illərdə Gənclər və İdman Nazirliyinə əlavəyə uyğun olaraq, tibbi və bərpaedici vasitələrin, o cümlədən, digər zəruri materialların ayrılmasını təmin etsin.

**8.** “Azərbaycan Hava Yolları” Dövlət Konserni, Azərbaycan Dəmir Yolu İdarəsi və Xəzər Dəniz Gəmiçiliyi İdarəsi Olimpiya Oyunlarında

iştirak etməyə namizəd olan respublika idman nümayəndə heyətinin beynəlxalq yarışlarda iştirakı üçün güzəştli biletlərin verilməsi ilə əlaqədar 1 ay müddətində Nazirlər Kabinetinə təklif versinlər.

**9.** Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Mingəçevir, Şəki, Zaqatala, Qax şəhər və rayon icra hakimiyyətləri orqanları Olimpiya Oyunlarına Azərbaycan idmançılarının hazırlığı dövründə təlim-məşq toplanışlarının təşkili ilə bağlı məsələlərin həllini təmin etsinlər.

**10.** Azərbaycan Respublikası Rabitə Nazirliyi əlaqədar təşkilatlarla birlikdə Azərbaycan idmançılarının XXVI Yay Olimpiya oyunlarında iştirakı mövzusuna həsr edilmiş iki növ marka buraxılmasını təmin etsin.

**11.** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Gənclər və İdman Nazirliyi ilə birlikdə XXVI Yay Olimpiya günlərində Atlanta şəhərində keçirilən mədəni-kütləvi tədbirlərdə proqram üzrə çıxış etmək üçün bir qrup mədəniyyət və incəsənət xadimlərinin iştirakını təmin etsin.

**12.** Azərbaycan Respublikası İqtisadiyyat, Maliyyə, Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi Respublika Olimpiya Hərəkatının əlavə maliyyələşdirmə mənbələrinin yaradılması məqsədilə iki həftə ərzində Olimpiya Fondu və onun əsasnaməsi haqqında təklifləri Nazirlər Kabinetinə təqdim etsinlər.

**F.Quliyev,**
**Azərbaycan Respublikasının Baş naziri**
№195; 01.09.1995-ci il

# Salyan şəhər Uşaq-Gənclər Şahmat İdman məktəbinə Fikrət Əliağa oğlu Mustafayevin adının verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Vətənin azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş Fikrət Əliağa oğlu Mustafayevin adını əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

Salyan şəhər Uşaq-Gənclər Şahmat İdman məktəbinə Fikrət Əliağa oğlu Mustafayevin adının verilməsi haqqında Salyan rayon Xalq Deputatları Sovetinin Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**F.Quliyev,**
**Azərbaycan Respublikasının Baş naziri**
№196; 04.09.1995-ci il

## Gədəbəy İdman Kompleksinə Azərbaycan Milli Qəhramanı Məzahir İzzət oğlu Rüstəmovun adının verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Vətənin azadlığı və bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş Məzahir İzzət oğlu Rüstəmovun adını əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

Gədəbəy İdman Kompleksinə Azərbaycanın Milli Qəhrəmanı Məzahir İzzət oğlu Rüstəmovun adının verilməsi haqqında Gədəbəy rayon İcra Hakimiyyətinin Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**F.Quliyev,**
**Azərbaycan Respublikasının Baş naziri**
№076; 15.01.1996-cı il

## Mingəçevir şəhər stadionuna Yaşar Çələbi oğlu Məmmədzadənin adının verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Vətənin azadlığı və bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş Yaşar Çələbi oğlu Məmmədzadənin adını əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

Mingəçevir şəhər stadionuna Yaşar Çələbi oğlu Məmmədzadənin adının verilməsi haqqında Mingəçevir şəhər İcra Hakimiyyətinin Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**F.Quliyev,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 028; 15.03.1996-cı il

## Böyük Qafqaz sıra dağlarındakı adsız yüksəkliyə "Heydər zirvəsi" adı verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əlirza oğlu Əliyevin 75 illik yubileyinə həsr olunmuş alpinizm yürüşü zamanı fəth olunmuş Böyük Qafqaz dağlarının Qızılqaya silsiləsində yerləşən 3758,6 m hündürlüyündəki adsız yüksəkliyə "Heydər zirvəsi" adı vermək haqqında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikası Dövlət Geodeziya və Xəritəçəkmə Komitəsinin Azərbaycan Respublikası Elmlər Akademiyası ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 224; 18.11.1998-ci il

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına çevirilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına çevirilməsi haqqında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təklifi qəbul edilsin.

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 042, 23.03.1999-ci il

## XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

XXVII Yay Olimpiya Oyunlarına hazırlıq üzrə Təşkilat Komitəsinin təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Gənclər və İdman Nazirliyinə tapşırılsın ki:

Milli Olimpiya Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Təhsil Nazirliyi, idman növləri üzrə respublika federasiyaları ilə birlikdə Olimpiya Oyunlarına hazırlıq dövründə respublikada Olimpiya Oyunlarına həsr edilmiş spartakiadaların təşkilini və keçirilməsini təmin etsin;

Aidiyyəti rayon (şəhər) icra hakimiyyətləri orqanları, nazirlik və təşkilatlarla birlikdə Olimpiya Oyunlarına hazırlıqla əlaqədar təlim-məşq prosesi keçiriləcək əsas idman bazaları və qurğularında lazımi şərait yaradılmasını təmin etsin.

**2.** Olimpiya Oyunlarında iştirakı namizəd kimi təsdiq olunmuş idmançılar və onların məşqçiləri iştirakçılar seçilən müddətə kimi Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılar və onların məşqçiləri isə Olimpiya dövrünün sonuna kimi xüsusi təqaüdlərlə təmin etmək məqsədilə Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi Maliyyə Nazirliyi ilə birlikdə bu təqaüd normalarının müəyyənləşdirilməsi barədə Nazirlər Kabinetinə təkliflər təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsinin birlikdə təqdim etdiyi milli yığma komandaların XXVII Yay Olimpiya Oyunlarına hazırlığı məqsədilə təlim-məşq toplantılarının keçirilməsi və rəsmi beynəlxalq yarışlarda iştirakı üçün müvafiq qaydada təsdiq olunmuş tədbirlərin Gənclər və İdman Nazirliyinə respublika büdcəsində "Bədən tərbiyəsi və idman tədbirləri" bölməsində nəzərdə tutulan təsisat hesabına maliyyələşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

Olimpiya Oyunlarına namizədlərin hazırlığı işini xüsusi tibbi nəza-

rətdə saxlasın;

Onları hazırlıq planlarına uyğun olaraq xüsusi vitaminlər, formakoloji preparatlar və bərpaedici vasitələrlə təmin etsin;

Respublika Tibbi Bədən Tərbiyəsi Dispanserinin sifarişinə əsasən onlara müasir tipli tibbi cihaz və avadanlıqların ayrılmasını təmin etsin.

**5.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi və Xarici İşlər Nazirliyi, Respublika Hərbi Komissarlığı Olimpiya Oyunlarına hazırlıq dövründə respublika yığma komandalarının beynəlxalq yarışlarda təqdim olunan təqvimə müvafiq olaraq iştirakını təmin etmək üçün lazımi köməklik göstərsinlər.

**6.** Azərbaycan Respublikasının Rabitə Nazirliyi:

Olimpiya Oyunlarına hazırlıq üzrə respublika Qərargahının və Olimpiya idman bazalarının lazımi rabitə sistemi ilə təchiz olunmasını təmin etsin;

Əlaqədar təşkilatlarla birlikdə Azərbaycan idmançılarının Olimpiya Oyunlarında iştirakı mövzusuna həsr edilmiş iki növ poçt markası buraxılmasını təmin etsin.

**7.** Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi, AzərTAC, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti Gənclər və İdman Nazirliyi ilə birlikdə Olimpiya Oyunlarına hazırlıq dövründə respublika idmançılarının beynəlxalq yarışlarda, Qitə və Dünya çempionatlarında çıxışları haqqında verilişlər verilməsini, XXVII Yay Olimpiya Oyunlarına respublika idmançılarının hazırlığı və iştirakının mütəmadi olaraq mətbuat orqanlarında və teleradio verilişlərində geniş şərh edilməsini, radio və televiziya verilişlərində Olimpiya Oyunlarına həsr edilmiş xüsusi proqram hazırlayıb münasib vaxtda efirə verilməsini təmin etsinlər.

**8.** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Rəssamlar İttifaqı ilə birlikdə Olimpiya Oyunlarına həsr olunmuş rəsm müsabiqəsi keçirsin.

**9.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 077; 10.05.1999-cu il

## Respublika Olimpiya Ehtiyat Məktəbinin statusunun dəyişdirilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Respublika Olimpiya Ehtiyat Məktəbinin Respublika Olimpiya İdman Litseyi adlandırılması barədə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 046; 15.03.2000-ci il

# Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin təqdim olunmuş cədvələ müvafiq olaraq mükafatlandırılması barədə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin (əlavə olunur).

**2.** Qeyri-olimpiya proqramı üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında yüksək nəticələr göstərmiş idmançılar və onların məşqçilərinin mükafatlandırılması Gənclər və İdman Nazirliyinin daxili imkanları hesabına həyata keçirilsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, mükafatların respublika büdcəsində “Bədən tərbiyəsi və İdman” bölməsi üzrə nəzərdə tutulan vəsait hesabına ödənilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli 174 nömrəli qərarı öz qüvvəsini itirmiş hesab edilsin.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 057; 24.03.2000-ci il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 24 mart tarixli 57 nömrəli qərarı ilə təsdiq edilmişdir*

**Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar**

| № | Yarışın növü | Mükafatın məbləği (ABŞ dolları ilə) tutduğu yer | | |
|---|---|---|---|---|
| | | I | II | III |
| **1.** | **Olimpiya oyunları** | | | |
| | idmançı | 25000 | 10000 | 5000 |
| | məşqçi | 10000 | 5000 | 3000 |
| **2.** | **Dünya çempionatı** | | | |
| | idmançı | 10000 | 5000 | 3000 |
| | məşqçi | 5000 | 3000 | 1000 |
| **3.** | **Avropa çempionatı** | | | |
| | idmançı | 5000 | 3000 | 1000 |
| | məşqçi | 3000 | 1000 | 500 |
| **4.** | **Dünya və ya Avropa kuboku (ümumi hesabda)** | | | |
| | komandanın idmançıları | 24000 | 12000 | 8000 |
| | komandanın məşqçiləri | 10000 | 5000 | 3000 |
| **5.** | **Dünya kuboku final yarışı (fərdi)** | | | |
| | idmançı | 7000 | 4000 | 2000 |
| | məşqçi | 4000 | 2000 | 1000 |
| **6.** | **Avropa kuboku final yarışı (fərdi)** | | | |
| | idmançı | 4000 | 2000 | 1000 |
| | məşqçi | 2000 | 1000 | 500 |
| **7.** | **Dünya birinciliyi (gənclər)** | | | |
| | idmançı | 1600 | 800 | 400 |
| | məşqçi | 800 | 400 | 200 |
| **8.** | **Dünya birinciliyi /yeniyetmələr/** | | | |
| | idmançı | 750 | 375 | 125 |
| | məşqçi | 350 | 250 | 50 |
| **9.** | **Avropa birinciliyi (gənclər)** | | | |
| | idmançı | 1200 | 800 | 400 |
| | məşqçi | 600 | 400 | 200 |
| **10.** | **Avropa birinciliyi (yeniyetmələr)** | | | |
| | idmançı | 500 | 250 | 125 |
| | məşqçi | 250 | 125 | 50 |

# Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydalarının təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 dekabr tarixli, 47 nömrəli Fərmanının 2-ci bəndinin 2-ci abzasının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təqdim edilmiş və aidiyyəti təşkilatlarla razılaşdırılmış "Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 103; 19.06.2000-ci il

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*19 iyun 2000-ci il tarixli,*
*103 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi

## QAYDALARI

**Ümumi müddəalar**

Azərbaycan Respublikasında mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən vətəndaşların sağlamlığına ziyan dəyməsi hallarının mövcudluğu və aradan qaldırılması onlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydalarının tətbiq edilməsi ilə tənzimlənir.

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Azərbaycan Respublikasının "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında", "Bədən Tərbiyəsi və İdman haqqında" Qanunlarına və digər normativ-hüquqi aktlarına əsasən həyata keçirilir.

Bu Qaydalar Azərbaycan Respublikasında mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən vətəndaşların sağlamlığına zərər dəyməsi səbəblərinin aradan qaldırılması, zərər çəkmiş idmançılara tibbi, sosial və peşə reabilitasiyası, ictimai həyatın bütün sahələrində bərabər imkanların yaradılmasına, onların öz fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq surətdə dolğun həyat yaşamaları üçün lazımi şərait yaradır.

**Tibbi, sosial və peşə reabilitasiyası ilə bağlı tələbatın müəyyənləşdirilməsi**

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş və əlil hesab edilən vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsinə tələbatın olması idmançı-

nın peşə və məişət fəaliyyətinə yararlılıq səviyyəsi nəzərə alınmaqla Tibbi-Sosial Ekspert Komissiyasının rəyinə əsasən müəyyən edilir. Əlilin reabilitasiyası ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan tibbi, sosial və peşə bərpa tədbirləri Fərdi Bərpa Proqramında (FBP) təsbit olunur.

Vətəndaşa Tibbi-Sosial Ekspert Komissiyası tərəfindən müəyyən olunmuş FBP təqdim olunduqdan sonra ona tibbi, sosial və peşə reabilitasiyası xidmətləri göstərilir.

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş, lakin əlil olmamış vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası mənsub olduğu idman yönümlü təşkilat tərəfindən hazırlanmış xüsusi bərpa proqramı əsasında həyata keçirilir.

**Tibbi reabilitasiya**

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət tibb müəssisələrinin vəsaiti hesabına ilkin diaqnostik və tibbi yardım xidmətləri pulsuz həyata keçirilir.

**Sosial reabilitasiya**

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi və sosial təminat ödənişlərinin (təqaüdlər, müavinətlər, birdəfəlik ödənclər), dərman preparatlarının, texniki və başqa vasitələrin verilməsi onlara sosial reabilitasiya sahəsində xidmətlər göstərilməsi yolu ilə həyata keçirilir.

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara göstərilməsi vacib olan tibbi və sosial yardım növləri Tibbi-Sosial Ekspert Komissiyası tərəfindən Fərdi Bərpa Proqramına uyğun olaraq müəyyən edilir.

**Peşə reabilitasiyası**

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş idmançıya ziyanın ödənilməsi və peşə reabilitasiyası şərtləri idmançı ilə onun üzvü olduğu təşkilat arasında bağlanmış müqaviləyə əsasən müəyyənləşdirilir.

# Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydasının təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 dekabr tarixli 47 nömrəli Fərmanının birinci bəndinin dördüncü abzasının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 133; 04.08.2000-ci il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 4 avqust tarixli*
*133 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

## Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydası

Sponsorluğun əsasları və qaydası bədən tərbiyəsi və idman sahəsində sponsorluq fəaliyyətinin hüquqi cəhətdən tənzimlənməsinin əsaslarını, həmçinin Azərbaycan Respublikasında idman sponsorluğunun geniş yayılması və inkişafı məqsədilə onun formalarını müəyyən edir.

Sponsorluğun əsasları və qaydası "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 dekabr tarixli 47 nömrəli Fərmanının 1-ci bəndinin 4-cü abzasına uyğun olaraq hazırlanmışdır.

**I. Ümumi müddəalar**

**1.1.** Bədən tərbiyəsi və idmanın inkişafına sponsorluq fiziki və hüquqi şəxslərin bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsində idman yönümlü təşkilatlara, müəssisə və idarələrə, həmçinin fərdi qaydada ayrı-ayrı idmançı və ya kollektivlərə köməklik göstərmək məqsədilə yaradılan əməkdaşlığın və maliyyə münasibətlərinin iş formasıdır.

**1.2.** Bədən tərbiyəsi və idmanın inkişafına sponsor yardımı aşağıda qeyd olunmuş məqsədlərlə həyata keçirilir: respublikada bədən tərbiyəsi və idman sahəsinin hərtərəfli inkişafına köməklik göstərmək; əhalini bədən tərbiyəsi və idman məşğələlərinə cəlb etmək yolu ilə onların sağlam həyat tərzinə nail olmaq; böyüməkdə olan gənc nəslin sağlamlığının qorunmasına qayğı göstərmək.

**1.3.** Fiziki və hüquqi şəxslər bədən tərbiyəsi və idmanın inkişafına sponsor fəaliyətini könüllülük prinsipi əsasında həyata keçirirlər.

**1.4.** Fiziki və hüquqi şəxslər sponsorluğun əsasları və qaydasına zidd olmayan hər hansı formasından (növündən) istifadə edərək, şəxsən yaxud müştərək olaraq azad sponsor fəaliyyətini həyata keçirmək hüququna malikdirlər.

**1.5.** Sponsor fəaliyyətinin iştirakçıları sponsor yardımı edən fiziki və hüquqi şəxslər və sponsor yardımı alan fiziki və hüquqi şəxslərdir.

İdman təşkilatları, idman federasiyaları, klubları, komandaları, ayrı-ayrı idmançılar, məşqçilər, bədən tərbiyəsi və idman sahəsində çalışan mütəxəssislər sponsor yardımı ala bilərlər.

**II. Sponsorluğun növləri**

**2.1.** Sponsorluğun əsas növlərinə aşağıdakılar aiddir:

uşaq idmanından başlayaraq idmana qeyri-kommersiya, yəni xeyriyyə məqsədləri ilə köməklik göstərilməsi;

müəyyən idman tədbirinin təşkilinə və keçirilməsinə köməklik göstərilməsi;

federasiyanın, komandanın, klubun, idmançının, məşqçinin və yaxud bədən tərbiyəsi və idman sahəsində çalışan digər mütəxəssislərin inkişafı üçün vəsait ayrılması;

idman tədbirləri, idman qurğuları və yaxud tanınmış idmançılar reklam çəkilişlərinə və digər kommersiya məqsədlərinə cəlb edildiyinə görə maliyyə vəsaitinin ayrılması.

**III. Bədən tərbiyəsi və idmana sponsor yardımı göstərilməsi prinsipləri**

**3.1.** Bədən tərbiyəsi və idman sahəsində sponsorluq fəaliyyəti aşağıda göstərilən prinsiplər üzərində qurulmalıdır:

idmanın müstəqilliyinin və mahiyyətinin qorunması şərti ilə sponsorluq fəaliyyətinin dəqiq strategiyasının, onun məqsəd və hüdudlarının müəyyən edilməsi;

sponsorluq fəaliyyətinə görə imtiyazlar və üstünlüklərin maliyyə və vergi siyasətində mövcud normativ hüquqi aktlara ciddi riayət olunmaqla dəqiq müəyyən edilməsi.

**IV. Sponsor münasibətlərinin sənədləşdirilməsi**

**4.1.** Sponsor münasibətləri ikitərəfli yaxud çoxtərəfli müqavilənin (kontraktın) imzalanması ilə rəsmiləşdirilir. Müqavilə (kontrakt) uzunmüddətli və ya konkret idman tədbiri üçün birdəfəlik ola bilər.

**4.2.** Uzunmüddətli müqavilə (kontrakt) bir ildən az olmayan və bir Olimpiya silsiləsindən çox olmayan müddətə bağlanır.

**4.3.** Müqavilədə tərəflərin bütün hüquqları və vəzifələri, kontraktın müddəti, tərəflərin hüquqi ünvanları göstərilməlidir.

**4.4.** İdman təşkilatı (federasiya, klub, komanda və s.) və ya respublikanın qabaqcıl idmançıları ilə sponsorluq edən fiziki və hüquqi şəxslər arasında uzunmüddətli müqavilənin imzalanmasından əvvəl həmin müqavilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və zəruri hallarda isə Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə razılaşdırılmalıdır.

**4.5.** Sponsor yardımının göstərilməsi üçün birdəfəlik müqavilə bir idman tədbirinin keçirilməsi məqsədilə bağlanır. Konkret idman tədbirinin keçirilməsi üçün müqavilə irimiqyaslı idman tədbirlərini və beynəlxalq turnirləri maliyyələşdirən bir neçə sponsor tərəfindən imzalana bilər.

**4.6.** Müqavilədə tədbirin təşkili və keçirilməsi üçün hər bir sponsor tərəfindən ayrılmış vəsait və tədbirdən komersiya məqsədləri üçün istifadə edən sponsorların hüquqları və imtiyazları göstərilir.

**4.7.** Sponsorların hüquq və imtiyazlarına reklam şitlərinin quraşdırılması, afişalarda, proqramlarda, biletlərdə və digər çap məhsullarında sponsor təşkilatın adının yazılması, tədbirin təşkili və keçirilməsi zamanı sponsor təşkilatın rəmzlərini əks etdirən malların satışı, sərgilərin təşkili, tədbirin "Rəsmi sponsoru" terminindən istifadə edərək sponsora öz mallarının və xidmət növlərinin reklam prospeklərini yaymaq hüquqlarını da aid etmək olar.

**4.8.** Sponsorlara (fiziki və hüquqi şəxs kimi) Azərbaycan Respublikası Qanunlarına zidd olmayan digər hüquq və imtiyazlar verilə bilər.

**V. Sponsor yardımının istifadə olunmasına nəzarət**

**5.1.** Sponsor yardımını alan fiziki və ya hüquqi şəxs sponsor vəsaitinin məqsədli istifadə olunmasının uçotunu aparır.

**5.2.** Sponsor vəsaitini alan fiziki və ya hüquqi şəxs sponsorun tələbi ilə alınmış vəsaitin istifadə olunması (xərclənməsi) haqqında hesabat təqdim etməlidir.

**5.3.** Sponsora təqdim ediləcək hesabatda keçirilmiş idman tədbirinin nəticələri, həmin tədbirə tamaşaçıların gəlişi haqqında göstəricilər, bağlanmış kontraktın bütün bəndlərinin faktiki yerinə yetirilməsi, sponsora təqdim olunmuş faktiki xidmətlər, sponsorun adının mətbuatda, reklamda, televiziya verilişlərində çəkilməsi haqqında məlumatlar öz əksini tapmalıdır.

**5.4.** Sponsorlarla uzunmüddətli kontraktların bağlanması zamanı sponsor yardımını alan fiziki və ya hüquqi şəxs maliyyə fəaliyyəti haqqında illik hesabatı təqdim etdiyi müddətdə hər il sponsora da hesabat təqdim edir.

**5.5.** Sponsor yardımı hesabına birdəfəlik kontrakt əsasında keçirilən tədbir qurtardıqdan sonra bir aydan gec olmayaraq sponsora hesabat təqdim edilməlidir.

**5.6.** Tabeliyindən asılı olmayaraq bütün idman təşkilatları bu sponsorluq əsaslarına və qaydasına riayət edirlər.

## Respublika İdman Tibb Mərkəzinin yaradılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı"nın VIII bölməsinin 2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Respublika Tibbi-Bədən Tərbiyəsi Dispanseri mövcud əmlakı ilə birlikdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyinə verilsin və onun bazasında Respublika İdman Tibb Mərkəzi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bir ay müddətində bu qərardan irəli gələn müvafiq məsələlərin həlli üçün təkliflərini təqdim etsinlər.

**3.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№146; 08.09.2001-ci il

# Uşaq-Gənclər İdman məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəblərinin Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Uşaq-Gənclər İdman məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman məktəblərinin Nümunəvi Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Abbasov,**
**Azərbaycan Respublikası Baş nazirinin birinci müavini**
№ 161; 12.10.2001-ci il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2001-ci il 12 oktyabr tarixli*
*161 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Uşaq-Gənclər İdman Məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəblərinin

## NÜMUNƏVİ ƏSASNAMƏSİ

**1. Uşaq-Gənclər İdman Məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəblərinin məqsəd və vəzifələri**

Uşaq-Gənclər İdman Məktəbləri (bundan sonra - UGİM) və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbləri (bundan sonra - İOEUGİM) məktəbdənkənar, sosial məqsədyönlü müəssisədir, öz fəaliyyətini uşaq-yeniyetmə və gənclərin ahəngdar inkişafına, bədən tərbiyəsi və idman vasitəsilə sağlamlığının və fiziki hazırlığının möhkəmləndirilməsinə, yerləşdiyi ərazidə ümumtəhsil məktəbləri ilə fiziki tərbiyə işində istiqamətləndirici rol oynamasına və respublikada yüksək səviyyəli idmançıların hazırlanmasının başlanğıc və orta mərhələlərinin əhatə edilməsinə yönəldir.

UGİM və İOEUGİM öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanı və sərəncamlarını, Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamlarını və bu Əsasnamənin rəhbər tutur.

İdman məktəbi (UGİM, İOEUGİM) hüquqi şəxsdir, möhürü, ştampı vardır, əmək hüququna malikdir, məhkəmədə və arbitrajda öz marağını müdafiə edə bilər, banklarda büdcə hesabı, digər hesablaşma hesabları və rekvizitləri ola bilər.

UGİM və İOEUGİM-nin açılması bu Əsasnaməyə müvafiq olaraq aşağıdakı şərtlərə həyata keçirilir:

- təlim-məşq prosesinin təşkili üçün özünün və yaxud icarəyə götürülmüş idman bazasının olması;
- bir idman növü üzrə minimum 14 qrupun fəaliyyətini təmin etmək üçün maliyyə vəsaitinin olması;

- açılması nəzərdə tutulmuş idman növü üzrə ixtisaslı məşqçi- müəllim kadrlarının olması.

Respublikada UGİM, İOEUGİM-nin açılması, bağlanması, həmçinin, ayrı-ayrı idman növləri üzrə bölmələrin açılması, bağlanması, dəyişdirilməsi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə razılaşdırıldıqdan sonra həyata keçirilir.

**2. İdman məktəbinin fəaliyyəti**

İdman məktəbləri tabeçiliyində olduqları təşkilatlar tərəfindən ona həvalə edilmiş idman növlərini, maddi-texniki bazasını, maliyyə vəsaitini nəzərə alaraq fəaliyyət proqramı hazırlayır və kollektivin pedaqoji şurasında təsdiq edir.

UGİM və İOEUGİM qrupları ümumtəhsil məktəbləri, texniki peşə məktəbləri, orta ixtisas və ali təhsil müəssisələrinin şagird və tələbələrindən, gənclər və hərbi qulluqçulardan komplektləşdirilir.

UGİM və İOEUGİM-ə qəbul olunanların yaş həddi və burada təlim - məşq prosesi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin hazırlıq normativlərinə əsasən müəyyən olunur və həyata keçirilir.

Təlim-məşq qrupları ibtidai hazırlıq keçmiş və ümumi fiziki hazırlıq və xüsusi idman hazırlığı üzrə qəbul normativlərinin tələblərini yerinə yetirmiş yeniyetmələrdən komplektləşdirilir.

İdman təkmilləşdirmə qrupları təlim-məşq qruplarında hazırlıq mərhələsi keçmiş və xüsusi fiziki və idman hazırlığı üzrə qəbul normativlərini yerinə yetirmiş idmançılardan komplektləşdirilir.

Yüksək idman ustalığı qrupları bundan əvvəlki hazırlıq mərhələlərini keçmiş və respublika milli yığma komandasına namizəd tələblərinə uyğun gələn idmançılardan komplektləşdirilir.

İdmançılar növbəti ilin tədris qrupuna xüsusi fiziki hazırlıq üzrə test normativ göstəricilərinə görə məşqçilər şurasının qərarı ilə keçirilir. Bir qayda olaraq həmin tələbləri yerinə yetirməyən idmançılar növbəti tədris ilinə keçirilmir. Bəzi hallarda Məşqçilər Şurasının qərarı ilə təkrar tədrisə icazə verilə bilər, lakin təkrar tədris həmin hazırlıq mərhələsində bir dəfədən çox olmamalıdır.

Müəyyən olunmuş yaşa çatmayan, lakin əvvəlki tədris ilinin normativ tələblərini yerinə yetirmiş ayrı-ayrı şagirdlər həkimin razılığı və pedaqoji şuranın qərarı ilə vaxtından əvvəl növbəti tədris ilinə keçirilə bilər.

İdman məktəblərində idman üzrə məşqçi-müəllimlərin illik dərs yükü qanunvericiliyə uyğun olaraq hər il sentyabr ayının 1-də məktəbin rəhbərliyi tərəfindən təsdiq edilir.

İdman məktəblərinə qəbul hər il sentyabr-oktyabr aylarında həyata keçirilir. Bu zaman qəbul olunanın ərizəsi, sağlamlıq haqqında tibbi arayışı (ibtidai hazırlıq qruplarına yerli poliklinikadan, tədris-məşq qruplarına Respublika İdman Tibb Mərkəzindən) təqdim edilməlidir.

Bütün hazırlıq mərhələlərini keçmiş və buraxılış normativlərini ödəmiş şagirdlər idman məktəbini bitirmiş hesab olunurlar.

UGİM və İOEUGİM-in məzmunlarına idmançı vəsiqəsi verilir. Şagirdlərin qəbulu və buraxılışı idman məktəbi direktorunun əmri ilə rəsmiləşdirilir.

İOEUGİM- in yetirmələri idman ustalığını artırmaq üçün müqavilə əsasında idman təmayüllü internat məktəbinə, Yüksək İdman Ustalığı Məktəbinə, idman oyun növləri üzrə ustalardan ibarət komandalara göndərilə bilər. Bu halda idmançılar UGİM qruplarının say tərkibinə daxil olmur, lakin həmin məktəbin komandasında yarışlarda çıxış edə bilərlər. Qrupu doldurmaq üçün əvvəlki tədris ilindən olan idmançılar ora qəbul edilə bilər. Bu halda təlim-məşq rejimi və qrupun say tərkibi olimpiya dövrünün axırına kimi saxlanılır, rəhbər işçilərin və mütəxəssislərin əmək haqqının ödənilməsi həmin məktəblərin nomenklaturasında qalır.

## 3. UGİM və İOEUGİM işçilərinin tərkibi və say normativləri

### I kateqoriya 40 qrupdan yuxarı

Direktor . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Dərs hissə müdiri . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Baş təlimatçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Təlimatçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3 nəfər
Mühasib . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Həkim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 2 nəfər
Tibb bacısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 2 nəfər
Makinaçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər

**II kateqoriya 30 qrupdan - 40 qrupa kimi**

Direktor . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Dərs hissə müdiri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Baş təlimatçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Təlimatçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Mühasib . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Həkim . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Tibb bacısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Makinaçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər

**III kateqoriya 14 qrupdan - 30 qrupa kimi**

Direktor . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər
Təlimatçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1 nəfər

Fəaliyyət xüsusiyyətini nəzərə alaraq təlim-məşq prosesinin səmərəliyini təmin etmək məqsədilə, UGİM, İOEUGİM-in ixtisaslaşdırılmış avtonəqliyyat növləri: avtobuslar, qayıq, silah, atdaşıyan maşınlar, velosipedləri daşıyan, idman yerişi idmançılarını uzaq məsafəyə müşayiət etmək üçün xüsusi avtonəqliyyat, üzgüçülük vasitələri olan motorlu qayıqlar, katerlər və başqa nəqliyyat vasitələri olmalıdır.

Nəzdində 40 və daha artıq qrupları olan UGİM, İOEUGİM-lərə bu Əsasnamədə göstərilmiş ştatlardan əlavə olaraq təlimatçı, həkim və tibb bacısı ştatı verilə bilər. UGİM və İOEUGİM-in özünün binası, idman qurğusu, stadionu, idman zalları, xüsusi idman texnikası: avtonəqliyyat, idman qayıqları, katerləri, atdaşıyan avtomobilləri, velosipedləri, gimnastika ləvazimatı, atıcılıq üçün silah və başqa texnika və s. qurğu, texniki ləvazimat olduğu üçün onlara texniki xidmət göstərilməsi və təmir işlərinin aparılması məqsədilə respublikada qəbul edilmiş normalara uyğun olaraq bu məktəblərə aşağıdakı ştatlar ayrılır:

1. Təsərrüfat üzrə rəhbərin müavini
2. Anbardar
3. Qarderobçu
4. Baytar
5. Nalbənd
6. Bağban
7. Avtomobil sürücüsü
8. Texniki idman növləri üzrə mexanik

9. At təlimçisi
10. Mehtər
11. At treninqi fəhləsi
12. Gözətçi
13. Ocaqçı
14. Təlimçi-çilingər
15. Yardımçı fəhlə
16. İdman silahının (qurğularının) təmirçisi
17. İdman qaydalarının (gəmilərinin) təmirçisi
18. İstehsalat sahəsini və xidmət otaqlarını yığışdıran
19. Kimyəvi sutəmizləmə operatoru
20. Elektrik avadanlıqlarının təmiri və xidməti üzrə elektrik montyoru

**4. İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Məktəbi**

İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi gənc idmançıların hazırlanmasında yüksək iş səviyyəsinə nail olmuş müvafiq UGİM-in əsasında yaradılır. UGİM-in İOEUGİM-ə keçməsi üçün idman növü üzrə hər şöbədə iki idman təkmilləşmə qrupunun olması vacibdir. Belə olduqda idman növü üzrə şöbə ixtisaslaşdırılmış sayılır və məktəbin rəhbər işçilərinin və idman növü üzrə məşqçilərin vəzifə maaşına 15% əlavə edilir.

İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin əsas vəzifəsi respublikanın milli yığma komandalarına və oyun idman növləri üzrə ustalardan ibarət komandalarına yüksək dərəcəli idmançılar hazırlamaqdır. İOEUGİM-in tərkibini təlim-məşq qrupları, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təsdiq edilmiş yüksək idman ustalığı qrupları təşkil edir.

Ayrı-ayrı hallarda həmin idman növü üzrə UGİM olmayan yerdə İOEUGİM ibtidai hazırlıq qrupları saxlamağa icazə verilə bilər.

İbtidai hazırlıq qruplarının sayını İOEUGİM-in mənsub olduğu təşkilat müəyyən edir.

Olimpiya dövrü qurtardıqdan sonra əvvəlki illərin nəticələrinə görə İOEUGİM şəbəkəsi müəyyən olunmuş qaydada yenidən təsdiq edilir.

Milli yığma komandalara namizədlər və ehtiyat idmançıların hazırlanması işində göstəricilər aşağı düşdükdə tabeçiliyində olduğu təşkila-

tın qərarı və Gənclər və İdman Nazirliyinin razılığı ilə İOEUGİM, UGİM üçün nəzərdə tutulmuş əmək haqqı rejiminə keçirilir. Ölkənin ehtiyat idmançılar hazırlanması işi yaxşılaşdıqda, həmin məktəb yenidən ümumi əsaslarla İOEUGİM nomenklaturasına qayıda bilər. Qeyd edilən statusun verilməsi haqqında qərar Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə razılaşdırdıqdan sonra məktəbin pedaqoci şurası tərəfindən qəbul edilir.

**5. UGİM, İOEUGİM-də tədris qruplarının komplektləşdirilməsi və təlim-məşq işinin rejimi**

Tədris qruplarının komplektləşdirilməsinin əsasını idman ustalığının formalaşması, yaş qanunauyğunluğunu nəzərə almaqla çoxillik hazırlığın elmi cəhətdən əsaslandırılmış sistemi təşkil edir.

Həftəlik təlim-məşq yükünün artırılması və şagirdlərin növbəti tədris qrupuna keçirilməsi məşqetmə stajından, ümumi və xüsusi hazırlıq üzrə yoxlama normativlərinin yerinə yetirilməsi səviyyəsindən asılıdır.

Müəyyən olunmuş həftəlik təlim-məşq yükü maksimum yükdür. İdman növünün xüsusi təyinatından və hazırlıq mərhələsində (keçid, hazırlıq, yarış) asılı olaraq üçüncü tədris ilinin təlim-məşq qruplarından başlayaraq həftəlik təlim-məşq yükü həmin qrup üçün müəyyən olunmuş ümumi plan həddində (2 saatdan çox olmamaqla) artırıla, yaxud azaldıla bilər.

İdman növünün xüsusiyyətini və məktəbin imkanlarını nəzərə alaraq qruplardakı şagirdlərin minimum say tərkibi artırıla bilər.

52 həftəlik təlim - məşq proqramının 46 həftəsi əsas stasionar bazada, 6 həftəsi sağlamlıq-idman düşərgələrində məşq və fəal istirahət üçün nəzərdə tutulur.

Təlim-məşq prosesinin əsas formaları qrup halında keçirilir. İdman təkmilləşməsi və idman ustalığı qruplarının məşq prosesi (fərdi planlar da daxil olmaqla) təlim-məşq, nəzəri məşğələlər, tibbi bərpa, yarışlarda və təlim-məşq toplanışlarında iştirak etməklə həyata keçirilir.

Hər məşğələ üçün maliyyə xərci ayrılarkən tədris saatı müasir beşnövçülük üzrə 2,5 dəfə, idman və bədii gimnastika, fiqurlu konkisürmə, suya tullanma, akrobatika, sinxron üzgüçülük, su xizəyi üzrə 2 dəfə, yüngül atletika onnövçülüyü, beşnövçülük və at idmanı üzrə 1,5 dəfə artırılmaqla məşqçilərin əmək haqqı proqramına daxil olan növlər üzrə

ödənilməlidir.

İdman gimnastikası və bədii gimnastika, konkisürmə bölmələrində təlim-məşq saatlarının 70 faizi musiqi ilə keçirilir. Akrobatika batutda tullanma bölmələrində tullanma bölmələrində musiqi müşayiətçisinin maaşı tədris planı üzrə və xoreoqrafiyaya ayrılmış ümumi saatların sayı hesabına verilir. İdman məktəbləri şagirdlərin ilboyu tədris məşğələlərinin, qış və yay tətili dövründə isə fəal istirahətinin təmin edilməsi üçün sağlamlıq idman düşərgələri təşkil edirlər. Uşaq-Gənclər məktəbləri üçün sağlamlıq idman düşərgələri müəyyən olunmuş qaydada sağlamlıq idman düşərgələri haqqında Əsasnaməyə müvafiq olaraq yaradılır və özünün fəaliyyətini həmin Əsasnaməyə uyğun həyata keçirilir.

Rəsmi yarışlarda iştirak etməyə buraxılış komandaları və idmançıları hazırlamaq üçün UGİM və İOEUGİM-lər təlim-məşq işinə ayrılmış vəsaitdən kənara çıxmadan respublika yarışları ərəfəsində 15 günə qədər, beynəlxalq yarışlar ərəfəsində 20 günə qədər təlim-məşq toplanışı keçirə bilərlər.

**6. İdman məktəbinin idarə olunması**

UGİM və İOEUGİM-ə bədən tərbiyəsi təhsili, uşaq və yeniyetmələrlə 5 il iş təcrübəsi olan mütəxəssislərdən təyin olunmuş direktor başçılıq edir. O, məktəbin fəaliyyətinin bütün istiqaməti üzrə işin təşkilinə məsuliyyət daşıyır.

Pedaqoji şura ilə birgə direktor məktəbin inkişafı üzrə əsas istiqaməti müəyyənləşdirir, onun mənafeyini dövlət və ictimai orqanlarda təmsil edir. Təsərrüfat fəaliyyəti ilə bağlı idman məktəbinin bütün məsələlərini həll edir. İdman məktəbinə ayrılan vəsaitin rasional xərclənməsini təmin edir, tarixləşmə üzrə tədris proqramlarının yerinə yetirilməsinə və təlim-məşq prosesinin səmərəliliyinə nəzarəti təşkil edir. Maddi tədris bazasının uçotunu, saxlanmasını, toplanılmasını, habelə, sanitar-gigiyena qaydalarına riayət olunmasını, əməyin mühafizəsini, təhlükəsizlik texnikası və yanğına qarşı müdafiəni təmin edir. Kadrların seçilməsini və yerləşdirilməsini həyata keçirir, əmək qanunvericiliyinə və daxili intizama əsasən işçilərin vəzifə borclarını yerinə yetirmələrinə nəzarət edir.

Direktor ölkədə bədən tərbiyəsi və idmanın istiqamətini və pers-

pektivliyini müəyyən edən normativ sənədləri, pedaqogikanın, psixologiyanın, uşaqların fiziologiyası və gigiyenasının əsaslarını bilməlidir.

İdman məktəblərinin direktoruna, tədris-hissə müdirinə, təlimatçı-metodistə öz məktəbində ayda orta hesabla bir stavkadan çox olmayaraq dərs yükü aparmağa icazə verilir.

Məktəbin məşqçi-müəllim heyəti bir qayda olaraq bədən tərbiyəsi təhsilli mütəxəssislərdən komplektləşdirilir. İbtidai hazırlıq qruplarına dərs keçmək üçün məşqçi-müəllim heyəti kifayət etmədikdə, bu işə saathesabı əmək haqqı verməklə bədən tərbiyəsi müəllimlərini, təlimatçıları və digər fiziki tərbiyə müəssisələrinin, həmçinin, bədən tərbiyəsi institutlarının müvafiq idman növləri üzrə xüsusi məşqçilik kursları keçmək tələblərini və idman ustalarını cəlb etmək olar.

İdman üzrə məşqçi-müəllimlər dərs prosesi vaxtı uşaqların təhlükəsizliyinə və sağlamlığına cavabdehdir, onlar qrupların komplektləşdirilməsinə, şagirdlərlə tərbiyə və təlim-məşq işlərinin aparılmasına, dərs proqramlarının yerinə yetirilməsinə məsuliyyət daşıyır. Onlar məşğul olanların vaxtında tibbi müayinədən keçməsinə və onlara dispanser qayğısı göstərilməsinə nəzarət edir, fərdi qabiliyyətləri nəzərə alınmaqla idman təkmilləşməsi və yüksək idman ustalığı qruplarının hər bir idmançısı üçün təlim-məşq planı hazırlayır, intizama baxır və davamiyyətə nəzarət edir, ümumi və xüsusi fiziki, texniki və idman hazırlığının müntəzəm uçotunu aparırlar.

İdman üzrə məşqçi-müəllimlər müntəzəm olaraq öz ixtisaslarını artırır, təlim-məşq, müasir metodika məsələləri üzrə konfranslarda iştirak edir, tərbiyə və təlim-məşq işlərinin təşkilində və keçirilməsində ümumtəhsil məktəblərinə və başqa təhsil müəssisələrinə metodiki kömək göstərir, nümunəvi çıxışlar və məşğələlər keçirir, təlim-məşq prosesinin təkmilləşməsi üzrə təkliflər işləyib hazırlayırlar.

İdman növləri üzrə bölmələrdə direktorun əmri ilə azı dördillik məşqçi-müəllim təcrübəsinə malik, tam dərs yükü ilə işləyən 3 məşqçi-müəllimlərdən biri baş məşqçi-müəllim təyin edilə bilər. Bu zaman iki nəfər yarımştatlı məşqçi bir saatlı məşqçi sayılır. Bu məşqçi-müəllim bütövlükdə bölməyə rəhbərlik edir, həm də ibtidai hazırlıq, təlim-məşq, idman təkmilləşməsi, yüksək idman ustalığı qruplarına, habelə, oğlan və qız bölmələrinə rəhbərlik edir. Bölmə üzrə baş məşqçi-müəllim qrupların düzgün komplektləşməsinə və dərəcəli idmançılar üçün

perspektiv planların hazırlanmasına, idman yarışlarının keçirilmə qaydalarına riayət olunmasına məsuliyyət daşıyır. İdman bölmələrinin baş məşqçilərinin əmək haqları onlar üçün təsdiq olunmuş aylıq vəzifə maaşının 15 faizi həcmində artırılır.

UGİM-də əvəzetmə ümumi qaydalara əsasən müdiriyyətin əmri ilə həyata keçirilir.

İdman məktəblərinin məşqçi-müəllim heyətinin işi aşağıdakı şərtlərlə qiymətləndirilir:

- əsasnamə tələblərinin yerinə yetirilməsi də daxil olmaqla şagirdlərin UGİM proqramını mənimsəmə səviyyəsinə, müsabiqə ilə təlim-məşq qruplarına daxil olan şagirdlərin sayına, kütləvi idman işlərinin təşkilində və keçirilməsində ümumtəhsil məktəblərinə kömək göstərilməsinə görə;
- təlim-məşq qruplarının tərkibinin sabitliyinə, ümumi və xüsusi fiziki hazırlıq üzrə normativ göstəricilərin yerinə yetirilməsinə, yarışlarda qazanılmış nəticələrə, məzunlardan ictimai təlimatçılar və idman hakimləri hazırlanmasına görə;
- idman təkmilləşməsi qruplarında məşğul olanların proqram tələblərinin yerinə yetirilməsinə, o cümlədən respublika yarışlarında göstərdiyi nəticəyə görə;
- yüksək idman hazırlığı qruplarında ölkənin yığma komandalarına (əsas və ehtiyat heyətlər) hazırlanmış namizədlərin sayına, onların beynəlxalq yarışlarda çıxışına görə.

**7. Pedaqoji şura**

UGİM və İOEUGİM-də pedaqoji şura yaradılır və onun tərkibinə direktor (şuranın sədri), tədris hissə müdiri, baş təlimatçı-metodist, təlimatçı-metodist, idman növləri üzrə baş məşqçi-müəllimlər, həkim, valideynlər komitəsinin sədri, təhsil idarələrinin, həmkarlar və digər ictimai təşkilatların nümayəndələri daxil ola bilərlər.

Pedaqoji şuranın iclasları hər rübdə azı bir dəfə keçirilir. Şura iclaslarında təlim-tərbiyə, metodiki və kütləvi idman işləri, həkim nəzarəti üzrə məsələlər müzakirə edilir.

İdman məktəblərində idman növləri üzrə Məşqçilər Şurası yaradılır. Şurada baş məşqçi-müəllimlərin rəhbərliyi altında ayda bir dəfədən az olmayaraq təlim-məşq və tərbiyə işləri, idmançıların hazırlanması-

nın fərdi planlaşdırılması, onların yarışlarda iştirakı məsələlərinə baxılır, məşqçi-müəllimlərin məşq prosesinin təkmilləşməsi üzrə təlimat və məruzələri dinlənilir, açıq məşq dərsləri keçirilir, müzakirə olunur və təcrübə mübadiləsi aparılır.

**8. Şagirdlərin hüquq və vəzifələri**

***İdmançı şagirdlərin hüquqları:***

UGİM, İOEUGİM-in şagirdləri təlim-məşq dərsləri zamanı və yarışlarda çıxış edərkən məktəbə mənsub inventardan, avadanlıqdan, idman formasından və ayaqqabıdan, məktəbə və məktəbə tabe olan təşkilata mənsub idman qurğularından istifadə etmək hüququna malikdir.

İdman nailiyyətlərinə, nümunəvi davranışlarına və ictimai həyatda fəal iştirak etdiyinə görə UGİM, İOEUGİM-in şagirdlərinin adı məktəbin "Şərəf kitabına" yazılmaqla, təşəkkür elan olunmaqla həvəsləndirilir, Fəxri Fərmanla təltif edilirlər.

Daxili nizam-intizam qaydalarını pozduğuna görə şagirdlərə pedaqoji şuranın qərarı ilə inzibati cəza (idman məktəblərindən xaric edilməyə qədər) tədbirləri tətbiq edilə bilər.

**9. Həkim nəzarəti**

İbtidai hazırlıq qruplarında həkim nəzarəti ərazi poliklinikası tərəfindən həyata keçirilir.

Təlim-məşq, idman təkmilləşməsi və yüksək idman ustalığı qruplarında məşğul olan şəxslərə həkim nəzarəti Respublika İdman Tibb Mərkəzi tərəfindən həyata keçirilir.

İdman məktəbinin həkimi təlim-məşq prosesinin və idman məktəbi yarışlarının tibbi xidmətini təmin edir, məşq yükünün həcminə və intensivliyinə nəzarət edir, idmançıların fərdi hazırlıq planlarının tərtibində və təsdiqində iştirak edir.

Hər bir məşğul olan üçün müəyyən olunmuş qaydada həkim nəzarəti vərəqəsi doldurulur və həmin vərəqələr məktəbin tibb kabinetində, ərazi poliklinikasının və ya Respublika İdman Tibb Mərkəzinin həkim nəzarəti kabinetində saxlanılır.

**10. Məktəbin sənədləri**

***İdman məktəbinin aşağıdakı sənədləri olmalıdır:***

- məktəbin direktoru tərəfindən təsdiq olunmuş illik iş planı;

- idman növləri üzrə tədris proqramı, idman tədbirlərinin illik təqvim planı (təşkilat, təsərrüfat işləri, tibb xidmətinin təminatı, valideynlərlə, ümumtəhsil məktəbləri ilə iş, habelə, məktəbdaxili nəzarətin təşkili, bölmələrin aylıq iş planı;

- tədris ili üçün təsdiq olunmuş idmançı şagirdlərin siyahısı;

- idman məktəbi işçilərinin vəzifəyə təyin və azad edilməsi, həmçinin şagirdlərin qəbulu, yerləşdirilməsi və buraxılışı üzrə əmrlər;

- idmançı şagirdlərin şəxsi vərəqəsi;

- idman növü üzrə məşqçi-müəllimlərin şəxsi vərəqəsi;

- idman məktəbinin direktoru tərəfindən təsdiq olunmuş dərs cədvəli və məşqçi-müəllimlərin tarixləşmə siyahısı;

- məşqçi-müəllimlərin idman növləri üzrə qeydiyyat jurnalı;

- idman təkmilləşməsi və yüksək idman ustalığı tədris qruplarında təlim məşğələlərinin illik planı;

- yarış protokolları, qəbul, yoxlama və buraxılış normativlərinin protokolları, onların ümumi və xüsusi fiziki və texniki hazırlıq üzrə yerinə yetirilməsinin təhlili və keçirilən sınaq tədbirlərinin qrafiki.

**11. İdman məktəbinin maliyyə-təsərrüfat fəaliyyəti**

***İdman məktəbinin maliyyə vəsaiti aşağıdakılardan ibarətdir:***

- büdcə vəsaiti və ya tabeliyində olduğu təşkilatın vəsaiti;

- əhaliyə pullu xidmətdən və ödənişli qruplardan əldə olunan gəlirlər;

- idarə, təşkilat, müəssisə, kooperativ, ayrı-ayrı şəxslərin və s. könüllü ianələri.

Bu vəsait məktəbin əsas fəaliyyəti, idman tədbirlərinin keçirilməsi və sosial inkişafı ilə bağlı məsələlərin həllinə yönəldilir.

**12. Beynəlxalq əlaqələr**

UGİM və İOEUGİM xarici dövlətlərin idman təşkilatları ilə qanunvericiliklə müəyyən olunmuş qaydada əlaqələr yaratmaq, məşqçilərin ixtisasını artırmaq üçün təcrübə mübadiləsi, yoldaşlıq matçları və görüşlər keçirmək və s. hüquqlara (ölkənin idman növləri üzrə yığma komandalarının məşq rejimini və yarış təqvimini nəzərə almaq şərti ilə) malikdir.

**13. Hesabat və uçot**

İdarə öz işinin nəticələrini, operativ və mühasibat uçotunu, statistika hesabatını aparır. İdman məktəbi hər ilin yekunları üzrə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinə və tabeliyində olduğu təşkilata "İdman-3" formalı hesabat təqdim edir.

## "Malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətinin müəyyən edilmiş minimum məbləğdən yuxarı olduqda, onun satın alınmasının açıq tender üsulu ilə aparılması haqqında", "Satınalan təşkilat tərəfindən mövcud bazarı olan və ehtimal olunan qiymətinin müəyyənləşdirilmiş minimum məbləğdən aşağı olan malların (işlərin və xidmətlərin) satın alınması üçün kotirovkalar sorğusundan istifadə edə bilməsi haqqında" və "Satınalmada yalnız yerli malgöndərənlərin (podratçıların) iştirak etdiyi və ya satın alan xidmətlərin ümumi qiymətinin müəyyənləşdirilmiş məbləğdən çox olmadığı hallar istina olmaqla, bildirişin həmçinin beynəlxalq miqyasda geniş yayılan mətbuat orqanında və internetdə dərc edilməsi haqqında"

## QAYDALAR

**1.** Bu Qaydalar "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2002-ci il tarixli 668 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən hazırlanmışdır.

**2.** Dövlət satınalmalarının həyata keçirilməsi zamanı "Malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətinin müəyyən edilmış minimum məbləğdən yuxarı olduqda, onun satın alınmasının açıq tender üsulu ilə aparılması haqqında", "Satınalan təşkilat tərəfindən mövcud bazarı olan və ehtimal olunan qiymətinin müəyyənləşdirilmiş minimum məbləğdən aşağı olan malların (işlərin və xidmətlərin) satın alınması üçün kotirovkalar sorğusundan istifadə edə bilməsi haqqında"

və “Satınalmada yalnız yerli malgöndərənlərin (podratçıların) iştirak etdiyi və ya satın alınan xidmətlərin ümumi qiymətinin müəyyənləşdirilmiş məbləğdən çox olmadığı hallar istina olmaqla, bildirişin həmçinin beynəlxalq miqyasda geniş yayılan mətbuat orqanında və internetdə dərc edilməsi haqqında” Qaydalar dövlət satınalmaları zamanı iştirakçıların hərəkətini müəyyən edir.

**3.** Açıq tender üsulu ilə malların (işlərin və xidmətlərin) satın alınması zamanı malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətinin minimum məbləği 250,0 milyon manat həcmində müəyyən edilsin.

**4.** Satınalan təşkilat mövcud bazarı olan və ehtimal olunan qiyməti bu Qaydaların 3-cü bəndi ilə müəyyənləşdirilmiş minimum məbləğdən aşağı olan malların (işlərin və xidmətlərin) satın alınması üçün kotirovkalar sorğusundan istifadə edə bilər.

Kotirovkalar sorğusu keçirilməli olan məbləğin minimum həddi aylıq vergi tutulmayan məbləğin 100 misli (10,0 milyon manat) həcmində müəyyən edilsin.

**5.** Satınalmada yalnız yerli malgöndərənlərin (podratçıların) iştirak etdiyi və ya satın alınan xidmətlərin ümumi qiymətinin məbləği 50,0 milyon manatdan çox olmadığı hallar istina olmaqla, bildiriş həmçinin beynəlxalq miqyasda geniş yayılan mətbuat orqanında və internetdə dərc edilir.

***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb. Qeydiyyat № 2899, 16 avqust 2002-ci il***

***Azərbaycan Respublikasının Maliyyə Nazirliyində təsdiq edilib. Əmr № İ-124 , 22 iyul 2002-ci il***

# Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə Qaydalarının təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanının 1-ci bəndinin 4-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 187; 26.11.2002-ci il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2002-ci il 26 noyabr tarixli*
*187 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə

## QAYDALARI

**I. Ümumi müddəalar**

Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə etməsi bu Qaydalarla tənzimlənir.

Dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərinin rəhbərləri gənclərin bədən tərbiyəsi və idmanla məşğul olması üçün şərait yaradırlar. Onlar gənclərin bədən tərbiyəsi və idman obyektlərində bədən tərbiyəsi - sağlamlıqla məşğul olması üçün idman növləri üzrə qrupların yaradılmasını təmin edirlər.

Dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərinin rəhbərliyi, təşkilatlar, müəssisələr, idarələr, idman klubları, idman cəmiyyətləri gənclərin məşğulluğu üçün ayrılan vaxtda ümumi fiziki hazırlıq, "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü, atletik və ritmik gimnastika, sağlamlıq qaçışı və yerişi, üzgüçülük, həmçinin ayrı-ayrı idman növləri üzrə fərdi və qrup məşğələlərini təşkil edirlər.

**II. Gənclərin bədən tərbiyəsi-sağlamlıq işinin təşkili**

Dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərinin rəhbərliyi gənclərin bədən tərbiyəsi-sağlamlıq qruplarında və ya fərdi məşğulluğunu təşkil etmək məqsədi ilə təlim - tədris prosesinin keçirilməsi üçün idman obyektinin avadanlıq və idman ləvazimatı ilə təchiz olunmasını təmin edir.

Dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərində gənclərin bədən tərbiyəsi - sağlamlıqla məşğulluğunun təmin olunması, onlarda sağlam həyat tərzinin aşılanması, vətənin müdafiəsinə fiziki cəhətdən hazır olması üçün qruplara cəlb olunması bədən tərbiyəsi və idman obyektinin rəhbərliyi və müəssisələr, idarələr, təşkilatlar, idman cəmiyyətləri, bədən tərbiyəsi kollektivləri tərəfindən həyata keçirilir.

Həkim müayinəsindən keçdikdən və sağlamlığı haqqında arayışı obyektin rəhbərliyinə təqdim etdikdən sonra bədən tərbiyəsi-sağlamlıq qruplarında və ya fərdi məşğul olmaq istəyən gənclərə bədən tərbiyəsi və idman obyektlərindən istifadə etməyə icazə verilir.

Bədən tərbiyəsi-sağlamlıq qrupları gənclərin cinsi, yaş həddi, sağlamlıq və fiziki hazırlıq səviyyəsi nəzərə alınmaqla komplektləşir. Bir qrupun tərkibi 20-25 nəfərdən ibarət olur. Sağlamlıq imkanları məhdud və fiziki hazırlığı zəif olan gənclər üçün qruplarda məşğul olanların sayı 12-15 nəfər ola bilər.

Bədən tərbiyəsi - sağlamlıq qruplarında və fərdi məşğul olanlarla məşğələlər tədris planına və cədvələ əsasən həftədə 2-3 dəfə olmaqla il boyu keçirilir.

Qruplarda və fərdi məşğul olanların fiziki hazırlığını və yaş həddini nəzərə almaqla təlim məşğələləri 45-90 dəqiqə davam edə bilər.

Bədən tərbiyəsi-sağlamlıq qruplarında və fərdi məşğul olanlara aid tədris planında nəzərdə tutulmuş təlim məşqlərini aparan məşqçi-müəllimlər ali, orta ixtisas təhsilli və ya məşqçi-müəllim işinin aparılmasına icazə verən müvafiq kurslar keçmiş bədən tərbiyəsi mütəxəssisi olmalıdır.

**III. Bədən tərbiyəsi və idman qruplarından daxil olan vəsait**

Bədən tərbiyəsi-sağlamlıq qruplarının maliyyələşməsi məşğul olan gənclərin ödədikləri vəsaitin hesabına həyata keçirilir.

Dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərinin rəhbərləri qruplardan və fərdi məşğul olanlar tərəfindən əldə olunan vəsaitin mədaxil və məxaric xərclər smetasını tərtib və təsdiq edir.

Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərində məşğul olması üçün ödəniş haqqı qanunvericiliyə uyğun olaraq İqtisadi İnkişaf Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Gənclər və İdman Nazirliyi tərəfindən müəyyən edilir. Gənclər və İdman Nazirliyi sosial müdafiəyə xüsusi ehtiyacı olan gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadəsi üçün güzəştli ödəniş haqqı tətbiq edə bilər.

Məşğələlərdə iştirak edənlərdən daxil olan vəsaitlər nəzdində bədən tərbiyəsi-sağlamlıq qrupları yaradılmış idman təşkilatlarının və idarələrinin kassalarına mədaxil olunur.

Bədən tərbiyəsi və idman obyektlərindən istifadə haqqı qruplarda məşğul olanlar tərəfindən aylıq və yaxud rüblük haqq şəklində hər ayın və ya rübün başlanmasına 10 gün qalmış ödənilir. Üzürlü səbəb olmadan məşğələləri buraxdıqda, habelə məşğul olanın qrupdan çıxdığı zaman ödənilmiş vəsait geri qaytarılmır.

## “Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 039; 24.03.2003-cü il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2003-cü il 24 mart tarixli*
*39 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi

## QAYDALARI

**1.** Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd (bundan sonra - təqaüd) verilməsi Olimpiya Oyunlarına ciddi hazırlıq təlim-məşqlərinin keçirilməsini və beynəlxalq arenada yüksək idman nailiyyətləri göstərilməsinin stimullaşdırılmasını təmin etmək məqsədi daşıyır.

**2.** Təqaüd Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançıya, onun məşqçisinə və Respublika yığma komandasının baş məşqçisinə ödənilir.

**3.** İdmanın oyun növlərində iştirak etmək hüququ qazanılan zaman təqaüd əsas heyətin hər bir üzvünə, baş məşqçiyə və komandanın məşqçisinə verilir.

**4.** Hər ay hər bir idmançıya 500.000 (beş yüz min) manat, onun məşqçisinə 300.000 (üç yüz min) manat, baş məşqçi və komandanın məşqçisinin hər birinə 200.000 (iki yüz min) manat məbləğində təqaüd ödənilir.

**5.** Təqaüdlərin ödənilməsi iştirak etmək hüququ qazanılması faktının Beynəlxalq Federasiya tərəfindən təsdiq edilməsindən sonra həyata keçirilir. Olimpiya Oyunlarının başlanmasına qalan sonuncu ay təqaüdlərin ödənilməsinin son müddəti hesab olunur.

**6.** Təqaüdlərin ödənilməsini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində bədən tərbiyəsi və idman tədbirləri üçün bu nazirlik üzrə nəzərdə tutulan vəsaitlər hesabına həyata keçirir.

**7.** Təqaüdlərin təyin edilməsi və ödənilməsi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin müvafiq əmri ilə həyata keçirilir.

## "Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsini tənzimləmək və bu sahədə normativ bazanı yaratmaq məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** "Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların rəhbərlərinə tapşırılsın ki, xarici ölkələrin nümayəndə heyətlərinin və ayrı-ayrı rəsmi şəxslərin qəbulu ilə əlaqədar vəsaitlərin xərclənməsinin bu qərarla təsdiq edilmiş Qaydalara və həmin Qaydaların əlavəsində göstərilən normalara uyğun həyata keçirilməsini təmin etsinlər.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi xarici ölkələrin nümayəndə heyətlərinin və ayrı-ayrı rəsmi şəxslərin qəbulu ilə əlaqədar xərc normalarında dəyişikliklər edilməsinə zərurət yarandıqda, bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq təkliflər versin.

**4.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 6; 31.01.2004-cü il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2004-cü il 31 yanvar tarixli*
*6 nömrəli qərarı ilə təsdiq edilmişdir*

## Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi

## QAYDALARI

**1.** Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi bu Qaydalarla tənzimlənir.

**2.** Bu Qaydalar üzrə xidmət xərcləri Azərbaycan Respublikasının ikitərəfli, çoxtərəfli və tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrdə ödənilməsi nəzərdə tutulduğu halda da tətbiq edilir.

**3.** Hər bir qəbul üçün dövlət büdcəsindən maliyyələşən müvafiq idarə, müəssisə və təşkilatların rəhbərləri tərəfindən nümayəndə heyətinin sayı, səfərin müddəti və onlara xidmət göstərilməsi ilə əlaqədar çəkiləcək xərclər göstərilməklə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində smeta təsdiq edilir.

**4.** Xarici ölkələrin nümayəndə heyətlərinin və ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmətlə bağlı xərclərin qəbulu və onlara xidmətlə bağlı xərclərin ödənilməsi bu Qaydaların əlavəsində göstərilən xərc normalarına uyğun aparılır.

**5.** Xarici ölkələrin nümayəndə heyətlərinin və ayrı-ayrı rəsmi şəxslərin şərəfinə rəsmi qaydada səhər yeməyi, nahar və şam yeməyinin verilməsi bu Qaydaların 3-cü bəndində nəzərdə tutulan rəhbər vəzifəli şəxslərin razılığı ilə həyata keçirilir.

Bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlərin qurultaylarda, müşavirələrdə, simpoziumlarda və digər kütləvi tədbirlərdə iştirak etmək üçün gəlmiş xarici ölkələrin nümayəndə heyətlərinin və ayrı-ayrı rəsmi şəxslərin qəbulu üçün xərclənməsinə icazə verilmir.

**6.** Mehmanxanalarda kateqoriyalar üzrə nömrələrin kirayə xərcləri xarici nümayəndə heyətinin və ayrı-ayrı rəsmi şəxslərin qəbul etdiyi şəhərin mehmanxanalarında qüvvədə olan tariflər əsasında müvafiq ciddi hesabat blanklarında yazılmış hesablar əsasında ödənilir.

**7.** Hava, dəniz və dəmiryolu nəqliyyatı ilə nümayəndə heyətinin gediş xərci Azərbaycan Respublikası tərəfindən ödənilməli olduğu halda, respublika ərazisində qüvvədə olan tariflər tətbiq edilməklə müvafiq ciddi hesabat blanklarında yazılmış hesabatlar əsasında ödənilir.

**8.** Nümayəndə heyətinin və ayrı-ayrı rəsmi şəxsləri qəbul edən təşkilatın tələbnaməsinə əsasən mehmanxanalarda yerlər qonaqların gəlməsinə bir gün qalmış bronlaşdırıla və ya yerlərin bir günlük dəyərinin 50 faizi ödənilə bilər.

**9.** Xarici ölkələrin nümayəndə heyətinə və ayrı-ayrı rəsmi şəxslərə avtomobil nəqliyyatı xidməti xərcləri nəqliyyat müəssisələri ilə bağlanmış müqavilədə göstərilmiş tariflər əsasında saat hesabı ilə smetada aşağıdakı qaydada nəzərdə tutulur:

*- Xarici ölkələrdən gələn qonaq yüksək vəzifəli şəxs (qorunan şəxs) olduqda, qonağın yaşadığı mehmanxanada Azərbaycan Respublikasının xüsusi xidmət orqanları tərəfindən təhkim olunmuş əməkdaşlar üçün kirayə haqqı təqdim edilən hesab əsasında ödənilir.*

*- bu Qaydaların əlavəsində göstərilən xərc normalarının 1-ci bəndinin 1.1-ci yarım bəndində göstərilən şəxslər üçün banı "Sedan" tipli minik avtomobili ilə 1 gündə 16 saata qədər;*

*- nümayəndə heyətinin üzvlərinin sayı 10 nəfərə qədər olduqda, nümayəndə heyətinin hər 3 üzvünə banı "Sedan" tipli 1 ədəd minik avtomobili ilə 1 gündə 10 saata qədər;*

*- nümayəndə heyətinin üzvlərinin sayı 10 nəfərdən çox olduqda, üzvlərin sayından asılı olaraq müvafiq tipli avtobusla 1 gündə 10 saata qədər.*

*Göstərilən məqsədlərə vəsaitin xərclənməsi müvafiq qaydada rəsmiləşdirilir.*

**QEYD:**

**1.** Xarici ölkələrin nümayəndə heyətinin rəsmi qəbulu ilə əlaqədar səhər yeməyi, nahar, şam yeməyi və digər analoji tədbirlərin keçirilməsi zamanı Azərbaycan Respublikası tərəfindən iştirakçıların sayı xarici nümayəndə heyəti üzvlərinin sayından çox olmamalıdır.

**2.** Xarici ölkələrin nümayəndə heyətinin sayı 5 nəfərdən çox

olduqda, nümayəndə heyətinə xidmət göstərən tərcüməçilərin və müşayiət edən şəxslərin sayı hər 5 nəfərdən az olmayan nümayəndə heyəti üçün 1 nəfər tərcüməçi və ya müşayiət edən şəxs hesabı ilə müəyyən edilə bilər.

*"Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi Qaydaları"na əlavə*

## Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərc

## NORMALARI

| Sıra №-si | Xərclər | Xərc normaları |
|---|---|---|
| 1. Bir nəfər üçün gündəlik mehmanxana və digər xərcləri | | |
| 1.1 | Nümayəndə heyətinin rəhbəri olan nazirlər və ona bərabər tutulan şəxslər, parlament üzvləri üçün | Faktiki xərclərə görə ("lyüks" kateqoriyalı 2 otaqlı nömrənin qiymətindən yuxarı olmamaq şərtilə) |
| 1.2 | Nümayəndə heyətinin rəhbəri və ayrı-ayrı rəsmi şəxslər üçün (1.1-ci yarımbənddə göstərilən şəxslərdən başqa) | Faktiki xərclərə görə ("lyüks" kateqoriyasından aşağı kateqoriyaya aid olan 2 nəfərlik nömrənin qiymətindən yuxarı olmamaq şərtilə) |
| 1.3 | Nümayəndə heyətinin üzvləri, tərcüməçilər və müşayiət edən şəxslər üçün | Faktiki xərclərə görə ("lyüks" kateqoriyasından aşağı kateqoriyaya aid olan 1 nəfərlik nömrənin qiymətindən yuxarı olmamaq şərtilə) |
| 2 | Gündəlik yemək xərci | 20 manata qədər |
| 3 | Rəsmi qəbul ilə bağlı səhər yeməyi, nahar və şam yeməyinin verilməsi və ona oxşar tədbirlərlə bağlı xərclər (1 nəfər üçün) | |

| | | |
|---|---|---|
| 3.1 | 1-ci bəndin 1.1-ci yarımbəndində nəzərdə tutulan şəxslərin rəhbərlik etdiyi nümayəndə heyəti üçün | 24 qədər |
| 3.2 | Digər nümayəndə heyətləri üçün | 16 manata qədər |
| 4 | Danışıqlar, mədəni tədbirlər zamanı bufet xidməti üçün (tərcüməçi və müşayiət edən şəxslər də daxil olmaqla 1 nəfər üçün gündəlik xərc) | 2 manata qədər |
| 5 | Mədəni tədbirlərlə bağlı xidmətlər üçün (tərcüməçi və müşayiət edən şəxslər də daxil olmaqla 1 nəfər üçün gündəlik xərc) | 6 manata qədər |
| 6 | Məişət xidməti və digər xidmətlər üçün (nümayəndə heyətinin 1 üzvü üçün gündəlik xərc) | 2 manata qədər |
| 7 | Tərcümə xidmətləri ilə bağlı xərclərin ödənilməsi (təşkilatların təqdim etdiyi hesaba görə saat hesabı ilə) | 6 manata qədər |
| 8 | Azərbaycan Respublikasının tarixini və mədəniyyətini təcəssüm etdirən suvenir, çap materiallarının və s. alınması xərcləri | |
| 8.1 | Nümayəndə heyətinin rəhbəri üçün | 70 manata qədər |
| 8.2 | Nümayəndə heyətinin üzvü üçün | 20 manata qədər |

# İdman təşkilatlarının və qurğularının xidmət heyətinin sahə say normaları

Bu sahə say normativləri Azərbaycan Respublikası Əmək Məcəlləsinin 147-ci maddəsinin 1-ci maddəsinə, 148-ci maddəsinin 5-ci hissəsinə və 153-cü maddəsinə uyğun olaraq işlənib hazırlanmışdır.

İdman təşkilatlarının və qurğularının xidmət heyətinin sahə say normaları büdcədən maliyyələşdirilən bütün növ idman təşkilatları və idman qurğuları üçün mütləq, qeyri-büdcə sahələri üçün isə tövsiyyəvi xarakter daşıyır.

İdman təşkilatlarının və qurğularının xidmət heyətinin sahə say normaları əmək qanunvericiliyi ilə müəyyən edilmiş gündəlik normal iş vaxtı üçün müəyyən edilmişdir.

İdman təşkilatlarının və qurğularının xidmət heyəti üçün aşağıdakı sahə say normaları müəyyən edilir:

| № | Vəzifələrin adı | Say norması |
|---|---|---|
| 1 | Anbardar | 1 anbar üzrə - 1 vahid |
| 2 | Attraksion və tirlərə xidmət edən fəhlə | 1 qurğu üzrə - 1 vahid |
| 3 | At təlimçisi | 5 at üzrə - 1 vahid |
| 4 | Avtomobil sürücüsü | 1 xidməti avtomobil üzrə - 1 vahid |
| 5 | Bağban | 500 ağac, ya da 200 kol üzrə-1 vahid |
| 6 | Baytar həkimi | Atçılıq-idman bazası üzrə-1 vahid |
| 7 | Bilet yoxlayan | Pullu idman tədbirlərinin keçirilməsi zamanı hər giriş yeri üçün - 1 vahid |
| 8 | Elektrik avadanlığının təmiri və xidməti üzrə elektrik montyoru | 500 işıqlanma nöqtəsinin istifadəsi üzrə - 1 vahid |
| 9 | Gözətçi | 1 sutka üçün - 4 vahid |
| 10 | Xilaskar matros | Avarçəkmə bazası və ya yaxt-klub üçün - 2 vahid |
| 11 | Xüsusi geyimin təmiri və yuyulması üzrə maşinist | Bir paltaryuyan qurğu və ya kimyəvi təmizləmə aparatı üzrə - 1 vahid |
| 12 | İdman silahının (qurğularının) təmirçisi | 200 ədəd silah üzrə - 1 vahid və 150 kv.m-dən az olmayan idman zalının meydançası üzrə - 1 vahid |
| 13 | İdman qayıqlarının təmirçisi | 25 ədəd qayıq üzrə - 1 vahid |
| 14 | İstehsalat sahəsini və xidməti otaqları yığışdıran | 500 kv.m. təmizləmə meydançası üzrə - 1 vahid |
| 15 | Katoku suvaran | 2500 kv.m. istifadə olunan buz sahəsi üzrə - 1 vahid |

| | | |
|---|---|---|
| 16 | Qarderobçu | Üst geyim üçün qarderob üzrə - 1 vahid |
| 17 | Mehtər | 5 at üzrə - 1 vahid |
| 18 | Nəqledici-yığıcı maşınların sürücüsü | 1 maşın üzrə - 1 vahid |
| 19 | Nalbənd | 50 at üzrə - 1 vahid |
| 20 | Qazanxana maşinisti | 1 sutka üçün - 4 vahid |
| 21 | Ocaqçı | Təşkilat və qurğular üzrə - 1 vahid |
| 22 | Səthi idman qurğularının təmirçisi | 2000 kv.m. istifadə olunan sahə üzrə - 1 vahid |
| 23 | Soyunub-geyinmə otağının növbətçisi | 50 kiçik ölçülü şkaf üzrə - 1 vahid |
| 24 | Suyun kimyəvi təmizlənməsi üzrə aparatçı | 1 hovuz üçün - 1 vahid |
| 25 | Texniki idman növləri üzrə mexanik | 8 ədəd avtonəqliyyat vasitəsi üçün - 1 vahid |
| 26 | Təmirçi-çilingər | 2000 kv.m istifadə olunan sahə üzrə - 1 vahid |
| 27 | Tir, idman attraksionları, idman və oyun avtomatları zalının növbətçisi | Bir tir, bir idman attraksionu və bir oyun avtomatları zalı üzrə - 1 vahid |

***Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi ilə razılaşdırılıb.***
***14 iyul 2004-cü il***

***Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyində təsdiq edilib.***
***04 iyul 2004-cü il***

# Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 5 may 2000-ci il tarixli, 8-2 nömrəli kollegiya qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 16 may 2000-ci il tarixində 1258 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiya qərarı

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 57-ci və 156-cı maddələrinin 2-ci hissələrinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyası **qərara alır:**

"Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) Tarif-ixtisas xüsusiyyətləri bölməsinin "Mütəxəssislər" hissəsində "İdman üzrə məşqçi-müəllim" vəzifəsinin "Ödəniş dərəcələrinə ixtisas tələbləri"ndə 13-cü dərəcə üzrə ixtisas tələbləri aşağıdakı redaksiyada verilsin:

"13-cü dərəcə: ali bədən tərbiyəsi təhsili və yüksək idman kateqoriyası: və ya rəhbərliyi altında iki və daha çox məşqçi-müəllim çalışdıqda və ayrı-ayrı idman növləri üzrə metodiki rəhbərlik etdikdə - baş məşqçi-müəllim".

***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 14 iyul 2004-cü il tarixli 9-3 nömrəli qərarı ilə təsdiq edilmişdir.***

***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 30 iyul 2004-cü il tarixdə, N3073 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.***

# "Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 161; 26.10.2004-ci il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2004-cü il 26 oktyabr tarixli*
*161 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi

# ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

**1.1.** Yüksək İdman Ustalığı Məktəbi (bundan sonra - YİUM) Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin məktəbdənkənar təlim-idman və təşkilati-metodik müəssisəsidir. YİUM özünün və ya icarəyə götürülmüş bazası, ən azı 4 idman təkmilləşdirmə qrupu, 3 yüksək idman ustalığı qrupu, yüksək dərəcəli məşqçi kadrları olduqda Gənclər və İdman Nazirliyi tərəfindən yaradılır.

**1.2.** YİUM ölkənin milli yığma komandalarının üzvlərinin və Olimpiya idman növləri üzrə ehtiyatların hazırlanmasını təmin edir, idman nəticələri dinamikasının tədqiqi əsasında idman bölmələrinin işinə təlim-məşq prosesinin qabaqcıl metodları ilə müdaxilə edir, Uşaq-Gənclər İdman Məktəbləri (bundan sonra - UGİM) və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəblərində (bundan sonra - İOEUGİM) fəaliyyət göstərən idman növləri üzrə məşqçi-müəllimlər üçün informasiya-metodik materialların buraxılışını işləyib hazırlayır və əlaqələndirir.

**1.3.** YİUM-un əsas məqsədi şagirdlərin Olimpiya oyunlarında, Dünya, Avropa və ölkə çempionatlarında, beynəlxalq turnirlərdə və digər rəsmi yarışlarda iştirak etməsi üçün hazırlanmasıdır.

**1.4.** YİUM-də fəaliyyət göstərən idman növlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi müəyyənləşdirir.

**II. Tədris-məşq prosesinin təşkili**

**2.1.** YİUM-da təlim-məşq prosesi müasir metodika əsasında, təlimin texniki vəsaitlərindən və bərpaedici vasitələrdən geniş istifadə edilməklə il ərzində məşqçi-müəllimlər tərəfindən həyata keçirilir və idmançıların yüksək məşq yükünü mənimsəməsi, gündəlik rejimin səmərəli təşkili əsasında qurulur.

Təlim-məşq prosesinin əsas formaları qrup halında məşqlər, təlim-məşq toplanışları, yarışlarda iştirak, bərpaedici tədbirlər, tibbi-bioloji müayinələr, testləşdirmələrdən və tədris-idman filmlərinə baxışdan ibarətdir.

**2.2.** YİUM-da təhsil müddəti 10 ildən çox olmamaq şərti ilə nəzərdə tutulur. YİUM-a idman növlərinin spesifik xüsusiyyətlərini nəzərə almaqla Pedaqoji Şuranın qərarı ilə idman hazırlığının hər bir mərhələsində şagirdlərin fərdi təlim müddətini, təlim qruplarının sayını və tərkibini, təlim-məşq işlərinə qoyulan tələblərə uyğun olaraq hazırlıq dövrlərindən və mərhələlərindən asılı olaraq təlim-məşq işlərinin həftəlik rejimini müəyyən etməyə icazə verilir.

**2.3.** İdman gimnastikası və bədii gimnastika, fiqurlu konkisürmə, suya tullanma, sinxron üzgüçülük və atletika çoxnövçülüyünün tədris proqramına müvafiq olaraq qrupla işə eyni zamanda cəlb olunmaqla, əsas məşqçi-müəllimlərin və yaxın fənlər üzrə məşqçi-müəllimlərin tədris saatı iki dəfə artır. İdman gimnastikası və bədii gimnastika, konkisürmə bölmələrində təlim-məşq saatlarının 70 faizi musiqinin müşayiəti ilə keçirilir. Akrobatika, batutda tullanma bölmələrində musiqi müşayiətçisinin maaşı tədris planı üzrə və xoreoqrafiyaya ayrılmış ümumi saatların sayı hesabına verilir. Oyun idman növlərində iş iki məşqçi-müəllimlə icra olunur.

**III. YİUM-un şagirdləri**

**3.1.** YİUM-un qrupları bundan əvvəlki hazırlıq mərhələlərini keçmiş və milli yığma komandaya namizəd tələblərinə uyğun gələn idmançılardan komplektləşdirilir.

**3.2.** YİUM-a şagirdlər Məşqçilər Şurasının qərarı əsasında direktorun əmri ilə qəbul olunur. YİUM-a qəbul olunmaq üçün şagirdlər şəxsi ərizə, idmançının qiymət kitabçasını və sağlamlıq haqqında arayış təqdim etməlidirlər.

**3.3.** YİUM-un şagirdlərinin idman forması, idman inventarı, qida, bərpaedici vasitələr və tibbi xidmətlərlə təmin olunmaq hüquqları vardır.

**3.4.** YİUM-un şagirdləri müntəzəm olaraq idman ustalığını təkmilləşdirməli, tibbi müayinədən keçməli, idmançı gündəliyi aparmalı, yarışlarda və testləşdirmədə iştirak etməlidirlər.

**3.5.** YİUM-un şagirdləri təlim-məşq rejiminə riayət etmədikdə, on-

lara qarşı rəhbərlik tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada intizam tənbehi tətbiq edilir.

**IV. Tərbiyə işləri**

YİUM-da şagirdlərlə tərbiyə işi məktəbin direktoru tərəfindən təsdiq olunmuş plan üzrə aparılır.

**V. Tibbi və elmi-metodik təminat**

**5.1.** YİUM-un şagirdlərinin fiziki və psixoloji hazırlığına məktəbin tibb heyəti və Respublika İdman-Tibb Mərkəzi müntəzəm və ciddi nəzarət edir.

**5.2.** YİUM-da elmi-metodik təminatı Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi-tədqiqat şöbələri və digər aidiyyəti təşkilatlardan cəlb olunan elmi qruplar mülki müqavilə əsasında həyata keçirirlər.

**VI. YİUM-un rəhbərliyinin, mütəxəssislərinin və məşqçi-müəllimlərinin vəzifələri**

**6.1.** YİUM-a Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən vəzifəyə təyin edilən və işdən azad edilən ali bədən tərbiyəsi təhsili və idman məktəbində təşkilati iş təcrübəsi olan direktor rəhbərlik edir.

Direktor məktəbin fəaliyyətinə rəhbərlik edir, YİUM-un adından iş aparır, məktəbin əmlakını idarə edir, müqavilələr bağlayır, məktəbin işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, məşqçi-müəllim heyətini komplektləşdirir, YİUM-un apardığı işin nəticələrinə görə məsuliyyət daşıyır.

**6.2. Mütəxəssislər**

Direktorun təlim-tərbiyə işləri üzrə, tədris işləri üzrə, təsərrüfat işləri üzrə müavinləri, təlimatçı-metodistlər (baş təlimatçı-metodistlər də daxil olmaqla), məşqçi-müəllimlər (baş məşqçi-müəllimlər də daxil olmaqla) və digər tədris-köməkçi və inzibati-təsərrüfat işçiləri direktor tərəfindən işə qəbul və işdən azad edilirlər. YİUM-un mütəxəssislərinin vəzifə tələbləri və vəzifə borcları müvafiq sahədəki Vahid Tarif İxtisas Sorğu kitabçasına əsasən müəyyən edilir.

**6.3. Məşqçi müəllimlər**

Məşqçi-müəllim perspektivli idmançıların seçilməsində iştirak edir, idmançıların fərdi hazırlıq planını hazırlayır, təlim-məşq və tərbiyə işlərini aparır, idmançıların testləşdirilməsinin nəticələrinin, onların məşq yükünün yerinə yetirilməsinin və qrup məşqlərinin hesaba alınma jurnalını aparır, elmi-metodik tədqiqatlarda və eksperimentlərdə, metodik materialların hazırlanmasında iştirak edir, məşqlərin təhlükəsizliyini təmin edir, sanitariya-gigiyena və həkimin tövsiyələrinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır, sistematik olaraq ixtisasını artırır.

**6.4.** Direktora, təlim-tərbiyə işləri üzrə direktor müavininə, baş təlimatçı-metodistə və təlimatçı-metodistə təhsilinə, ixtisasına və məşqçi-müəllimlik fəaliyyətindəki stajına uyğun olaraq, əsas iş yerində 0,5 stavkadan artıq olmayaraq təlim məşqləri aparmasına icazə verilir.

**6.5.** Dünya və Avropa Çempionatı, Kuboku və birinciliklərində 1-6-cı yerləri və rəsmi beynəlxalq yarışlarda 1-3-cü yerləri tutmuş idmançıların hazırlığına görə yüksək idman ustalığı məktəbinin direktoruna, direktorun müavininə, təlimatçı-metodistinə, məşqçi-müəlliminə növbəti tədris ilində vəzifə maaşının 15 faizi miqdarında əlavə əmək haqqı verilir, Olimpiya Oyunlarında 1-6-cı yerləri tutmuş idmançıların hazırlığına görə isə növbəti Olimpiya Oyunlarına qədər vəzifə maaşının 15 faizi miqdarında əlavə əmək haqqı təyin olunur.

**6.6.** YİUM-da direktor tərəfindən təsdiq edilmiş idman növləri üzrə məşqçilər, yaxud birləşmiş məşqçilər şuraları, pedaqoji və metodiki şuralar yaradılır. YİUM-un şuraları rübdə azı iki dəfə iclas keçirir.

**VII. YİUM-un maliyyələşdirilməsi və maddi-texniki bazası**

**7.1.** YİUM-un maliyyələşdirilməsi dövlət büdcəsinin vəsaitləri hesabına və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan büdcədənkənar daxilolmaların hesabına həyata keçirilir.

**7.2.** YİUM-un ştat cədvəli və smeta xərcləri hər il Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təsdiq edilir və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçirilir. YİUM-un ştat cədvəli, smeta xərcləri, tədris qruplarının komplektləşdirilməsi planı, məktəbin iş planı, idman tədbirlərinin təq-

vim planı mövcud maddi-texniki bazaya əsasən, idman növlərinin spesifikası nəzərə alınmaqla müəyyən olunur.

**VIII. YİUM-un hüquqları**

**8.1.** YİUM-un smetada nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilə bilən aşağıdakı hüquqları vardır:

laboratoriyaya, hesablama texnikasına və video-texnikaya, idman ehtiyacları üçün avtonəqliyyata və maddi-texniki vəsaitlərə malik olmaq;

müqavilələrə əsasən elmi-tədqiqatlar aparmaq;

eyni yönümlü məktəblərlə əməkdaşlıq, qarşılıqlı kömək və iş təcrübəsi mübadiləsi üçün müqavilələr bağlamaq;

perspektivli idmançı kontingenti, məşqçi kadrları və idman bazaları olan şəhər və rayon məktəblərində fəaliyyətdə olan idman növləri üzrə qruplar açmaq;

təlim-məşq toplanışları, yarışlar, idman mövzusunda konfrans və seminarlar təşkil etmək və dəvət olunduğu aidiyyəti tədbirlərdə iştirak etmək.

YİUM-un xətti ilə idman tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitinin xərclənməsi qaydaları və normaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş normativlərə əsasən müəyyən edilir.

**8.2.** YİUM müstəqil balansa, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı əks olunmuş möhür və ştampa, blanklara və bank hesablarına malik olan hüquqi şəxsdir.

**IX. YİUM-un sənədləri və hesabatı**

**9.1.** YİUM-un aşağıdakı sənədləri olmalıdır: illik iş planları, komplektləşdirmə planı, idmançı-şagirdlərin siyahısı, idman tədbirlərinin təqvim planı, idmançıların kartları, əmr kitabı, dərs cədvəli, idmançıların hazırlığının fərdi planları, məşqçi-müəllim işinin hesabat jurnalı.

**9.2.** YİUM Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə və dövlət statistika orqanına müəyyən olunmuş formada hesabat təqdim edir.

## Minimum aylıq əmək haqqının artırılması ilə əlaqədar məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması barədə

## İZAHAT

Azərbaycan Respublikası Prezidentinin “Minimum aylıq əmək haqqının artırılması haqqında” 30 iyun 2004-cü il tarixli 81 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 158-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında” 31 iyul 2004-cü il tarixli 104 nömrəli qərarı ilə dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin əməyinin ödənilməsinin Vahid Tarif Cədvəli üzrə tarif (vəzifə) maaşları təsdiq edilmişdir.

Bu qərarla Vahid Tarif Cədvəlinin əməyin ödənilməsinin 1-ci dərəcəsi üzrə işçilərin aylıq tarif (vəzifə) maaşları 100.000 manat məbləğində müəyyən edilmiş və digər dərəcələr üzrə də tarif (vəzifə) maaşları artırılmışdır (Nazirlər Kabinetinin “Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında” 30.10.2003-cü il tarixli 144 nömrəli qərarı ilə 01.01.2004-cü il tarixindən müəyyən olunmuş tarif (vəzifə) maaşlarına nisbətən). Büdcədən maliyyələşdirilən sahələrdə çalışan və maaşları Vahid Tarif Cədvəli ilə müəyyən edilən təxminən 540 min nəfər işçinin tarif (vəzifə) maaşlarının artımı kütləvi artım hesab edilir.

Qeyd edilənlərə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 1999-cu il tarixli 137 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması Qaydası” (Nazirlər Kabinetinin 17 dekabr 2003-cü il tarixli 158 nömrəli qərarı ilə ona edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla) Nazirlər Kabinetinin yuxarıda göstərilən 31 iyul 2004-cü il tarixli 104 nömrəli qərarı ilə tarif (vəzifə) maaşları artırılan işçilərə şamil edilməlidir.

Bu halda büdcədən maliyyələşdirilən müvafiq sahələr üzrə Vahid Tarif Cədvəlinin əməyin ödəniş dərəcələri üzrə tarif (vəzifə) maaşlarının artımları müxtəlif olduğundan kütləvi artımdan sonra (01.07.2004-cü il tarixdən) tarif (vəzifə) maaşının əvvəlki tarif (vəzifə) maaşlarına (01.01.2004-cü il tarixdən 01.07.2004-cü il tarixinə kimi) olan nisbətindən alınan təshih əmsalları da əməyin ödənilməsinin ayrı-ayrı dərəcələri üzrə) müxtəlif olacaqdır.

Məzuniyyət vaxtı üçün ödənilən orta əmək haqqının hesablanması zamanı tətbiq edilən təshih əmsalı əməyin ödənilməsinin ayrı-ayrı dərəcələri üzrə aşağıdakı kimi müəyyən edilir.

Misal üçün, büdcədən maliyyələşdirilən sahələrdə çalışan pedaqoji işçilərin Vahid Tarif Cədvəlinin 10-cu dərəcəsi üzrə təshih əmsalı 1,09/Ə=128000:117732=1,09 olacaqdır.

Burda 128000 manat 1 iyul 2004-cü il tarixindən sonrakı, 117732 manat isə 1 iyul 2004-cü il tarixinədək olan vəzifə maaşıdır.

Qeyri-büdcə müəssisə, idarə və təşkilatlarda kollektiv müqavilənin şərtlərinə əsasən tarif (vəzifə) maaşları kütləvi şəkildə artırıldıqda məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması hazırkı qaydaya əsasən həmin müəssisə, idarə və təşkilatlarda müstəqil surət-də aparılır.

***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təsdiq edilib. Məktub №07/11-1045 (03 noyabr 2004-cü il)***

***Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılıb. Razılaşdırma məktubu №09/03-841-5723 (21 oktyabr 2004-cü il)***

## Respublika Stend Atıcılığı İdman Məktəbinin yaradılması haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

İdmanın stend atıcılığı növünün gələcəkdə inkişaf etdirilməsini təmin etmək, stend atıcılığı üzrə respublika yığma komandasına ehtiyat idmançıların hazırlanması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Respublika Stend Atıcılığı İdman Kompleksinin maddi-texniki bazasından istifadə edəcək hüquqi şəxs statusuna malik Respublika Stend Atıcılığı İdman Məktəbinin yaradılması barədə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri qəbul edilsin.

**2.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, məktəbin xərclər smetasını və ştat cədvəlini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırsın və məktəbin cari ildə saxlanılması üçün tələb olunan əlavə xərcin ödənilməsini 2005-ci ilin dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin "Təhsil xərcləri" bölməsində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin "Kadr hazırlığı üzrə sair tədris müəssisələri" paraqrafı üzrə nəzərdə tutulmuş müvafiq xərc yarımmaddələri dairəsində təmin etsin.

**3.** "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin strukturuna daxil olan müəssisə, idarə və təşkilatların Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 sentyabr tarixli 151 nömrəli qərarı ilə təsdiq edilmiş Siyahıya "Respublika Stend Atıcılığı İdman Məktəbi" sözləri əlavə edilsin.

**4.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 085; 13.05.2005-ci il

# Olimpiya idman növləri üzrə milli yığma komandaların baş məşqçilərinə aylıq vəzifə maaşlarının təyin edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin Maliyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Olimpiya idman növləri üzrə milli komandaların baş məşqçilərinin aylıq vəzifə maaşları 1.120.000 (bir milyon yüz iyirmi min) manat məbləğində təsdiq edilsin.

**2.** Olimpiya idman növləri üzrə milli yığma komandaların Baş məşqçilərinin aylıq vəzifə maaşlarının ödənilməsi dövlət büdcəsinin "Bədən tərbiyəsi və idman tədbirləri" bölməsinin vəsaitləri hesabına həyata keçirilsin.

**3.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№086; 13.05.2005-ci il

# Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin V Beynəlxalq İdman Oyunlarının keçirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin V Beynəlxalq İdman Oyunlarının təşkili və keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 may tarixli 707 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** 2005-ci il 23-27 sentyabr tarixində Bakı şəhərində MDB-yə üzv olan dövlətlərin "Sülh və sağlamlıq dostluqdadır" devizi altında Böyük Vətən Müharibəsindəki Qələbənin 60 illiyinə həsr edilmiş "V Beynəlxalq İdman Oyunlarının təşkili və keçirilməsi üzrə Respublika Təşkilat Komitəsinin tərkibi" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə oyunların təntənəli açılış və bağlanış mərasimlərinin böyük mədəni-idman bayramı səviyyəsində təşkilini, yarışların keçiriləcəyi idman qurğularının hazırlığının tam təmin edilməsini və yarışların yüksək səviyyədə keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi iştirakçıların yarış və yaşayış yerlərində ictimai asayişin qorunmasını təmin etsin.

**4.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi oyunların iştirakçılarına tibbi xidmət göstərilməsini, yarış və yaşayış yerlərində tibb məntəqələrinin təşkilini və təcili yardım maşınlarının ayrılmasını təmin etsin.

**5.** Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yarışların keçirildiyi idman qurğularında beynəlxalq telefon xətlərinin, əlavə telefon nömrələrinin quraşdırılmasını, internet kompüter şəbəkəsindən istifadə üçün müvafiq şəraitin yaradılmasını təmin etsin.

**6.** Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi yarış iştirakçılarının daşınmasını təmin etsin.

**7.** "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti oyunların açılış və bağlanış mərasiminin, eləcə də ayrı-ayrı idman növləri üzrə yarışların respublika telekanallarında müntəzəm yayımlanmasını təmin etsin.

**8.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi V Beynəlxalq İdman Oyunlarının iştirakçıları, qonaqlar və rəsmi nümayəndələr üçün ölkəyə giriş və çıxışa aid viza sənədlərinin vaxtında verilməsini təmin etsin.

**9.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, V Beynəlxalq İdman Oyunlarının təşkili və keçirilməsi üçün 2005-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan 600 (altı yüz) milyon manat vəsaitin Gənclər, İdman və Turizm Nazirliyinə ayrılmasını təmin etsin. Gənclər, İdman və Turizm Nazirliyi ayrılmış vəsaiti təyinatı üzrə istifadə etsin.

**10.** Bakı Metropoliteninin rəhbərliyi yarış günləri yarış iştirakçılarının metrodan pulsuz istifadə etmələrinə şərait yaratsın.

**11.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№155; 19.08.2005-ci il

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2005-ci il 19 avqust tarixli*
*155 nömrəli qərarı ilə təsdiq edilmişdir*

## V Beynəlxalq İdman Oyunlarının təşkili və keçirilməsi üzrə Respublika Təşkilat Komitəsinin tərkibi

Abbasov Abbas Aydın oğlu - Baş nazirin birinci müavini, Təşkilat Komitəsinin sədri

Qarayev Əbülfəs Mürsəl oğlu - gənclər, idman və turizm naziri, Təşkilat Komitəsi sədrinin müavini

Mehbalıyev Səttar Suliddin oğlu - Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Təşkilat Komitəsi sədrinin müavini

Roqatin Boris Nikolayeviç - İdman Təşkilatları Beynəlxalq Konfederasiyasının prezidenti, Təşkilat Komitəsi sədrinin müavini (razılaşmaya əsasən)

**Üzvlər:**

Əsgərov Asif Yunis oğlu - gənclər, idman və turizm nazirinin müavini

Hüseynzadə Çingiz Muxtar oğlu - Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Zalov Oruc İbrahim oğlu - daxili işlər nazirinin müavini

Pənahov Musa Sədi oğlu - nəqliyyat nazirinin müavini

Ağayev Elsevər Məmməd oğlu - səhiyyə nazirinin müavini

Fətizadə İlqar Fəti oğlu - maliyyə nazirinin birinci müavini

Vəliyev Ədalət Məqsəd oğlu - mədəniyyət nazirinin müavini

Qasımov Elmar Eldar oğlu - təhsil nazirinin müavini

Əliyev İlyas Alxas oğlu - Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini

Pənahov Rauf Əli oğlu - Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini

Əliyev Aydın Əli oğlu - Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

İlyasov Sabir Gülmirzə oğlu - "AzAL" Dövlət Konserni sədrinin birinci müavini

Xələfov Xələf Alı oğlu - xarici işlər nazirinin müavini

Əhmədov Tağı Məhəmməd oğlu - Bakı Metropoliteninin rəisi

Cəbrayılov Asif Mikayıl oğlu - Dövlət Sərhəd Xidməti rəisinin müavini

Mərdanov İlham Cumayıl oğlu - Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində şöbə müdiri

Alışanov Arif Nizam oğlu - "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini

Leonov Aleksey Arxipoviç - iki dəfə Sovet İttifaqı Qəhrəmanı, əməkdar idman ustası, V Beynəlxalq İdman Oyunlarının baş hakimi (razılaşmaya əsasən)

Əliyev Vaqif Cəfər oğlu - Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının prezidenti, V Beynəlxalq İdman Oyunlarının baş hakiminin müavini

Razlojko Vasiliy Stepanoviç - İdman Təşkilatları Beynəlxalq Konfederasiyasının İdman proqramının rəhbəri, V Beynəlxalq İdman Oyunlarının baş hakiminin müavini (razılaşmaya əsasən)

Yefimenko Anatoliy Nesteroviç - İdman Təşkilatları Beynəlxalq Konfederasiyasının birinci vitse-prezidenti (razılaşmaya əsasən)

Rəhimov Mirkamil Pirəli oğlu - Gənclər, İdman və Turizm Nazirliyinin idman şöbəsinin müdiri

Tağıyev Tağı Oruc oğlu - Gənclər, İdman və Turizm Nazirliyi Aparatının rəhbəri

**"Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli qərarına dəyişikliklər edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli qərarı ilə təsdiq edilmiş "Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar"ın məbləğinə dair cədvəlin 7-10-cu bəndləri aşağıdakı yeni redaksiyada təsdiq edilsin:

| | | | | |
|---|---|---|---|---|
| **7.** | **Dünya birinciliyi /gənclər/** | | | |
| | idmançı | 2000 | 1000 | 800 |
| | məşqçi | 1000 | 800 | 500 |
| **8.** | **Dünya birinciliyi /yeniyetmələr/** | | | |
| | idmançı | 1500 | 1000 | 500 |
| | məşqçi | 750 | 500 | 300 |
| **9.** | **Avropa birinciliyi /gənclər/** | | | |
| | idmançı | 1300 | 900 | 500 |
| | məşqçi | 650 | 450 | 250 |
| **10.** | **Avropa birinciliyi /yeniyetmələr/** | | | |
| | idmançı | 1000 | 750 | 400 |
| | məşqçi | 500 | 350 | 200 |

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№099; 08.04.2006-cı il

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına və sərəncamlarına dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının bəzi nazirliklərinin yenidən təşkil edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 yanvar tarixli 359 nömrəli Fərmanının 4.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

**I.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına və sərəncamlarına aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Azərbaycan Respublikasında uşaqların və yeniyetmələrin yay istirahətinin təşkilinin təxirəsalınmaz tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin və AHİŞ-in 1992-ci il 11 iyun tarixli 329 nömrəli qərarının 6-cı bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə və 8-ci bəndində "Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi" sözləri "Gənclər və İdman Nazirliyi" sözləri ilə əvəz edilsin;

**2.** "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli qərarının 2-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə, "Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsinə" sözləri "Gənclər və İdman Nazirliyinə" sözləri ilə əvəz edilsin və həmin qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks Proqram"ın:

5.3-cü və 5.4-cü bəndlərin 2-ci yarımbəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə;

5.5-ci bəndinin 9-cu yarımbəndində "Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi" sözləri "Gənclər və İdman Nazirliyi" sözləri ilə əvəz edilsin;

**3.** "Beynəlxalq Əlillər Günü"nün keçirilməsi haqqında" Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 1995-ci il 27 noyabr tarixli 253 nömrəli qərarının 4-cü bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə, "İdman və Gənclər" sözləri isə "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 29 aprel tarixli 32 nömrəli qərarına əlavənin - "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya"nın beşinci abzasında "P.Bülbüloğlu - Mədəniyyət naziri" sözləri "Ə.Qarayev - Mədəniyyət və Turizm naziri" sözləri ilə, yeddinci abzasında isə "Ə.Qarayev - Gənclər, İdman və Turizm naziri" sözləri "A.Rəhimov - Gənclər və İdman naziri" sözləri ilə əvəz edilsin;

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı"-nın 30-cu bəndinin "Qeydlər" hissəsinin 1-ci yarımbəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**6.** "İdman tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitinin xərclənməsi qaydaları və normalarının təsdiqi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 1 iyul tarixli 69 nömrəli qərarı ilə təsdiq edilmiş "Vahid təqvim planına uyğun olaraq keçirilən Ümumrespublika kütləvi bədən tərbiyəsi və idman tədbirlərinin iştirakçılarının maddi təminatı üçün vəsaitlərin xərclənməsinin qaydası və normaları"-nın 2.2-ci və 2.3-cü bəndlərində və "İdman tədbirlərinin xatirə prizlərinin dəyərinin normaları"nın "Qeyd" hissəsində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin; ***(qüvvədən düşüb - №8 - 18.01.2007)***

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 119 nömrəli qərarı ilə təsdiq edilmiş "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"nin II bölməsinin dördüncü və doqquzuncu abzaslarında "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 204 nömrəli qərarı ilə təsdiq edilmiş "Milli mədəniyyət sərvətlərinin mühafizə Qaydaları"nın 4-cü, 9-cu, 14-cü, 18-ci, 19-cu bəndlərində, "Milli mədəniyyət sərvətlərindən istifadə Qaydaları"nın 7-ci,

8-ci bəndlərində və "Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları"nın 2-ci, 3-cü bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli qərarı ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 3.5.6-cı bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 1.2-ci bəndinin 5-ci yarımbəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 1.1-ci bəndinin 5-ci yarımbəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 avqust tarixli 130 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının mədəniyyət sərvətlərinin milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınması Qaydası"nın 3-cü, 5-ci, 6-cı, 10-cu, 12-ci, 13-cü və 15-ci bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**13.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 5-ci bəndinin on ikinci abzasında "Mədəniyyət Nazirliyinin və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin" sözləri "Mədəniyyət və Turizm Nazirliyinin" sözləri ilə və 14.3-cü yarımbəndinin ikinci abzasında "Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələ-

rinin Mühafizəsi və Bərpası Komitəsi" sözləri "Mədəniyyət və Turizm Nazirliyi" sözləri ilə əvəz edilsin;

**14.** "Gənclər tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitinin xərclənməsi normativinin təsdiqi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 28 dekabr tarixli 206 nömrəli qərarının 1-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**15.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 30 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi"nin 1.2-ci, 4.2-ci, 7.1-ci və 7.4-cü bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**16.** "Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli qərarının 1-ci və 2-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**17.** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qərarlarına dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 10 may tarixli 84 nömrəli qərarının 4-cü bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**18.** "Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 19 iyun tarixli 103 nömrəli qərarının 1-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**19.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 avqust tarixli 133 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydası"nın 4.4-cü bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**20.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli 160 nömrəli qərarı ilə təsdiq edilmiş "Təsdiq olunmuş şə-

hərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydaları"nın 4.4-cü bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**21.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları"nın 2.12-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**22.** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İdman tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitinin xərclənməsi qaydaları və normalarının təsdiqi haqqında" 1997-ci il 1 iyul tarixli 69 nömrəli qərarının 1 nömrəli əlavəsinə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli 107 nömrəli qərarının 2-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**23.** "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 24 avqust tarixli 140 nömrəli qərarının adında, 1-ci bəndində və həmin qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin Əsasnaməsi"nin adında, 1.1-ci, 1.3-cü, 4.2-ci, 4.3-cü, 5.1-ci və 5.2-ci bəndlərində "Gənclər, İdman və Turizm" və "gənclər, idman və turizm" sözləri müvafiq olaraq "Gənclər və İdman" və "gənclər və idman" sözləri ilə əvəz edilsin;

**24.** "Respublika İdman Tibb Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 8 sentyabr tarixli 146 nömrəli qərarının 1-ci və 2-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**25.** "Uşaq-Gənclər İdman məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəblərinin Nümunəvi Əsasnaməsi-

nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 oktyabr tarixli 161 nömrəli qərarının preambulasında, həmin qərarla təsdiq edilmiş "Uşaq-Gənclər İdman məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəblərinin Nümunəvi Əsasnaməsi"nin 1-ci bölməsinin səkkizinci abzasında, 2-ci bölməsinin üçüncü abzasında, 4-cü bölməsinin ikinci və altıncı abzasında və 13-cü bölməsinin ikinci abzasında "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**26.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 168 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişikliklər edilən bəzi qərarlarının və sərəncamlarının Siyahısı"nın 2-ci, 4-cü, 5-ci, 6-cı, 8-ci, 9-cu, 11-ci, 12-ci, 13-cü, 18-ci, 19-cu, 21-ci, 23-cü və 25-ci bəndləri çıxarılsın;

**27.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli qərarı ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"nin 3.1.1-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**28.** "Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin tabeliyində olan müəssisə və təşkilatlarda idman tədbirləri iştirakçılarının ümumi və xüsusi təyinatlı geyimlər və fərdi idman avadanlıqları ilə təminat normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 iyul tarixli 119 nömrəli qərarının adında, 1-ci, 2-ci, 3-cü bəndlərində və həmin qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin tabeliyində olan müəssisə və təşkilatlarda idman tədbirləri iştirakçılarının ümumi və xüsusi təyinatlı geyimlər və fərdi idman avadanlıqları ilə təminat normaları"nın adında "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**29.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 26 noyabr tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə Qaydaları"nın III bölməsinin üçüncü abzasında "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**30.** "Respublika Olimpiya İdman Litseyində təhsil alan idmançı-şa-

girdlər üçün qida normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 yanvar tarixli 4 nömrəli qərarının 1-ci və 2-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**31.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 24 mart tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları"nın 6-cı və 7-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**32.** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli qərarına əlavə və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 11 may tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət sifarişi ilə istehsal edilən kinofilmlərin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları"nın 5.8-ci, 6.1-ci, 6.4-cü bəndlərində və 6.2-ci bəndinin "c" yarımbəndində "Mədəniyyət" və "mədəniyyət" sözləri müvafiq olaraq "Mədəniyyət və Turizm" və "mədəniyyət və turizm" sözləri ilə əvəz edilsin;

**33.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın XXXIII fəslinin 70-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**34.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 16 iyul tarixli 97 nömrəli qərarı ilə təsdiq edilmiş "Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası"nın 1.2-ci, 1.4-cü, 2.1-ci, 2.2-ci, 2.3-cü, 3.3-cü bəndlərində və 2.7-ci bəndinin altıncı abzasında "Gənclər, İdman və Turizm" sözləri "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**35.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli qərarı ilə təsdiq edilmiş "Büdcə xərclərinin inzibati təsnifatı"nda "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə və "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**36.** "Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi"nin

təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 26 oktyabr tarixli 161 nömrəli qərarı ilə təsdiq edilmiş "Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi"nin 1.1-ci, 1.4-cü, 6.1-ci, 7.2-ci və 9.2-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**37.** "Mədəniyyət sahəsinə xidmət edən bəzi müəssisələrin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 21 avqust tarixli 456 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 noyabr tarixli 170 nömrəli qərarının 1-ci bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**38.** "Respublika Stend Atıcılığı İdman Məktəbinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 85 nömrəli qərarının 1-ci və 2-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**39.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli 101 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəkərli diabet üzrə Dövlət Proqramı"nın "Dövlət Proqramı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan Tədbirlər"in 37-ci bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə və 39-cu bəndində "Gənclər, İdman və Turizm Nazirliyi" sözləri "Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi" sözləri ilə əvəz edilsin;

**40.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 122s nömrəli sərəncamının 9-cu və 10-cu bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**41.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 17 fevral tarixli 28s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi Proqramı"nın III bölməsinin 4-cü, 9-cu, 10-cu, 12-ci, 19-cu, 21-ci, 23-cü, 24-cü, 27-ci və 28-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə, 19-cu, 21-ci və 24-cü bəndlərində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin;

**42.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 3 fevral tarixli 25s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı"nın I bölməsinin 2-ci, 3-cü, 4-cü, 7-

ci, 8-ci, 10-cu bəndlərində, II bölməsinin 7-ci, 10-cu bəndlərində, III bölməsinin 2-ci bəndində, IV bölməsinin 4-cü bəndində və V bölməsinin 3-cü bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin;

**43.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 noyabr tarixli 232s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin Tədbirlər Planı"nın 2.19-cu bəndində "Mədəniyyət" sözü "Mədəniyyət və Turizm" sözləri ilə əvəz edilsin.

**II.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№119; 02.05.2006-cı il

## "Vahid təqvim planına uyğun olaraq keçirilən respublika və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları"nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

İdman tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitindən səmərəli istifadə olunması ilə bağlı Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Maliyyə Nazirliyi və Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Vahid təqvim planına uyğun olaraq keçirilən Respublika və Beynəlxalq Kütləvi Bədən Tərbiyəsi və İdman Tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, kütləvi bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsinə tələb olunan xərclərin hər il dövlət büdcəsində Gənclər və İdman Nazirliyinə "Bədən tərbiyəsi və idmanın təşkili" bölməsi üçün nəzərdə tutulmuş vəsait dairəsində maliyyələşdirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "İdman tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitinin xərclənməsi qaydaları və normalarının təsdiqi haqqında" 1997-ci il 1 iyul tarixli 69 nömrəli qərarı, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İdman tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitinin xərclənməsi qaydaları və normalarının təsdiqi haqqında" 1997-ci il 1 iyul tarixli 69 nömrəli və "Gənclər tədbirlərinin keçirilməsi üçün büdcə vəsaitinin xərclənməsi normativinin təsdiqi haqqında" 1999-cu il 28 dekabr tarixli 206 nömrəli qərarlarının 1 nömrəli əlavələrinə dəyişikliklər edilməsi haqqında" 2001-ci il 31 may tarixli 107 nömrəli qərarı, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər edilməsi barədə" 2003-cü il 8 aprel tarixli 47 nömrəli qərarının 6-cı bəndi, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər edilməsi haqqında" 2005-ci il 2 iyun tarixli 96 nömrəli qərarının 2-ci bəndi və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına və sərəncamlarına dəyişikliklər edilməsi barədə" 2006-cı il 2 may tarixli 119 nömrəli qərarının 6-cı bəndi qüvvədən düşmüş hesab edilsin.

**4.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№8; 18.01.2007-ci il,

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2007-ci il 18 yanvar tarixli*
*8 nömrəli qərarı ilə təsdiq edilmişdir*

# Vahid təqvim planına uyğun olaraq keçirilən respublika və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları

**1. Ümumi müddəalar**

**1.1.** Bu Qaydalar və Normalar idman tədbirlərinin iştirakçılarının maddi təminatı üçün xərclərin norma və qaydalarını müəyyənləşdirir.

**1.2.** İdman tədbirlərinə bədən tərbiyəsi və idman növləri üzrə yarışlar, tədris-məşq toplanışları, Azərbaycan Respublikasında keçirilən beynəlxalq yarışlar, habelə başqa ümumrespublika idman tədbirləri (bundan sonra - idman tədbirləri) aiddir.

**1.3.** İdman tədbirləri iştirakçılarının maddi təminat növlərinə aşağıdakılar aiddir:

- yemək haqqının ödənilməsi;
- farmakoloji bərpa vasitələri, vitaminlər, zülal-qlükoza preparatlarının və digər vəsaitlərin verilməsi;
- yaşayış sahəsi üçün kirayə haqqının ödənilməsi;
- hakimlik haqqının ödənilməsi;
- qaliblərin təltif olunması xərcləri;
- xarici idman nümayəndəliklərinə xidmət və onların qəbulu xərcləri;
- maddi təminatın digər növləri.

**1.4.** İdman tədbirlərinin iştirakçıları aşağıdakı şəxslərdən ibarət olur:

- idmançılar,
- hakimlər,
- məşqçilər,
- mütəxəssislər (mexaniklər, təmirçilər, mehtərlər, xoreoqraflar, akkompaniatorlar, habelə yarışlar haqqında qaydalarda, əsasnamələrdə və başqa normativ hüquqi sənədlərdə nəzərdə tutulmuş digər mütəxəssislər).

**1.5.** İştirakçıların idman tədbirlərinə göndərilməsi həmin tədbirləri

keçirən təşkilatın rəsmi dəvətnaməsi əsasında həyata keçirilir.

**1.6.** Bu Normalara uyğun olaraq keçirilən idman tədbirləri üçün xərclər xidməti ezamiyyə xərclərinin tərkibinə daxil edilmir.

## 2. İdman tədbirləri keçirilərkən vəsaitlərin xərclənməsi qaydaları

**2.1.** İdman tədbirləri keçirilərkən aşağıdakı sənədlər müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təsdiq olunur:

- yarış haqqında Əsasnamə (reqlament), xarici nümayəndələrin tədbir müddətində yaşayış proqramı, idman tədbirlərinin keçirilməsi qaydasını tənzimləyən digər sənədlər:
- idman tədbiri iştirakçılarının say həddini, tədbirin keçirilməsi müddətini və maddi təminat normalarını əhatə edən smeta.

**2.2.** Dövlət büdcəsindən Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə idman tədbirləri üçün ayrılan vəsait hesabına həyata keçirilən idman tədbirlərinə xərclər 1-6 nömrəli cədvəllərdə göstərilən normalara uyğun ödənilir.

**2.3.** Bu Qaydalarla müəyyən olunan normalar Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, federasiyalar və tədbiri keçirən digər təşkilatlar tərəfindən büdcədənkənar vəsaitlər, sponsor vəsaitləri, sifariş haqqı və digər mənbələr hesabına müstəqil olaraq artırıla bilər.

**2.4.** Yaşayış sahəsinin kirayəsi üzrə məsrəflər tədbirin keçirildiyi şəhərdə 1-ci kateqoriyalı birnəfərlik nömrənin dəyərindən çox olmamaqla, faktiki dəyərə görə həyata keçirilir.

**2.5.** Mehmanxanada yerlərin bronlaşdırılması idman tədbirləri iştirakçılarının gəlməsinə bir gün qalmış yerlərin bir günlük qiymətinin 50 faizə qədər miqdarında həyata keçirilə bilər.

**2.6.** İdman qurğularının və avadanlıqların icarəsi, nəqliyyat, poçt-teleqraf, dəftərxana xərcləri və digər xərclər qüvvədə olan tariflərə müvafiq olaraq həyata keçirilir.

**2.7.** İştirakçılar sırasına daxil olmayan, tədbirə cəlb edilmiş mütəxəssislərin və xidmət heyətinin əməyinin ödənilməsi üzrə xərclər faktiki yerinə yetirilmiş iş həcmi nəzərə alınmaqla, oxşar işlərə görə müvafiq sahələrdə əməyin ödənilməsi üçün qəbul olunmuş normaya

uyğun həyata keçirilir.

**2.8.** Keçirilən idman tədbirlərində iştirak etmək üçün yola bir gündən artıq vaxt sərf olunduqda yeməklə təmin olunmayan iştirakçıya yolda olduğu müddətə görə gündəlik xərc ödənilir.

İdman tədbirlərinin iştirakçılarının, başqa şəhərdən dəvət olunmuş mütəxəssislərin və xidmət heyətinin ezamiyyə xərcləri qüvvədə olan qanunvericiliklə xidməti ezamiyyələr üçün müəyyən olunmuş normalar üzrə ödənilir.

**2.9.** Xidməti ezamiyyətlər zamanı idman tədbiri iştirakçılarının əmək haqlarının saxlanılması qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

**2.10.** İdman tədbirlərinin keçirilməsi üçün xərclərin ödənilməsi yarışlar haqqında əsasnamələrdə, digər tənzimləyici normativ sənədlərdə, həmçinin tədbiri keçirən və iştirakçı təşkilatların ikitərəfli müqavilələrində göstərilir.

**2.11.** Digər kütləvi bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsi üçün vəsaitlərin xərclənməsi qaydaları və normaları Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və rayon (şəhər) icra hakimiyyəti başçıları tərəfindən ərazidəki qiymətlər, qüvvədə olan tariflər və yerli şərait nəzərə alınmaqla, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə razılaşdırıldıqdan sonra təsdiq edilir.

***1 nömrəli cədvəl***

## İdmançıların və idman tədbirlərinin digər iştirakçılarının yemək təminatının xərc normaları

| s/s | Tədbirlərin adı | Bir nəfərə gündəlik xərc norması (manatla) |
|---|---|---|
| 1 | Respublika bədən tərbiyəsi və idman tədbirləri, respublikadaxili yarışlar | 3 |
| 2 | Azərbaycan Respublikasının ərazisində keçirilən beynəlxalq yarışlar | 3 |
| 3 | 3. Xarici ölkələrdə keçirilən yarışlara hazırlıq üçün təlim-məşq toplanışları | 12 |

**Qeyd:** Yemək təminatının təşkilində nağdsız hesab imkanı olmadıqda, idman tədbirlərinin iştirakçılarına bu cədvəldə nəzərdə tutulmuş norma daxilində nağd pul ödənilməsinə icazə verilir.

*2 nömrəli cədvəl*

**İdman tədbirlərində idman hakimlərinə verilən ödənişlərin normaları**

| İdman növləri üzrə hakim vəzifələrinin adı | Hakim kateqoriyalarını nəzərə almaqla ödənclərin miqdarı (manatla) | | | |
|---|---|---|---|---|
| | BK | RK | İK | OH |
| 1. Baş hakim | 3 | 2,4 | 2 | - |
| 2. Baş hakim-katib | 3 | 2,4 | 2 | - |
| 3. Baş hakimin köməkçisi | 2,4 | 2 | 1,6 | - |
| 4. Hakimlər | 2 | 2 | 1,6 | 1,6 |
| 5. Komanda oyun növləri: | | | | |
| 6. Oyunun baş hakimi | 4 | 3 | 2,4 | - |
| 7. Oyunun baş hakiminin köməkçisi | 3 | 2,4 | 2 | - |
| 8. Komissar | 4 | - | - | - |
| 9. Hakimlər (briqadanın tərkibində) | 2 | 2 | 1,6 | 1,6 |

**Akronimlər:**

**BK** - Beynəlxalq kateqoriyalı ;
**RK** - Respublika kateqoriyalı
**İK** - İdman kateqoriyalı;
**OH** - Oyun hakimi

**Qeydlər:**

**1.** Hakimlər üçün müəyyən olunmuş məbləğlər idmanın komanda oyun növləri üzrə (futbol, voleybol, həndbol və s.) bir oyuna görə, digər idman növləri üzrə isə bir günlük xidmətə görə ödənilir.

2. İdman yarışlarına xidmətə görə hakimlərə verilən ödənclər bu Qaydalarda nəzərdə tutulan digər maddi təminat növlərindən asılı olmayaraq həyata keçirilir.

3. Yarışların hazırlıq və yekun mərhələlərində hakimlərin maddi təminatı (yeməyə, mənzilə, hakimliyə görə ödənclər) hakimlik işinin bütün dövrü üçün aşağıdakı kimi həyata keçirilir:
baş hakim, baş hakim-katib üçün - 5 günədək;

baş hakimin köməkçisi, baş hakim-katibin köməkçisi üçün - 3 günədək.

**4.** İdman federasiyaları öz vəsaitləri, habelə sifariş ödəmələri hesabına idman hakimlərinə ödənclərin müəyyən olunmuş miqdarını artırmaq səlahiyyətinə malikdirlər.

**5.** Rəsmi beynəlxalq yarışlara xidmətə görə hakimlərə müəyyən olunmuş ödənclər həmin yarışların reqlamenti ilə nəzərdə tutulmuş qaydada və miqdarda verilir.

**6.** Hakim kollegiyasının (briqadasının) say tərkibi idman növləri üzrə yarışların keçirilməsi haqqında qaydalara və əsasnamələrə uyğun olaraq müəyyənləşdirilir.

**7.** Beynəlxalq yarışların, çempionatların və Azərbaycan Kuboku oyunlarının təşkili və keçirilməsinə dəvət olunmuş yüksək ixtisaslı hakimlər və mütəxəssislər sırasından müfəttişlər, yaxud texniki nümayəndələr üçün nəzarət haqqı oyunların baş hakimi üçün nəzərdə tutulmuş miqdarda müəyyən olunur.

**8.** Beynəlxalq federasiya tərəfindən təyin olunmuş xarici texniki nümayəndələrə və hakimlərə beynəlxalq kateqoriyalı hakimlər üçün nəzərdə tutulmuş miqdarda ödənclər həyata keçirilir.

*3 nömrəli cədvəl*

## Farmakoloji və bərpa vəsaitləri, vitamin və zülal-qlükoza preparatları, ümumi müalicə təyinatlı dərmanlar və sarğı vəsaitləri ilə təminatın xərc normaları

| İdman tədbirlərinin adı | Bir nəfərə düşən gündəlik xərc norması (manatla) |
|---|---|
| 1. Ümumrespublika yarışları | 2 manata qədər |
| 2. Azərbaycan Respublikasının ərazisində keçirilən beynəlxalq yarışlar və bu yarışlara hazırlıqla əlaqədar təlim-məşq toplanışları | 5 manata qədər |

**Qeyd:** Normalar hesablama üçündür və ayrılmış vəsait həddində komanda, yaxud ayrı-ayrı idmançılar üçün yığma komandanın baş məşqçisinin və həkiminin təqdimatı ilə onların hazırlıq xüsusiyyətindən asılı olaraq dəyişdirilə bilər.

*4 nömrəli cədvəl*

**İdman tədbirləri üçün xatirə prizlərinin dəyər normaları**

| İdman tədbirlərinin miqyası | *Prizlərin dəyəri (manatla)* | |
|---|---|---|
| | Komanda | Şəxsi |
| 1. Azərbaycan Respublikası ərazisində keçirilən beynəlxalq yarışlar | 50 manata qədər | 40 manata qədər |
| 2. Ümumrespublika yarışları | 40 manata qədər | 30 manata qədər |

**Qeyd:** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi öz büdcədənkənar vəsaiti, federasiya və idman cəmiyyətləri isə öz gəlirləri hesabına yarışların, oyunların, mərhələlərin və turnirlərin ən yaxşı idmançısı üçün xüsusi mükafatlar müəyyənləşdirmək səlahiyyətinə malikdirlər.

*5 nömrəli cədvəl*

**İdman tədbirlərinin xarici iştirakçılarının qəbulu və onlara xidmət üçün xərc normaları**

| Sıra №-si | Xərclərin adı | Xərc norması (manatla) |
|---|---|---|
| 1. | Olimpiya komitələrinin prezidentlərinin, Beynəlxalq Federasiyaların prezidentlərinin, iri şirkətlərin rəhbərlərinin, onların müavinlərinin, həmçinin görkəmli dövlət və ictimai xadimlərin rəhbərlik etdikləri nümayəndəliklərin qəbulu və onlara xidmət | |
| 1.1 | Mehmanxana: | |
| | Nümayəndə heyətinin rəhbəri üçün | yarımlüks kateqoriyalı nömrə |
| | Nümayəndə heyətinin üzvləri üçün | bir yerlik nömrə |
| 1.2 | Nümayəndə heyətinin bir nəfər üzvünə gündəlik yemək norması | 20 |
| 1.3 | Rəsmi qəbulun keçirilməsi üçün bir nəfər iştirakçıya | 7 |
| 1.4 | Danışıqlar apararkən, teatrda və səfərdə olarkən bufet xidmətinə görə nümayəndə heyətinin bir nəfər üzvünə gündəlik xərc norması | 0,8 |
| 1.5 | Bir nəfər iştirakçıya gündəlik mədəni proqram | 1,6 |

| | | |
|---|---|---|
| 1.6 | Suvenirlərin alınması: | |
| | Nümayəndə heyətinin rəhbərinə | 10 |
| | Nümayəndə heyətinin üzvlərinə | 5 |
| 1.7 | Avtomobil nəqliyyatı ilə xidmət<br>Nümayəndə heyətinin rəhbəri üçün | 1 minik avtomobili,<br>gündə 15 saata qədər |
| | Nümayəndə heyətinin üç nəfər üzvü üçün | 1 minik avtomobili,<br>gündə 10 saata qədər |
| 1.8 | Ölkədə hərəkət | |
| | Hava nəqliyyatı ilə | reys təyyarəsi |
| | Dəmir yolu ilə | yatacaqlı vaqon |
| 1.9 | Bir nəfərə gündəlik sair xərclər (pasportların qeydiyyatı, poçt-teleqraf xərcləri, yükdaşıyanların haqqının ödənilməsi və s) | 2 |
| 2. | İdmançılardan, mütəxəssislərdən və rəsmi şəxslərdən ibarət xarici nümayəndəliklərin qəbulu və onlara xidmət | |
| 2.1 | Mehmanxana | |
| | Nümayəndə heyətinin rəhbəri üçün | bir yerlik nömrə |
| | Nümayəndə heyətinin üzvləri üçün | bir yerlik, yaxud iki yerlik nömrə |
| 2.2 | Nümayəndəliyin bir nəfər üzvünün gündəlik yemək xərci | 20 |
| 2.3 | Rəsmi qəbulun keçirilməsi üçün bir nəfər iştirakçıya | 6 |
| 2.4 | Bir nəfər iştirakçıya mədəni proqram (bir tədbir üçün) | 2 |
| 2.5 | Avtomobil nəqliyyatı ilə xidmət<br>Nümayəndə heyəti üçün | nümayəndə heyəti üzvlərinin sayından asılı olaraq 12 saata qədər müddətə 1 minik avtomobili, avtobus, idman inventarının daşınması üçün isə yük avtomobili (zəruri hallarda) |
| 2.6 | Ölkədə hərəkət | |
| | Hava nəqliyyatı ilə | reys təyyarəsi |
| | Dəmiryolla | yatacaqlı vaqon |

| | | |
|---|---|---|
| 2.7 | Suvenirlərin alınması: | |
| | Nümayəndəliyin rəhbəri üçün | 6 manata qədər |
| 2.8 | Bir nəfərə gündəlik sair xərclər (pasportların qeydiyyatı, poçt-teleqraf xərcləri, yükdaşıyanların haqqının ödənilməsi və s. ) | 2 |

## Qeydlər:

1. Mehmanxanada nömrənin bronlaşdırılması ilə bağlı xərclər mehmanxananın gündəlik haqqının ödənilməsi üçün müəyyən edilmiş tarif üzrə ödənilir.
2. Avtomobil nəqliyyatından istifadəyə görə haqq nümayəndə heyətinin qəbul olunduğu şəhərdə qüvvədə olan tarif üzrə ödənilir.
3. Hava və dəmiryol nəqliyyatının haqqı müvafiq sahədə qüvvədə olan tarif üzrə ödənilir.
4. Nümayəndə heyəti üçün bir qəbul keçirilə bilər. Dünya və Avropa çempionatında ayrı-ayrı hallarda iki rəsmi qəbul keçirilməsinə icazə verilir (tədbirin açılışı və bağlanışı).
5. Xarici idman nümayəndə heyəti üzvlərinə cibxərcliyi üçün pul yalnız beynəlxalq idman əməkdaşlığı haqqında ikitərəfli protokollara əsasən verilir.
6. Xarici idman nümayəndə heyəti üzvlərinin yeməklə təminat norması hesablanmalıdır və bu məqsəd üçün ayrılmış vəsait həddində konkret nümayəndə heyətinin qəbulu üçün həmin qəbulun xüsusiyyətləri nəzərə alınmaqla dəyişdirilə bilər.
7. Xarici nümayəndə heyəti üzvlərinə onların xahişi əsasında 5 nömrəli cədvəldə müəyyən olunmuş norma üzrə nağd pul verilə bilər.
8. Qəbul edən tərəfin danışıqlarda iştirak edən nümayəndəsinə, tərcüməçiyə (müşayiət edən şəxsə) zəruri hallarda müvafiq xarici nümayəndə heyəti üçün müəyyən edilmiş yemək, yaşayış sahəsi, nəqliyyat, mədəni xidmət təminatı, hava, yaxud dəmiryol nəqliyyatı ilə hərəkət normaları şamil edilir.
9. Nümayəndə heyətini qəbul edən təşkilatın ştatında olmayan tərcüməçinin (müşayiət edən şəxsin) əməyinin ödənilməsi bir saata 1 manat hesabı ilə həyata keçirilir.
10. Üzvlərinin sayı 15 nəfərdən çox olmadıqda, xarici nümayəndə heyətinə 1 nəfər tərcüməçi (müşayiət edən şəxs) müəyyən edilir.
    Üzvlərinin sayı 15 nəfərdən çox olduqda, xarici nümayəndə heyətinin tərkibi 15 nəfərə qədər olan (15-dən az olmamaqla) hər qrupu 1 nəfər tərcüməçi (müşayiət edən şəxs) müəyyən edilir.
11. İdman yarışlarında hakimlik üçün dəvət olunmuş xarici hakimlərin qəbulu 5 nömrəli cədvəlin 2-ci bölməsinə müvafiq olaraq həyata keçirilir.

*6 nömrəli cədvəl*

**Azərbaycan Respublikası yığma komandalarının beynəlxalq yarışlarda iştirak etməsi üçün xərc normaları**

| Sıra №-si | Xərclərin adı | Xərc norması (xarici valyuta ilə) |
|---|---|---|
| 1. | Xarici ölkələrə ezamiyyə xərcləri: gündəlik və kommunal xərclər | Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilmiş miqdarda ödənilir. |
| 2. | Rabitə xərcləri (telefon, teleqraf, telefaks) | 50 ABŞ dollarına qədər |

**Qeydlər:**

1. İkitərəfli beynəlxalq razılaşmalarda nəzərdə tutulmuş digər xərclər (yarışlara bilet alınması üçün avans, iştirak haqqı, start haqqı, katerlərin icarə xərci, katerlər üçün benzin, masaj, idman formasının yuduzdurulması, idman qurğusunun icarəsi, atların hazırlanması, tibbi müayinə, ələf haqqının ödənilməsi, tövlənin icarəsi, gömrük rüsumu, dəmirçi əməyinin ödənilməsi, bərə haqqının ödənilməsi və s.) təsdiqedici sənədlər təqdim olunduqda, faktiki tələbata görə ödənilir.
2. Avtomobil nəqliyyatı ilə tranzit daşımaları vaxtı yanacaq-sürtkü materiallarının miqdarı bütün keçid məntəqələri və nəqliyyat vasitəsinin növü göstərilməklə, xəritə sxemi təqdim olunduqda, hesablama yolu ilə müəyyən edilir.
3. Rabitə xərci norması komanda üçün nəzərdə tutulur.

# Bayram və ümumxalq hüzn gününün əmək məzuniyyəti dövrünə düşdüyü hallarda əmək məzuniyyətinin müddətinin uzadılması barədə

## İZAHAT

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələr, o cümlədən Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş Beynəlxalq Əmək Təşkilatının "Ödənişli məzuniyyətlər haqqında" 132 №-li Konvensiyası aid edilir.

"Ödənişli məzuniyyətlər haqqında" 132 №-li Konvensiyanın 6-cı maddəsinə əsasən rəsmi və ənənəvi bayram və qeyri-iş günləri işçinin illik əmək məzuniyyəti dövrünə düşüb - düşməməsindən asılı olmayaraq illik ödənişli əmək məzuniyyətinin bir hissəsi kimi hesaba alınmırlar.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-ci maddəsi ilə hər il iş günü hesab olunmayan aşağıdakı bayram günləri müəyyənləşdirilmişdir:

**1-2 yanvar** - Yeni il;
**8 mart** - Qadınlar günü;
**9 may** - Faşizm üzərində qələbə günü;
**28 may** - Respublika günü;
**15 iyun** - Azərbaycan xalqının milli qurtuluş günü;
**26 iyun** - Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü;
**31 dekabr** - Dünya azərbaycanlılarının həmrəyliyi günü;
**Novruz bayramı** - 5 gün;
**Qurban bayramı** - 2 gün;
**Ramazan bayramı** - 2 gün.

Əmək Məcəlləsinin 106-cı maddəsinə əsasən hər il yanvar ayının 20-si Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad etmə günü - ümumxalq hüzn günüdür və bu gün iş günü hesab edilmir.

Beynəlxalq Əmək Təşkilatının "Ödənişli məzuniyyətlər haqqında" 132 №-li Konvensiyanın 6-cı maddəsinin və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci, 6-cı hissələrinin və 114-cü maddəsinin 5-ci hissəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasında bayram günləri və ümumxalq hüzn günü əmək məzuniyyəti dövrünə düşdükdə (istirahət günlərinə düşüb-düşməməsindən asılı olmayaraq) əmək məzuniyyətinin müddəti bu günlərin sayı qədər haqqı ödənilmədən uzadılır.

Bu İzahatın tətbiqi ilə əlaqədar "Bayram və ümumxalq hüzn gününün əmək məzuniyyəti dövrünə düşdüyü hallarda əmək məzuniyyətinin müddətinin uzadılması barədə" Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2006-cı il 13 yanvar tarixli 11/34-12 nömrəli və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 13 yanvar 2006-cı il № 15b.18ə nömrəli birgə İzahatı qüvvəsini itirmiş hesab edilsin.

***Azərbaycan Respublikasının Əmək***
***və Əhalinin Sosial Müdafiəsi Nazirliyi***
***19 fevral 2007-ci il, № 11/34-82***

***Azərbaycan Həmkarlar İttifaqları Konfedrasiyası***
***11 yanvar 2007-ci il, № 19b390***

## "Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) əlavə"

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 5 may 2000-ci il tarixli, 8-2 nömrəli kollegiya qərarı ilə təsdiq edilmiş (Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 16 may 2000-ci il tarixində 1258 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış) və 14 iyul 2004-cü il tarixli 9-3 nömrəli kollegiya qərarı ilə təsdiq edilərək dəyişikliklər edilmiş (Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 30 iyul 2004-cü il tarixində 3073 nömrəli şəhadətnamə ilə

dövlət qeydiyyatına alınmış) "Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) əlavə edilməsi haqqında Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 57-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyası **qərara alır:**

"Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) əlavə təsdiq edilsin (əlavə olunur).

## "Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) əlavə

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 57-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq "Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) aşağıdakı əlavə edilsin:

1. "Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın (hissə 77) Tarif-ixtisas xüsusiyyətləri bölməsinin "Mütəxəssislər" hissəsində "İdman üzrə məşqçi-müəllim" vəzifəsinin "Ödəniş dərəcəsinə ixtisas tələbləri" mətninin sonuna aşağıdakı məzmunda yeni abzas əlavə olunsun:

"14-cü dərəcə: ali bədən tərbiyəsi və ya orta ixtisas təhsili və "Azərbaycan Respublikasının əməkdar məşqçi-müəllimi" fəxri adı olan idman üzrə məşqçi-müəllim və ya baş məşqçi-müəllim".

***Azərbaycan Respublikasının***
***Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb.***
***Qeydiyyat №3286, 23 fevral 2007-ci il***

***Azərbaycan Respublikasının Əmək***
***və Əhalinin Sosial Müdafiəsi Nazirliyi***
***Kollegiyasının 2№-li qərarı ilə təsdiq edilib.***
***12 fevral 2007-ci il***

# "Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 24 mart tarixli 39 nömrəli qərarına dəyişiklik edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 24 mart tarixli 39 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №3, maddə 171; 2006-cı il, №5, maddə 463) ilə təsdiq edilmiş "Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları"nın 4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"4. Hər ay hər bir idmançıya 200 (iki yüz) manat, onun məşqçisinə 160 (yüz altmış) manat, baş məşqçi və komandanın məşqçisinin hər birinə 100 (yüz) manat məbləğində təqaüd ödənilir".

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№143; 25.09.2007-ci il

# "Olimpiya idman növləri üzrə Milli Yığma Komandaların baş məşqçilərinə aylıq vəzifə maaşlarının təyin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli qərarında dəyişiklik edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Olimpiya idman növləri üzrə milli yığma komandaların baş məşqçilərinə aylıq vəzifə maaşlarının təyin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №5, maddə 453) 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1. Olimpiya idman növləri üzrə milli yığma komandaların baş məşqçilərinə aylıq vəzifə maaşları 280 (iki yüz səksən) manat məbləğində təsdiq edilsin".

**2.** Bu qərar 2007-ci il noyabrın 1-dən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№177; 12.11.2007-ci il

# Ezamiyyə xərclərinin normaları haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

Dövlət büdcəsi xərclərinin proqnozlaşdırılmasında istifadə olunan ezamiyyə xərclərinin normalarını təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Bakı şəhərində 35,0 manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 25,0 manat, respublika tabeli digər şəhərlərdə 20,0 manat, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 15,0 manat muəyyən edilsin.

**2.** "Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları" təsdiq edilsin (1 nömrəli əlavə).

**3.** "Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası" təsdiq edilsin (2 nömrəli əlavə).

**4.** Müəyyən edilsin ki, ezamiyyə xərclərinin 1 günlük normasına gündəlik mehmanxana, rabitə, şəhərdaxili nəqliyyat (taksidən istifadə istisna olmaqla) və digər xidmətlər ilə bağlı xərclər daxildir.

**5.** Nəqliyyat xərcləri (ezam olunma yerinə getmək və qayıtmaq, ölkədaxili xərclər) təqdim edilən sənədlər əsasında ödənilir.

**6.** Daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə hər gün üçün 5,0 manat əlavə vəsait verilir.

**7.** Müəyyən edilsin ki:

büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda ezamiyyə xərcləri onlara bu məqsəd üçün büdcədə nəzərdə tutulan vəsaitlər dairəsində, digər təşkilatlarda isə onların öz vəsaitləri hesabına ödənilir;

büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlar istisna olmaqla digər təşkilatlar ezamiyyə xərclərinin ödənilməsi üçün öz sərən-

camlarında qalan mənfəət hesabına bu qərarla müəyyən edilmiş normalardan əlavə vəsait ayıra bilərlər;

büdcədən maliyyələşdirilən dövlət orqanlarında işin xüsusiyyətləri ilə əlaqədar olaraq Azərbaycan Respublikasının ərazisi daxilində xidməti minik avtomobilləri ilə xidməti ezamiyyətə gedilməsi zəruri olan hallarda avtomobil nəqliyyatı vasitələri üçün müəyyən edilmiş aylıq yürüş həddindən artıq yol qət edildiyi təqdirdə, sərf edilən yanacağın dəyəri təsdiqedici sənədlər əsasında ezamiyyə xərcləri üçün nəzərdə tutulmuş vəsaitlər hesabına nəqliyyat xərci kimi ödənilir.

**8.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 1 ay müddətində "İşçilərin ezamiyyə qaydaları"nı hazırlayıb müvafiq qaydada təsdiq etsinlər.

**9.** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı" təsdiq edilsin (əlavə olunur).

**10.** Bu qərar 2008-ci il martın 1-dən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№ 14; 25.01.2008-ci il

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2008-ci il 25 yanvar tarixli 14 nömrəli*
*qərarı ilə təsdiq edilmişdir*

(1 nömrəli əlavə)

## Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları

| № | Ölkənin adı | Valyutaların adı | Ezamiyyə xərclərinin 1 günlük norması |
|---|---|---|---|
| 1. | Rusiya Federasiyası<br>Moskva və Sankt-Peterburq şəhərləri | | 150<br>240 |
| 2. | Tacikistan<br>Düşənbə şəhəri | ABŞ dolları | 140<br>160 |
| 3. | Özbəkistan<br>Daşkənd şəhəri | ABŞ dolları | 100<br>160 |
| 4. | Belarus<br>Minsk şəhəri | ABŞ dolları | 140<br>180 |
| 5. | Ukrayna<br>Kiyev şəhəri | ABŞ dolları | 160<br>210 |
| 6. | Moldova<br>Kişinyov şəhəri | ABŞ dolları | 110<br>150 |
| 7. | Qazaxıstan<br>Almatı və Astana şəhərləri | ABŞ dolları | 130<br>200 |
| 8. | Qırğızıstan<br>Bişkek şəhəri | ABŞ dolları | 130<br>160 |
| 9. | Gürcüstan<br>Tbilisi şəhəri | ABŞ dolları | 140<br>155 |
| 10. | Türkmənistan<br>Aşqabad şəhəri | ABŞ dolları | 95<br>130 |
| 11. | Latviya<br>Riqa şəhəri | avro | 105<br>140 |
| 12. | Litva<br>Vilnüs şəhəri | avro | 120<br>145 |

| | | | |
|---|---|---|---|
| 13. | Estoniya<br>Tallin şəhəri | avro | 95<br>140 |
| 14. | Böyük Britaniya<br>London şəhəri | İngiltərə funt sterlinqi | 170<br>190 |
| 15. | Lixtenşteyn | avro | 200 |
| 16. | Avstriya | avro | 185 |
| 17. | Almaniya | avro | 225 |
| 18. | Belçika | avro | 215 |
| 19. | İrlandiya | avro | 215 |
| 20. | Monako | avro | 195 |
| 21. | Norveç | avro | 225 |
| 22. | Niderland | avro | 225 |
| 23. | San-Marino | avro | 215 |
| 24. | Fransa<br>Paris şəhəri | avro | 205<br>250 |
| 25. | Türkiyə<br>Ankara və İstanbul şəhərləri | avro | 150<br>165 |
| 26. | İtaliya | avro | 185 |
| 27. | Xorvatiya | avro | 185 |
| 28. | Bosniya və Herseqovina | avro | 160 |
| 29. | Danimarka | avro | 180 |
| 30. | İsveçrə | avro | 210 |
| 31. | Lüksemburq | avro | 190 |
| 32. | Makedoniya | avro | 190 |
| 33. | Kipr | avro | 160 |
| 34. | Macarıstan | avro | 160 |
| 35. | Malta | avro | 160 |
| 36. | Portuqaliya | avro | 170 |
| 37. | Slovakiya | avro | 160 |
| 38. | Finlandiya | avro | 210 |
| 39. | Çexiya | avro | 190 |

| | | | |
|---|---|---|---|
| 40. | Serbiya | avro | 155 |
| 41. | Çernoqoriya | avro | 155 |
| 42. | Andorra | avro | 200 |
| 43. | Albaniya | avro | 160 |
| 44. | Yunanıstan | avro | 180 |
| 45. | İslandiya | avro | 190 |
| 46. | İspaniya | avro | 200 |
| 47. | Polşa | avro | 175 |
| 48. | İsveç | avro | 225 |
| 49. | Bolqarıstan | avro | 135 |
| 50. | Rumıniya | avro | 175 |
| 51. | Sloveniya | avro | 145 |
| 52. | ABŞ<br>Nyu-York şəhəri | ABŞ dolları | 330<br>350 |
| 53. | Argentina | ABŞ dolları | 195 |
| 54. | Braziliya | ABŞ dolları | 225 |
| 55. | Kanada | ABŞ dolları | 190 |
| 56. | Meksika | ABŞ dolları | 165 |
| 57. | Amerika qitəsi üzrə digər ölkələr | ABŞ dolları | 165 |
| 58. | Bəhreyn | ABŞ dolları | 165 |
| 59. | Səudiyyə Ərəbistanı | ABŞ dolları | 165 |
| 60. | BƏƏ | ABŞ dolları | 235 |
| 61. | İordaniya | ABŞ dolları | 140 |
| 62. | İran | ABŞ dolları | 160 |
| 63. | Qətər | ABŞ dolları | 180 |
| 64. | Küveyt | ABŞ dolları | 180 |
| 65. | Oman | ABŞ dolları | 170 |
| 66. | Suriya | ABŞ dolları | 160 |
| 67. | İraq | ABŞ dolları | 160 |
| 68. | İsrail | ABŞ dolları | 170 |
| 69. | Livan | ABŞ dolları | 170 |

| | | | |
|---|---|---|---|
| 70. | Liviya | ABŞ dolları | 170 |
| 71. | Bruney | ABŞ dolları | 155 |
| 72. | Yəmən | ABŞ dolları | 185 |
| 73. | Əlcəzair | ABŞ dolları | 165 |
| 74. | Mərakeş | ABŞ dolları | 180 |
| 75. | Misir | ABŞ dolları | 180 |
| 76. | Tunis | ABŞ dolları | 180 |
| 77. | Seneqal | ABŞ dolları | 185 |
| 78. | Sudan | ABŞ dolları | 165 |
| 79. | Cibuti | ABŞ dolları | 155 |
| 80. | Çad | ABŞ dolları | 225 |
| 81. | CAR | ABŞ dolları | 240 |
| 82. | Afrika qitəsi üzrə digər ölkələr | ABŞ dolları | 155 |
| 83. | Çin | ABŞ dolları | 185 |
| 84. | Sinqapur | ABŞ dolları | 235 |
| 85. | Tailand | ABŞ dolları | 205 |
| 86. | Malayziya | ABŞ dolları | 205 |
| 87. | Şri-Lanka | ABŞ dolları | 155 |
| 88. | Hindistan | ABŞ dolları | 155 |
| 89. | Nepal | ABŞ dolları | 155 |
| 90. | Banqladeş | ABŞ dolları | 155 |
| 91. | Pakistan | ABŞ dolları | 165 |
| 92. | Samoa | ABŞ dolları | 145 |
| 93. | Monqolustan | ABŞ dolları | 145 |
| 94. | Laos | ABŞ dolları | 155 |
| 95. | Vyetnam | ABŞ dolları | 155 |
| 96. | İndoneziya | ABŞ dolları | 205 |
| 97. | Əfqanıstan | ABŞ dolları | 175 |
| 98. | Kamboca | ABŞ dolları | 175 |
| 99. | Mavritaniya | ABŞ dolları | 175 |

| | | | |
|---|---|---|---|
| 100. | Mali | ABŞ dolları | 195 |
| 101. | Maldiv adaları | ABŞ dolları | 165 |
| 102. | Hibraltar | avro | 150 |
| 103. | Şimali Koreya | ABŞ dolları | 225 |
| 104. | Koreya Respublikası | ABŞ dolları | 245 |
| 105. | Yaponiya | Yapon iyeni | 34720 |
| 106. | Filippin | ABŞ dolları | 210 |
| 107. | Yeni Zelandiya | ABŞ dolları | 195 |
| 108. | Avstraliya və Okeaniya | ABŞ dolları | 195 |

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2008-ci il 25 yanvar tarixli 14 nömrəli*
*qərarı ilə təsdiq edilmişdir*

(2 nömrəli əlavə)

## Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası

| s/s | Rəhbər işçinin vəzifəsi | Əlavə (faizlə) |
|---|---|---|
| 1. | Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri;<br>Azərbaycan Respublikası Baş nazirinin müavinləri;<br>Azərbaycan Respublikasının baş prokuroru;<br>Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman);<br>Azərbaycan Respublikası Hesablama Palatasının sədri;<br>Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının sədri;<br>Azərbaycan Respublikası Milli Məclisinin deputatları;<br>Azərbaycan Respublikası Milli Məclis Aparatının rəhbəri;<br>Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri;<br>Mərkəzi İcra Hakimiyyəti orqanlarının rəhbərləri | 50 |
| 2. | Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədr müavini və hakimləri;<br>Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini;<br>Azərbaycan Respublikası Baş Prokurorunun müavinləri;<br>Azərbaycan Respublikası Hesablama Palatasının sədr müavini və auditorları;<br>Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədr müavini;<br>Azərbaycan Respublikası Apelyasiya məhkəmələrinin sədrləri və sədr müavinləri;<br>Məhkəmə-Hüquq Şurasının üzvləri;<br>Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin sədrləri və sədr müavinləri;<br>Mərkəzi İcra Hakimiyyəti orqanları rəhbərlərinin müavinləri | 30 |
| 3. | Azərbaycan Respublikasının dövlət və hökumət səviyyəsində rəsmi nümayəndə heyətlərinin xarici ölkələrə rəsmi səfərləri ilə bağlı protokol tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar ezam olunan şəxslər | 25 |

**Qeyd.** Cədvəlin 1-ci bəndində göstərilən şəxslərə xidməti ezamiyyətlər

zamanı ezamiyyə xərclərinin 1 günlük normasının 10 faizi məbləğində hər gün üçün nümayəndəlik xərcləri ödənilir. Həmin şəxslərə və diplomatik fəaliyyəti dövründə Fövqəladə və Səlahiyyətli Səfir dərəcəsi olanlara nəqliyyat xərcləri təyyarə üçün "biznes klass", dəmiryol qatarları üçün "biznes klass" və ya "2 yerli kupeli yumşaq vaqon" tarifləri ilə ödənilir, bütün digər hallarda nəqliyyat xərcləri təyyarə üçün "ekonom klass", dəmiryol qatarları üçün "4 yerli kupeli vaqon" tarifləri ilə ödənilir.

Azərbaycan Respublikasının dövlət və hökumət səviyyəsində rəsmi nümayəndə heyətinin rəhbərləri beynəlxalq tədbirlərdə və ikitərəfli görüşlərdə iştirak etmək üçün xarici ölkələrə ezam olunduqda, qəbul edən tərəfin protokol qaydalarına uyğun olaraq mehmanxanada yerləşdirildikdə, ezamiyyə xərcləri təqdim olunmuş sənədlərə əsasən faktiki mehmanxana xərclərinin 1 günlük məbləği ezamiyyə xərclərinin 1 günlük normasının cədvəldəki əlavələr nəzərə alınmaqla 60 faizindən çox olduğu hallarda, həmin fərq mehmanxana günləri üçün ezamiyyə xərclərinə əlavə xərc olaraq ödənilir. Bu qayda ilə mehmanxanada yerləşdirilən həmin rəsmi nümayəndə heyətinin digər üzvlərinin ezamiyyə xərcləri təqdim olunmuş sənədlər əsasında müvafiq ölkələr üzrə müəyyən edilmiş ezamiyyə xərclərinin 1 günlük normasından 1,5 dəfədən çox olmamaq şərti ilə ödənilir.

Dövlət və hökumət nümayəndə heyətinə Azərbaycan Respublikasının Hökuməti adından çıxış etmək səlahiyyəti və ya tapşırığı verilmiş nümayəndə heyətləri aid edilir.

Cədvəldə göstərilən rəhbər işçilər onlar üzün müəyyən edilmiş əlavələrdən yalnız birini almaq hüququna malikdirlər.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2008-ci il 25 yanvar tarixli 14 nömrəli*
*qərarı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının siyahısı

**1.** ”Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №3, maddə 220, №7 maddə 514; 2002-ci il, №7, maddə 453; 2003-cü il, №9, maddə 532; 2004-cü il, №12, maddə 1068; 2005-ci il, №6, maddə 547, №10, maddə 986; 2006-cı il, №4, maddə 383) 7-ci bəndi istisna olmaqla.

**2.** “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 26 iyul tarixli 127 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №7, maddə 514).

**3.** “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmiş “Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərcləri normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”na əlavə edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 iyul tarixli 115 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №7, maddə 453).

**4.** “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmiş “Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərcləri normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”na əlavə edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 26 sentyabr tarixli 125 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №9, maddə 532).

**5.** “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respub-

likası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 dekabr tarixli 187 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №12, maddə 1068).

**6.** "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına əlavə edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 iyun tarixli 111 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №6, maddə 547).

**7.** "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına dəyişiklik və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 oktyabr tarixli 193 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №10, maddə 986).

**8.** "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 16 mart tarixli 66 nömrəli qərarına dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 24 aprel tarixli 115 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №4, maddə 383).

**Təşkilatın ştampı**

**İşçilərin Ezamiyyə Qaydalarına əlavə**

## _____ №- li EZAMİYYƏT VƏSİQƏSİ

_______________________________________________

*(Adı, soyadı, iş yeri, vəzifəsi )*

_______________________________________________

*(ezam olunduğu təşkilatın adı )*

_______________________________________________

*(ezamiyyənin məqsədi)*

_____________________ "___" gün müddətində (yolda olduğu vaxt

*(təyinat məntəqəsi)*

nəzərə alınmadan) ezam olunur.

**Şəxsiyyəti təsdiq edən sənəd təqdim edildikdə etibarlıdır**

**Təşkilatın rəhbəri**

______________________

M.Y İmza

"___"_________200__il

Ezamiyyətə çıxması, təyinat məntəqəsinə gəlməsi,
oradan çıxması və daimi iş yerinə gəlməsi haqqında qeydlər:

**Ezamiyyət vəsiqəsinin arxa tərəfi**

______dan (dən) çıxdı
"___"_____200_il
M.Y. imza______

_____________gəldi
"___"______200__il
M.Y. imza_______

______dan (dən) çıxdı
"___"_____200_il
M.Y. imza______

_____________gəldi
"___"______200__il
M.Y. imza_______

______dan (dən) çıxdı
"___"_____200_il
M.Y. imza______

_____________gəldi
"___"______200__il
M.Y. imza_______

# İşçilərin Ezamiyyə Qaydaları

**I Ümumi müddəalar**

**1.** Dövlət orqanının, müəssisə, idarə və təşkilatın (bundan sonra təşkilatın) rəhbərinin sərəncamı (əmri) ilə işçinin daimi iş yerindən müəyyən olunmuş müddətə başqa yerə xidməti tapşırığı yerinə yetirmək üçün getməsi xidməti ezamiyyət sayılır.

Daimi işi yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) işçilərin xidməti gedişi ezamiyyət sayılmır.

**2.** Təşkilatların işçilərinin ezamiyyətə göndərilməsi həmin təşkilatların rəhbərləri tərəfindən müəyyən edilir və müvafiq əmrlə rəsmiləşdirilir.

Dəvət edən tərəf ezamiyyə xərclərinin ödənilməsini öz üzərinə götürdüyü hallarda, ezamiyyə xərclərinin ödənilməsi ilə bağlı müddəalar əmrdə öz əksini tapmalıdır. Respublikadaxili ezamiyyələr zamanı müvafiq əmrlə yanaşı işçiyə bu Qaydaların əlavəsinə uyğun olaraq "Ezamiyyə vəsiqəsi" verilir.

**3.** İşçilərin tabeçilik qaydasında yuxarı təşkilata xidməti ezamiyyətləri qarşılıqlı razılaşma və yaxud yuxarı təşkilatın dəvəti əsasında həyata keçirilir.

**4.** İşçilərin ezamiyyət müddəti təşkilatların rəhbərləri tərəfindən müəyyən edilir, lakin yolda olduğu müddət hesaba alınmamaqla bu müddət 40 gündən yuxarı ola bilməz (Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda çalışan diplomatik xidmət əməkdaşları, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər və digər təşkilatların nümayəndələri istisna olmaqla).

Təftiş və yoxlamalarla əlaqədar olaraq ezamiyyət müddəti müstəsna hallarda təşkilatın rəhbərinin sərəncamı (əmri) ilə təftiş və yoxlama qurtarana qədər artırıla bilər.

Quraşdırma, sazlama və tikinti işlərinin yerinə yetirilməsi üçün göndərilən fəhlələrin, rəhbər və mütəxəssislərin ezamiyyət müddəti müvafiq işlərin görülməsi müddətindən asılı olaraq müəyyən edilir.

**5.** Ezam olunan işçiyə ezamiyyətə getməzdən əvvəl ezamiyyətin müddətinə uyğun olaraq pul avansı verilir.

Pul avansı ezamiyyə xərclərinin 1 günlük normasına uyğun ezamiyyət günləri üçün tələb olunan xərclərdən və nəqliyyat xərclərindən ibarətdir.

Ezamiyyə xərclərinin 1 günlük normasına - gündəlik, mehmanxana, rabitə, şəhərdaxili nəqliyyat (taksidən istifadə istisna olmaqla) və digər xidmətlərlə bağlı xərclər daxildir.

Nəqliyyat xərclərinə - ezam olunma yerinə getmək və qayıtmaq, ölkədaxili nəqliyyat xərcləri (taksidən istifadə istisna olmaqla yaşayış məntəqəsindən kənarda yerləşən vağzala, limana (bərəyə), təyyarə meydanına və ölkə ərazisində digər məntəqələrə getmək) daxildir və bu xərclər təqdim edilən sənədlər əsasında ödənilir.

Qeyd olunan xərclərə nəqliyyatda sərnişinlərin icbari sığorta üzrə tədiyyələri, biletlərin qabaqcadan satışı üzrə xidmətin ödənilməsi, qatarlarda yatacaq ləvazimatlarından istifadə üçün xərclər də daxildir.

Nəqliyyat xərcləri ilə bağlı təsdiqedici sənədlər itirildiyi təqdirdə bileti satmış təşkilat tərəfindən biletin həqiqətən həmin şəxsə satılmasını təsdiq edən rəsmi sənəd (arayış) ödəniş üçün əsas götürülə bilər.

**6.** İşçi ezamiyyətdən qayıtdıqdan sonra ezamiyyət ilə əlaqədar xərclədiyi vəsaitlərin məbləği haqqında avans hesabatını 3 gün ərzində təqdim etməlidir.

Respublika ərazisi daxilində ezamiyyələr zamanı müəyyən olunmuş qaydada rəsmiyyətə salınmış ezamiyyət vəsiqəsi, xarici ölkələrə ezamiyyələr zamanı isə pasport və ya onu əvəz edən sənəddə ölkədən çıxmaq, ölkəyə qayıtmaq barədə səlahiyyətli orqanlar tərəfindən edilən müvafiq qeydin surəti və nəqliyyat xərcləri barədə təsdiqedici sənədlər avans hesabatına əlavə edilir.

**7.** Respublika ərazisi daxilində ezamiyyələr zamanı ezamiyyət yerində olmanın faktiki müddəti, ezamiyyət yerinə gəlmə və ezamiyyət yerindən getmə haqqında ezamiyyət vəsiqəsində edilən qeydlər üzrə müəyyən edilir. Əgər işçi müxtəlif yaşayış məntəqələrinə ezam olunmuşsa, gəlmə günü və getmə günü haqqında hər məntəqədə ayrıca qeyd edilir.

Xarici ölkələrə xidməti ezamiyyətlər zamanı ezamiyyətə getmək barəsində verilmiş rəsmi əmr və ölkədən çıxıb, ölkəyə qayıtmaq barə-

də pasport və ya onu əvəz edən sənəddə səlahiyyətli orqanlar tərəfindən edilən müvafiq qeyd ezamiyyət müddəti üçün əsas götürülür.

Dövlətlərarası razılaşmaya əsasən ölkədən çıxdıqda və ölkəyə qayıtdıqda pasport və ya onu əvəz edən sənəddə səlahiyyətli orqan tərəfindən müvafiq qeyd aparılmayan hallarda bu Qaydaların əlavəsinə uyğun olaraq "Ezamiyyə vəsiqəsi" verilə bilər. (İngilis dilində tərtib edilmiş variant)

Təşkilatlarda ezamiyyətə göndərilən və ezamiyyətdən qayıdan işçilərin qeydiyyatı müvafiq kitabda aparılmalıdır. Həmin kitabda ezam edilən və ezamiyyətdən qayıdan işçinin vəzifəsi, adı, soyadı, ezamiyyə vəsiqəsinin və ya şəxsiyyəti təsdiq edən sənədin nömrəsi, ezam edilən təşkilatın adı qeyd olunmalıdır.

**8.** Nəqliyyat vasitələrinin yola düşdüyü gün ezamiyyətə gedən gün, nəqliyyat vasitəsinin daimi iş yeri yerləşən yaşayış məntəqəsinə gəldiyi gün isə ezamiyyətdən qayıdan gün sayılır. Nəqliyyat vasitəsi saat 24-ə kimi (saat 24 də daxil olmaqla) yola düşərsə ezamiyyətə gedən gün cari gün, 00-saatdan sonra isə sonrakı günlər sayılır. Əgər nəqliyyat vasitəsinin yola düşdüyü yer yaşayış məntəqəsindən kənarda yerləşərsə, həmin yerə getmək üçün lazım olan vaxt nəzərə alınır. İşçinin daimi iş yerinə qayıtması günü eyni qayda ilə təyin edilir.

**9.** Ezamiyyətdə olduğu vaxt, o cümlədən yolda olduğu vaxt üçün ezam olunan işçinin əsas iş yeri (vəzifəsi) və orta aylıq əmək haqqı saxlanılır.

Ezamiyyətdə olduğu vaxtda işçinin istifadə etmədiyi istirahət günlərinin əvəzinə ezamiyyətdən qayıtdıqdan sonra istirahət günləri verilmir.

Təşkilat rəhbərinin tapşırığı ilə işçi istirahət günü ezam olunarsa, işçiyə həmin günün əvəzində əlavə istirahət günü verilir.

Ezam olunan işçilərə ezam olunduqları təşkilatların iş vaxtının rejimi və istirahət vaxtı tətbiq edilir.

Əvəzçilik üzrə işləyən işçi ezam olunan zaman onun orta aylıq əmək haqqı onu ezam edən təşkilatda saxlanılır. Əgər işçi əsas və əvəzçiliklə işlədiyi iş yeri üzrə eyni vaxtda ezam olunarsa, bu halda onun orta aylıq əmək haqqı hər iki iş yerində tutduğu vəzifə üzrə saxlanılır, ezamiyyət xərcləri isə müvafiq razılığa əsasən ezamiyyətə göndərən təşkilatlar arasında bölüşdürülür.

**10.** Ezam olunmuş işçi ezamiyyə müddətində əmək qabiliyyətini müvəqqəti itirdiyi halda, ona səhhətinə görə həvalə olunmuş xidməti

tapşırığı yerinə yetirmək və yaxud daimi yaşayış yerinə qayıtmaq imkanı olmadığı dövr üçün (altı aydan artıq olmamaq şərtilə) ezamiyyə xərclərinin 1 günlük normasına uyğun xərclər ödənilir.

Ezam olunmuş işçinin əmək qabiliyyətini müvəqqəti itirməsi, həmçinin də səhhətinə görə daimi yaşayış yerinə qayıtmaq imkanı olmaması, səhiyyə xidmətləri tərəfindən müəyyən olunmuş qaydada təsdiq edilməlidir.

Əmək qabiliyyətini müvəqqəti itirdiyi dövr üçün ezam olunan işçiyə ümumi əsaslarla əmək qabiliyyətini müvəqqəti itirməsi üzrə müavinət verilir. Əmək qabiliyyətini müvəqqəti itirdiyi günlər ezamiyyətin müddətinə daxil edilmir.

**11.** Bu Qaydalarda nəzərdə tutulan normalar daxilində ezamiyyə xərcləri büdcədən maliyyələşdirilən təşkilatlarda xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.

Digər təşkilatlarda təsdiq olunmuş normalar daxilində ezamiyyət xərcləri məhsulun (işin və xidmətlərin) maya dəyərinə daxil edilir və həmin təşkilatlar ezamiyyə xərclərinin normalarını öz sərəncamlarında qalan mənfəət hesabına artıra bilərlər.

**II. Respublika ərazisi daxilində ezamiyyələr**

**1.** İşçilərin tabeçilik qaydasında yuxarı təşkilatlara ezamiyyət müddəti yolda olduğu vaxt nəzərə alınmadan 5 gündən artıq olmamalıdır.

Ezamiyyət müddətinin müstəsna hallarda, işçini ezam edən orqanın rəhbərinin sərəncamı (əmri) ilə əlavə 5 gün artırılmasına icazə verilir.

**2.** Azərbaycan Respublikasının ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən müəyyən edilir.

Müvafiq sənədlərlə təsdiq edilmiş yolda məcburi dayanma vaxtı üçün xərclər müəyyən edilmiş normalara əsasən ödənilir.

**3.** Özünün daimi yaşayış yerinə hər gün qayıtmaq imkanı olan ezam olunan işçiyə belə bir yerə ezam olunduğu zaman yalnız müvafiq təsdiqedici sənədlər əsasında yol xərci ödənilir.

İşçinin hər gün ezam olunma yerindən özünün daimi yaşayış yerinə qayıda bilməsi məsələsi hər bir konkret halda məsafənin uzaqlığı, nəqliyyat əlaqəsinin şəraiti, yerinə yetirilən tapşırığın xarakteri, həmçinin də işçiyə istirahət üçün şərait yaradılmasının vacibliyi nəzərə alınmaq-

la ezam olunan işçinin işlədiyi təşkilatın rəhbəri tərəfindən həll edilir.

**4.** Quraşdırma, sazlama və tikinti işlərinin yerinə yetirilməsi üçün ezam olunan işçilər yaşayış yeri ilə təmin olunmadığı halda ezamiyyə xərcləri ümumi qaydada, yaşayış yeri ilə təmin olunduqda isə nəqliyyat xərcləri təsdiqedici sənədlər əsasında, gündəlik yemək xərci isə ezamiyyə müddətində hər təqvim günü üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə hər gün üçün ödənilən vəsaitin həcminə uyğun olaraq müəyyən edilir.

Quraşdırma, sazlama və tikinti işlərində ezamiyyət xərcləri aşağıdakı hallarda verilmir:

- quraşdırma, sazlama və tikinti işlərinin aparıldığı yerlərdə işə qəbul olunan işçilərə;
- məzuniyyətdə olduğu vaxt, həmçinin üzürsüz səbəbdən işə çıxmadığı günlər üçün;
- quraşdırma, sazlama və tikinti işləri aparılan yerdən kənarda, dövlət yaxud ictimai vəzifələri icra etdiyi vaxt üçün;

**5.** Büdcədən maliyyələşdirilən dövlət orqanlarında işin xüsusiyyətləri ilə əlaqədar olaraq respublika ərazisi daxilində xidməti minik avtomobilləri ilə xidməti ezamiyyətə gedilməsi zəruri olan hallarda nəqliyyat vasitələri üçün müəyyən edilmiş aylıq yürüş həddindən artıq yol qət edildiyi təqdirdə sərf edilən yanacağın dəyəri təsdiqedici sənədlər əsasında ezamiyyə xərcləri üçün nəzərdə tutulmuş vəsaitlər hesabına nəqliyyat xərci kimi ödənilir.

**6.** Respublika ərazisində daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) təşkilatların işçilərinə ezamiyyə xərcləri (yemək xərcləri) əvəzinə hər gün üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən məbləğdə vəsait ödənilir.

**III. Xarici ölkələrə ezamiyyələr**

**1.** Xarici ölkələrdə ezamiyyətdə olduğu müddətdə işçiyə ezamiyyət

xərcləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normasına uyğun olaraq ödənilir.

Təşkilatlar xarici ezamiyyə xərclərini, bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitləri mövcud qanunvericiliyə uyğun olaraq müvafiq xarici valyutaya çevirməklə ödəyirlər.

**2.** İşçi ezamiyyətə getdiyi və həmin gün Azərbaycan Respublikasına qayıtdığı halda ona nəzərdə tutulmuş ezamiyyə xərclərinin 1 günlük normasının 40 faizi həcmində vəsait ödənilir.

**3.** İşçi xarici ölkə ərazisi ilə getdiyi zaman ondan asılı olmayan səbəblərə görə tam 1 gün və artıq müddətə yolda ləngiyirsə, həmin müddət üçün ona ezamiyyə xərclərinin 1 günlük norması ərazisində ləngidiyi ölkə üçün müəyyən edilmiş normalar üzrə ödənilir.

Üzürsüz səbəbdən yolda yubandığı vaxt üçün işçiyə heç bir xərc ödənilmir.

**4.** Bütün ezamiyyə xərclərini dəvət edən tərəf öz üzərinə götürdüyü hallarda işçiyə ezamiyyə xərci ödənilmir.

Dəvət edən tərəf ezam olunan işçini yalnız yaşayış yeri ilə təmin etdiyi hallarda işçiyə hər gün üçün ezamiyyə xərclərinin 1 günlük normasının 40 faizi həcmində, işçini yalnız yemək xərci ilə təmin etdiyi hallarda isə hər gün üçün ezamiyyə xərclərinin 1 günlük normasının 60 faizi həcmində vəsait ödənilir.

Dəvət edən tərəf işçiyə yaşayış yeri və yemək xərcini nağd pulla ödədiyi halda, işçiyə nağd qaydada ödənilən vəsait ezamiyyə xərclərinin 1 günlük normasından az olarsa, həmin fərq işçiyə ödənilir.

Dəvət edən tərəf işçini yeməklə təmin edərək yaşayış yeri üçün nağd pul verdiyi halda, işçiyə nağd qaydada ödənilən vəsait ezamiyyə xərclərinin 1 günlük normasının 60 faizindən az olarsa, həmin fərq işçiyə ödənilir.

Dəvət edən tərəf işçini yaşayış yeri ilə təmin edərək yemək üçün nağd pul verdiyi halda, işçiyə nağd qaydada ödənilən vəsait ezamiyyə xərclərinin 1 günlük normasının 40 faizindən az olarsa həmin fərq işçiyə ödənilir.

Dəvət edən tərəfin xərcləri tam və ya qismən öz üzərinə götürməsi hər bir halda müvafiq sənədlər əsasında müəyyən edilir.

**5.** Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə

ezam olunan diplomatik xidmət əməkdaşlarına və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə müəyyən olunmuş müddətdə yaşayış yeri ilə təmin edilənədək mehmanxana xərcləri həmin ölkə üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən olunmuş ezamiyyə xərclərinin 1 günlük normasının 60 faizi həcmində ödənilir.

**6.** Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

**IV. İşçilərin ezamiyyə qaydalarının qüvvəyə minməsi**

**1.** İşçilərin ezamiyyə qaydaları 2008-ci il martın 1-dən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb. Qeydiyyat №3382, 21 fevral 2008-ci il***

***Azərbaycan Respublikasının Maliyyə Nazirliyində təsdiq edilib. Əmr № İ-24, 14 fevral 2008-ci il***

***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılıb. 15 fevral 2008-ci il, №11/30-108***

## "Vahid təqvim planına uyğun olaraq keçirilən respublika və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 yanvar 8 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 yanvar tarixli 8 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №1, maddə 52) ilə təsdiq edilmiş "Vahid təqvim planına uyğun olaraq keçirilən respublika və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları"nın 1 nömrəli cədvəlinin üçüncü sütunundakı "3; 3; 12" rəqəmləri müvafiq olaraq "10; 10; 25" rəqəmləri ilə əvəz edilsin.

**2.** Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A.Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**
№113; 15.05.2008-ci il

# Kitabın içindəkilər

Dövlət qayğısının əhatəsində və ya ön söz əvəzi . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3

**Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Pespublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qərarları**

Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu . . . . . . . . 8

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında . . . . . . . . . . . . 20

İdman Fondunun yaradılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22

Azərbaycan Respublikası idmançılarının təltif edilməsi haqqında . . . . . . . . . . . . . 23

Ə.Ə.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . 24

A.A.Banişevskinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . 24

M.H.Dadaşovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . 25

XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . 25

Azərbaycan uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27

Azərbaycan uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında . . . . . . . . . 28

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30

"İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında" Avropa Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu . . . . . . . . . . . . . . . . . . . . . 33

F.Z.Həsənovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . 33

Avstraliyanın Sidney şəhərində keçirilən XXVII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında . . . . . . . . . . 34

Azərbaycan Respublikası idmançılarının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35

V.M.Ələkbərovun və R.Q.Məmmədovun "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35

K.Ə.Tuayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . 36

XI Yay Paralimpiya Oyunlarında əldə edilmiş nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası müəllimlərinin təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası müəllimlərinə "Əməkdar müəllim" fəxri adı verilməsi haqqında . . . . . . . . . . . . . 41

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 42

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişikliklər edilməsi barədə . . . . . . . . . . . . . . . . . . 43

Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45

Ə.M.H. Çoudrinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . 46

Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının onillik yubileyi haqqında . . . . 47

Azərbaycan idmançılarının təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . 50

Azərbaycanın Olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında . . . . . . . . . . 51

Azərbaycanın Olimpiya çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdlərinin verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . 52

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında . . 53

XXVIII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında . . . . . . . . . . . . . . . . . . . . . 54

İdman, gənclər və sosial təminat sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57

Azərbaycan xalqının ümumilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 58

Yunanıstanın Afina şəhərində keçirilən XXVIII Yay Olimpiya oyunlarında ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında . . . . . . . . . . 64

Azərbaycan idmançılarının təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . 65

Yunanıstan Afina şəhərində keçirilən XII Yay Paralimpiya Oyunlarında əldə edilmiş nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında . . . . . . . . . . . . . 66

Y.S.Blatterin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . 67

Azərbaycan Olimpiya çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdlərinin verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . 67

"Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında . . . . . . . . . . . . . . . 68

"Azərbaycan Respublikasının fəxri adları haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 may tarixli 706 nömrəli Fərmanına əlavə və dəyişiklik barədə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin V Beynəlxalq İdman Oyunlarının təşkili və keçirilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 69

Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 70

Azərbaycan Respublikasında futbolun inkişafına dair Dövlət Proqramı (2005-2015-ci illər) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71

Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Əməkdar bədən ərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . 81

Azərbaycan Respublikasının bəzi nazirliklərinin yenidən təşkil edilməsi haqqında . . .82

Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, Nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə . . . . . . . 83

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 84

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin Strukturu . . . . . . . . . 93

Olimpiya çempionu İ.V.Rıskala Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 94

R.S.Hacıyevə "Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95

XXIX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95

İ.C.Cavadovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . 98

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikasının Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . 99

Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında . . 114

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında . . 115

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında . 116

Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin əmək haqlarının artırılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 117

A.A.Banişevskinin xatirəsinin əbədiləşdirilməsi haqqında . . . . . . . . . . . . . . . . . . 117

Azərbaycanda şahmatın inkişaf etdirilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . 118

Bakı şəhərinin XXXI yay Olimpiya və XV Paralimpiya oyunlarını keçirmək üçün namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üzrə təşkilat komitəsinin yaradılması barədə . . . . . . . . . . . . . . . . . . . 119

Mişel Fransua Platininin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . 122

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvləri və əməkdaşlarının təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 123

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvləri və əməkdaşlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında . . 124

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvləri və əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adlarının verilməsi haqqında . . . . . . . . . . . . . 125

A.Q.Abiyevə "Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi" fəxri adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 126

Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdünün məbləğinin artırılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 126

Azərbaycanda Olimpiya Hərəkatı və İdman Muzeyinin yaradılması haqqında . . . . .127

Paralimpiya oyunları çempionlarına Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin verilməsi haqqında . . . . . . . . . . . . . 130

Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 131

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin üzvlərinə "Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 132

Azərbaycan Respublikasında dövlət qulluğunda fərqlənən şəxslərin "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında . . . . . . . . . . . 132

Azərbaycan Respublikasının idman mütəxəssislərinə fəxri adların verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 133

Azərbaycan Respublikasının idman mütəxəssislərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında . . . . . . . . . . . 134

A.S.Mircavadovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . 135

Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XXI Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .135

Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XIII Yay Paralimpiya Oyunlarında Azərbaycan Respublikasının

əlil idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .136

Azərbaycan milli Olimpiya komandasının üzvlərinin təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .137

Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün məbləğinin artırılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .138

E.Ç.Məmmədliyə Azərbaycan Respublikası Prezidentinin xüsusi Olimpiya təqaüdünün verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . .138

İ.Ə.Zəkiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında . . . . . . . . . . . . . . . . . .139

Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" fəxri adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .139

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarları və idmanla bağlı maliyyə normativləri**

1996-cı ildə Amerika Birləşmiş Ştatlarının Atlanta şəhərində keçiriləcək XXVI Yay Olimpiya Oyunlarına Azərbaycan nümayəndəliyinin hazırlığının və yarışlarda iştirakının təmin edilməsi tədbirləri haqqında . . . . . . . . . . . . . . . . 141

Salyan şəhər Uşaq-Gənclər Şahmat İdman məktəbinə Fikrət Əliağa oğlu Mustafayevin adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 144

Gədəbəy İdman Kompleksinə Azərbaycan Milli Qəhramanı Məzahir İzzət oğlu Rüstəmovun adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 145

Mingəçevir şəhər stadionuna Yaşar Çələbi oğlu Məmmədzadənin adının verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 145

Böyük Qafqaz sıra dağlarındakı adsız yüksəkliyə “Heydər zirvəsi” adı verilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 146

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına çevirilməsi haqqında . . . . . . . . . . . . 146

XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . 147

Respublika Olimpiya Ehtiyat Məktəbinin statusunun dəyişdirilməsi haqqında . . .149

Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 150

Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar . . . . . . . . . . 151

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydalarının təsdiq edilməsi haqqında . . . . . . . . . . 152

Mütəşəkkil formada bədən tərbiyəsi və idmanla məşğul olarkən sağlamlığına ziyan dəymiş vətəndaşlara tibbi, sosial və peşə reabilitasiyası üzrə xidmət göstərilməsi Qaydaları . . . . . . . . . . 153

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydasının təsdiq edilməsi haqqında . . . . . . . . . . 155

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafına sponsorluğun əsasları və qaydası . . . . . . . . . . 156

Respublika İdman Tibb Mərkəzinin yaradılması haqqında . . . . . . . . . . 160

Uşaq-Gənclər İdman məktəbləri və İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəblərinin Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi haqqında . . . . . . . . . . 161

Uşaq-gənclər idman məktəbləri və ixtisaslaşdırılmış olimpiya ehtiyatları işaq-gənclər idman məktəblərinin Nümunəvi Əsasnaməsi . . . . . . . . . . 162

"Malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətinin müəyyən edilmiş minimum məbləğdən yuxarı olduqda, onun satın alınmasının açıq tender üsulu ilə aparılması haqqında", "Satınalan təşkilat tərəfindən mövcud bazarı olan və ehtimal olunan qiymətinin müəyyənləşdirilmiş minimum məbləğdən aşağı olan malların (işlərin və xidmətlərin) satın alınması üçün kotirovkalar sorğusundan istifadə edə bilməsi haqqında" və "Satınalmada yalnız yerli malgöndərənlərin (podratçıların) iştirak etdiyi və ya satın alan xidmətlərin ümumi qiymətinin müəyyənləşdirilmiş məbləğdən çox olmadığı hallar istina olmaqla, bildirişin həmçinin beynəlxalq miqyasda geniş yayılan mətbuat orqanında və internetdə dərc edilməsi haqqında" qaydalar . . . . . . . . . . 173

Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə Qaydalarının təsdiq edilməsi haqqında . . . . . . . . . . 175

Gənclərin dövlət mülkiyyətində olan bədən tərbiyəsi və idman obyektlərindən istifadə Qaydaları . . . . . . . . . . 176

"Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında . . 178

Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları . . . . . . . . . . . . . . . . . . . . . . . . 179

"Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 180

Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərclənməsi qaydaları . .181

Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xarici ölkələrin nümayəndə heyətlərinin, ayrı-ayrı rəsmi şəxslərin qəbulu və onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərc normaları. . . . . . . . .183

İdman təşkilatlarının və qurğularının xidmət heyətinin sahə say normaları . . . . . 185

"Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"na (hissə 77) dəyişiklik edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 187

"Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 188

Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi . . . . . . . . . . . . . . . 189

Minimum aylıq əmək haqqının artırılması ilə əlaqədar məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması barədə izahat . . . . . . . . . . . . . . . . . . . . . .194

Respublika Stend Atıcılığı İdman Məktəbinin yaradılması haqqında . . . . . . . . . . 196

Olimpiya idman növləri üzrə Milli Yığma Komandaların baş məşqçilərinə aylıq vəzifə maaşlarının təyin edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . 197

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin V Beynəlxalq İdman Oyunlarının keçirilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 198

V Beynəlxalq İdman Oyunlarının təşkili və keçirilməsi üzrə Respublika Təşkilat Komitəsinin tərkibi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 200

"Olimpiya Oyunları, Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli qərarına dəyişikliklər edilməsi barədə . . . . 202

Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına və

sərəncamlarına dəyişikliklər edilməsi barədə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 203

“Vahid təqvim planına uyğun olaraq keçirilən respublika və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üzün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları”nın təsdiq edilməsi haqqında . . . . . . . . . . . . . . . . . . . . . .211

Vahid təqvim planına uyğun olaraq keçirilən respublika və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .213

Bayram və ümumxalq hüzn gününün əmək məzuniyyəti dövrünə düşdüyü hallarda əmək məzuniyyətinin müddətinin uzadılması barədə izahat . . . . . . . . . . 222

“Azərbaycan Respublikasında gənclər, bədən tərbiyəsi və idman sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”na (hissə 77) əlavə” . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 223

“Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 24 mart tarixli 39 nömrəli qərarına dəyişiklik edilməsi barədə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 225

“Olimpiya idman növləri üzrə milli yığma komandaların baş məşqçilərinə aylıq vəzifə maaşlarının təyin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli qərarında dəyişiklik edilməsi barədə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 226

Ezamiyyə xərclərinin normaları haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .227

Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları . . . . . . . . . . . . . . . . . . . 229

Rəhbər işçilərin ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 234

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 236

İşçilərin Ezamiyyə Qaydaları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 239

“Vahid təqvim planına uyğun olaraq keçirilən respublika və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 yanvar 8 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında . . . . . . . . . . . . . . 246

# Qabil Mehdiyev



1977-ci il mayın 1-də Naxçıvan MR, Babək rayonunun Nehrəm kəndində anadan olub. 1994-cü ildə C.Məmmədquluzadə adına Nehrəm kənd 1 saylı orta məktəbini bitirib. 1998-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu (Hazırda Azərbaycan Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası) bitirərək politoloq ixtisasına yiyələnib. Hazırda ikinci ali təhsilini qiyabi olaraq Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında davam etdirir.

Qabil Mehdiyev 1997-ci ildən, hələ tələbəlik illərindən jurnalist fəaliyyəti ilə məşğul olmağa başlayıb. İlk yazıları "Zaman" qəzetində dərc olunub. 1998-2000-ci illərdə "Super sport" qəzetində əvvəlcə müxbir, sonra şöbə müdiri vəzifəsində çalışıb. 2000-ci ildən "İdman" qəzetinin baş redaktorudur. Eyni zamanda 2002-2005-ci illərdə "Turizm yenilikləri" qəzetinə də rəhbərlik edib. Ehtiyatda olan zabit kimi, 2005-2006-cı illərdə "Azərbaycan Ordusu" qəzetinin hərbi müxbiri vəzifəsində xidmət keçib. Gənc Jurnalistlərin Ümumrespublika Müsabiqəsinin (2001, 2002, 2004-cü illər) üçqat qalibi, 2007-ci ilin ən yaxşı idman jurnalisti seçilib. Rəhbərlik etdiyi "İdman" qəzeti 2000-ci ilin ən yaxşı idman nəşri adına layiq görülüb.

Müxtəlif mövzularda yazıları "İdman", "Zaman", "Respublika", "Olimpiya dünyası", "Azərbaycan Ordusu", "Super sport" qəzetlərində, eləcə də "Azərbaycan Təbiəti", "Azərbaycan-İrs", "Olimpiya", "Azerbaijan Review" jurnallarında dərc olunub.

"Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər" müəllifin sayca 5-ci kitabıdır. Bunadək "Heydər Əliyev və Azərbaycan idmanı", "10 il öncə başlanan yol", "Prezident İlham Əliyev və idmanımızın 5 ili" və "Azərbaycan boksu 80 ildə" kitabları işıq üzü görüb. Q.Mehdiyev bundan başqa "Boks olimpiya oyunlarında" kitabının redaktorudur.

# Bədən tərbiyəsi və idmanla bağlı hüquqi sənədlər

***Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunlar, dövlət proqramları, qərarlar və idman sahəsinə aid maliyyə normativləri***

**Nəşrə hazırlayan**
Qabil Mehdiyev

Yığılmağa verilib: 15.05.2008, Çapa imzalanıb: 28.12.2008,
Kağız formatı 60x90, 1/16, Ofset çapı, Fiziki çap vərəqi 16,
"İdman" qəzeti redaksiyasında hazırlanmış,
"Avropa" nəşriyyatında çap edilmişdir.

«Avropa» nəşriyyatı.
Bakı-2008